www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 5 avqust 2014-cü il Çərşənbə axşamı № 195 (5904) Qiymǝti 40 qəpik

**Xəbər**

## Qobustan həbsxanasında aclıq aksiyası keçirilir

yazısı səh.2-də

**Gündəm**

### Anar Məmmədovun müharibə poliqonu -Qolf meydançası



Prezidentin, Nərgiz Paşayevanın qızları və müxalifət liderlərinin cəbhə ilə bağlı statusları, nazir oğlunun da qolf açıqlaması...

yazısı səh.4-də

### Leyla Yunusun səhhətində problemlər yaranıb

Hüquq müdafiəçisi şəkər xəstəliyindən əziyyət çəkir; Arif Yunus səfirliklərlə görüşlər keçirir

yazısı səh.3-də

### Nazir oğlu "Yeni Müsavat"ın pullarını oğurladı

yazısı səh.4-də

### Kafir bir addımlıqda - vuruşmaq istəyən varmı...

yazısı səh.9-da

### Ağdamda müdafiə nazirinin mühafizəçisi də şəhid olub

Erməni komandir İrəvanı ölmüş əsgərlərin meyitlərini gizlətməkdə suçlayıb...

yazısı səh.13-də

### Yadigar Sadıqov 14 saylı həbsxanaya köçürülüb

Penitensiar Xidmət müsavatçını 51 saat sonra "tapdı"

yazısı səh.3-də

### Tarixin məşhur simalarının türmə həyatı

Stalin oğurluğa görə 5 dəfə türməyə düşüb, Yanukoviç isə dələduzluğa görə...

yazısı səh.14-də

### Obama Ərdoğanın telefonunu açmır - Türkiyə gündəmi

yazısı səh.8-də

### Günün altında qovurulanlar...

Əməkdaşımız istidə ağır işlərdə çalışanlardan yazdı

yazısı səh.12-də

### Şəhid verən ölkənin toy -nişandan qalmayan vətəndaşları...

yazısı səh.15-də

## Cəbhədəki döyüşlər böyük hərbi əməliyyata çevrilə bilər

# VƏTƏN MÜHARİBƏSİ ! - AZƏRBAYCAN ÜÇÜN UNİKAL ŞANS

Ölkədə tam bir müharibə ab-havası yaranıb, insanlar orduya yazılmaq üçün komissarlıqlara axın edirlər; Müdafiə Nazirliyi döyüş bölgəsinə böyük canlı qüvvə və texnika yığıb; Pənah Hüseyn: "Son 20 ildə ilk belə hadisədir ki, vətənpərvərlik və döyüş əhval-ruhiyyəsi yüksəkdir"




yazısı səh.5-də

## Toni Bleyer Azərbaycan qazı uğrunda vuruşur - İtaliya dağlarında

Sabiq baş nazir Rusiya-Azərbaycan gizli çəkişməsinin mərkəzində; qazımızı Avropaya nəql etdirmək uğrunda başlayan davada "suitilərin cütləşməsi" amili; ölkəmiz Avropaya getdikcə daha çox lazım olur...

yazısı səh.11-də



### Röya Ayxan niyə boşanıb? - açıqlama

yazısı səh.2-də



*Hacı İbrahim Nehrəmli:*

### "50 milyonluq ev sata bilsəm..."

yazısı səh.10-da



### Putin Əliyev və Sərkisyanla ayrılıqda görüşəcək

yazısı səh.2-də

**5 avqust 2014**

Azercell

## «Azercell»in Barama Mərkəzindən “Biznes dünyasına giriş”



**Ölkənin mobil rabitə bazarının lideri «Azercell Telekom»un ən uğurlu layihələrindən olan Barama İnnovasiya və Sahibkarlıq Mərkəzi biznes və sahibkarlıq dünyası ilə maraqlanan gənclər üçün növbəti tədbiri keçirib. Avqustun 2-də “Biznes dünyasına giriş” adlı görüşdə təcrübəli mütəxəssislər tərəfindən tədbir iştirakçılarına innovasiya, şirkət səhmləri və biznesin inkişaf prosesi haqqında danışılıb. Tədbirdə «Azercell Telekom» MMC-nin əməkdaşı Kamran Səmədli “Strateji İnnovasiya” mövzusu ilə istər gündəlik həyatda, istərsə də biznesdə yeniliklərin edilməsindəki şərtləri tədbir iştirakçıları ilə paylaşıb. “Səhm alqı-satqısı” mövzusu ilə şirkətin əməkdaşı Ağarza Məlikov yeni başlayanlar ilə şirkət səhmləri, onların alqı-satqısı, analitikası və dəyərləndirilməsi haqda təcrübələrini bölüşüb. Təcrübəli sahibkar, GoldenPay şirkətinin və hesab.az portalının yaradıcısı Fərid İsmayılzadə isə öz təcrübələrindən irəli gələn bir ideyanın startup-dan səhmdar şirkətə qədər olan həyat tsikli haqda tədbir iştirakçılarına məlumat verib.**

**Məlumat üçün bildirək ki, fəaliyyət göstərdiyi qısa müddət ərzində Barama Mərkəzinin dəstəyi ilə bir sıra uğurlu layihələr icra olunub. Azərbaycandan və dünyanın müxtəlif yerlərindən olan bir sıra böyük şirkətlərin dəstəyi ilə gənc sahibkarlar üçün müsabiqələr, müxtəlif təhsil və qrant proqramları keçirilib.**

**Bugünlərdə isə «Azercell»in dəstəyi və təşəbbüsü ilə Barama Mərkəzinin yeni ofisi istifadəyə verildi. Bu mərkəz gələcək sahibkarların ideyalarının daha effektiv reallaşması üçün gərəkli olan avadanlıqlarla təchiz edilib. Yeni ofisdə layihələr çərçivəsində müxtəlif tədbirlərin keçirilməsi üçün iri konfrans zalı mövcuddur. Həmçinin mərkəz otaqları təlimlərin yüksək səviyyədə baş tutması üçün smart lövhə ilə təmin edilib. Ofisin digər üstünlüyü ondadır ki, burada gənc sahibkarlar günün 24 saatı fasiləsiz olaraq işləyib mərkəzin imkanlarından yararlana bilərlər. Əvvəlki ofisdən fərqli olaraq, yeni mərkəzdə, həm də Barama layihəsi iştirakçılarının istirahəti üçün oyun zalı yaradılıb.**

**«Azercell» hər zaman olduğu kimi, sosial məsuliyyət üzrə öhdəliyinə sadiq qalaraq ölkədə bütün sahələrdə gənc nəslin yetişməsinə şərait yaradır və bütün istedadlı gəncləri Barama İnnovasiya və Sahibkarlıq Mərkəzinə dəvət edir.**

**Daha ətraflı məlumat üçün news@mcs.az ünvanına müraciət edə bilərsiniz**

**«Azercell Telekom» MMC 1996-cı ildə təsis edilmişdir və fəaliyyətinin ilk illərindən etibarən bazarda lider mövqeyini saxlayır. Bir sıra innovativ texnologiya və konsepsiyaları ilk dəfə olaraq, Azərbaycana «Azercell» gətirib: GSM texnologiyası, öncədən ödəmə mobil xidmətləri, GPRS/EDGE (mobil internet), 24/7 Telefon Mərkəzi, tam xidmət göstərən «Azercell Ekspres» ofisləri, mobil elektron xidməti “Asan İmza” və s. Azərbaycanın mobil rabitə bazarındakı payı 51% olan «Azercell»in şəbəkəsi ölkə əhalisinin 99,8%-ni əhatə edir. 2013-cü ilin sonuna «Azercell» abunəçilərinin sayı 4,5 milyon nəfər təşkil etmişdir. 2011-ci ildə «Azercell» 3G, 2012-ci ildə isə 4-cü nəsl şəbəkəsi olan LTE xidmətini təqdim etmişdir. «Azercell» Azərbaycanın mobil rabitə sənayesinin lideri və qeyri-neft sektorunun ən böyük sərmayədarıdır. «Azercell» dünyanın 17 ölkəsində fəaliyyət göstərən, ümumilikdə 186 milyon abunəçiyə xidmət edən və 27 min əməkdaçı olan TeliaSonera şirkətlər qrupunun bir hissəsidir.**

# “Sevil” MMC qalmaqalı ATV-yə çatdı

### Tikinti şirkətinin müştəriləri kanalla “yalançı reklam” davasına çıxıb

**Minlərlə insanın ev almaq istəyini gözündə qoyan “Sevil” MMC tikinti şirkəti ilə bağlı araşdırmalar davam edir.**




Aldığımız son məlumata görə, Korrupsiyaya Qarşı Mübarizə İdarəsi “Sevil” MMC və şirkətə məxsus yaşayış massivini möhürləyərək qapadandan sonra minlərlə müştəri biçarə durumda çıxış yolu axtarır. Onların bir çoxu baş verənlərdə ATV kanalını da suçlu bilir. Bu da səbəbsiz deyil. “Sevil” MMC-nin ən sərfəli şərtlərlə tikinti həyata keçirməsini sürəkli şəkildə reklam edən məhz bu kanal olub. “Sevil”ə üz tutanların böyük əksəriyyəti ən sərfəli şərtlərlə ev almaq arzularını gerçəkləşdirə biləcəklərini ATV-dən eşidiblər, ora gedib müqavilə bağlayıblar. İndi isə şirkət bağlanıb, minə yaxın vətəndaşın böyük pulları əllərindən çıxıb. Onların əli “Sevil” MMC-nin rəhbərinə çatmır - Aynur Zeynalov 3 ay müddətinə həbs olunub və Bakı İstintaq Təcridxanasında saxlanılır. Qalır ATV. Bu telekanalda “Sevil” MMC-nin reklamını təqdim edən Turan İbrahimov olub. Bu səbəbdən də “Sevil” müştəriləri onu suçlu bilirlər. Hər gün yüzlərlə müştəri israrla telekanala zəng edib “yalançı reklam” hesabına aldadıldıqlarını, böyük paralarının əllərindən bu yolla alındığını deyirlər.

Aldığımız məlumata görə, “Sevil” MMC-nin reklamı ATV efirinə Turan İbrahimovun əlaqələri hesabına ayaq açıb. Hazırda bu məsələnin Vergilər Nazirliyi tərəfindən araşdırlması xəbəri də var.

Qeyd edək ki, iyulun 25-də Baş Prokurorluq “Sevil Massivi” Mənzil Tikinti Kooperativinin (MTK) təsisçisi Aynur Zeynalovun və həmin kooperativin direktoru Elçin İsmayılovun həbsi haqda məlumat yayıb. Həmin məlumatda bildirilir ki, A.Zeynalov və digərləri qabaqcadan əlbir olub 2013-2014-cü illərdə 172 min 507 manat məbləğində sadələşdirilmiş vergini dövlət büdcəsinə ödəməkdən yayınıblar. Qanunsuz sahibkarlıq fəaliyyəti ilə məşğul olaraq 99 min 597 manat məbləğində gəlir əldə etmələrində şübhələr üçün əsaslar olduğundan Vergilər Nazirliyi yanında Vergi Cinayətlərinin İbtidai Araşdırılması Departamenti tərəfindən onlara Cinayət Məcəlləsinin 192.2.2 (qanunsuz sahibkarlıq) və 213.2.2-ci (vergi ödəməkdən yayınma) maddələri ilə ittiham elan edilməklə barələrində məhkəmənin qərarı ilə həbs-qətimkan tədbiri seçilib. Şirkətin yaşayış massivi salacağı ərazinin də qanunsuz əldə olunması da rəsmi məlumatda bildirilib. Hazırda “Sevil Massivi” MTK-da tikinti və satış işləri dayandırılıb, törədilmiş cinayət nəticəsində fiziki və hüquqi şəxslərə vurulmuş ziyanın müəyyən edilərək onların hüquqlarının bərpa olunması, eyni zamanda cinayətin digər iştirakçılarının müəyyənləşdirilməklə istintaqa cəlb olunmaları istiqamətində zəruri istintaq-əməliyyat tədbirləri Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsi tərəfindən davam etdirilir.

Xatırladaq ki, adıçəkilən MTK-nın işlərinin düyünə düşdüyü, alıcıların aldadıldığı və kooperativ rəhbərinin həbs edilməsi barədə ilk olaraq “Yeni Müsavat” qəzeti yazmışdı. Ancaq məlumat MTK-nın məsul işçiləri tərəfindən israrla təkzib olunurdu.

**Yazıda adı hallanan hər kəsi dinləməyə hazırıq.**

❑ E.MƏMMƏDƏLİYEV

## Putin Əliyev və Sərkisyanla ayrılıqda görüşəcək

**Rusiya xarici işlər naziri Sergey Lavrov Ermənistan-Azərbaycan cəbhə xəttindəki son gərginliklə bağlı açıqlama verib. “Qafqazinfo” Rusiya KİV-nə istinadən xəbər verir ki, Lavrov hər iki ölkənin münaqişənin nizama salınması prinsiplərinə uyğun sənəd imzalamaları üçün ATƏT-in Minsk Qrupunun az səy göstərmədiyini vurğulayıb:**

“Təbii ki, təmas xəttində baş verənlər bizi narahat edir. Tərəflər bir-birilərini təxribatçı hərəkətlərdə ittiham edir. Bunlar əvvəllər də baş verib və təəssüf ki, artıq uzun illərdir bu tipli qığılcımlar müşahidə edirik. Lakin bu dəfə nədənsə kəskin bir şəkildə qəbul və təqdim edildi. Az insan tələfatı olmadı və biz digər ölkələrlə, o cümlədən ATƏT-in Minsk Qrupu üzvləri -Rusiya, ABŞ və Fransa ilə birgə tərəfləri qəti şəkildə maksimum təmkinlilik göstərməyə, növbəti zorakılığa səbəb ola biləcək hər hansı hərəkətdən daşınmağa çağırdıq.

Lavrov həmçinin qeyd edib ki, bu həftə Soçidə Rusiya prezidenti ilə Ermənistan dövlət başçısı, daha sonra Azərbaycan prezidentinin ayrı-ayrılıqda görüşü nəzərdə tutulub. Nazir bildirib ki, onlar bir araya gəlsələr, o zamanı Qarabağ məsələsi də müzakirə ediləcək: “Lakin bu necə təşkil ediləcək, onların özlərindən asılıdır. Münaqişə hər iki tərəfdən həddindən artıq emosional qəbul edilir”.

## Polis polkovnik-leytenantı qəzada öldü

**Bakıda ağır yol qəzası baş verib. Pirallahı Rayon Polis Şöbəsindən APA-ya verilən məlumata görə, hadisə avqustun 3-də Dübəndi qəsəbəsində qeydə alınıb. Bakı şəhər sakini Fuad Ramiz oğlu Allahverdiyevin idarə etdiyi “Mercedes” markalı avtomobil Bayram Ağayevin idarə etdiyi “Volkswagen” markalı maşınla toqquşub. Nəticədə F. Allahverdiyev aldığı xəsarətlərdən hadisə yerindəcə keçinib.**

Polisdən həmçinin bildirilib ki, qəza zamanı dünyasını dəyişən F. Allahverdiyev Daxili İşlər Nazirliyinin Təchizat İdarəsinin avtonəqliyyat şöbəsinin əməkdaşıdır. O, polis polkovnik-leytenantı rütbəsi daşıyıb.

Daxili İşlər Nazirliyi polis polkovnik-leytenantının ölümünə səbəb olan yol qəzası ilə bağlı məlumat yayıb. Məlumata görə, hadisə yerində ölən F. Allahverdiyevin sərnişini, azyaşlı oğlu Yusif, habelə B. Ağayev və sərnişinləri Rasim Süleymanov, Əlvanə Məmmədova və onun azyaşlı qızı Aysu xəstəxanaya yerləşdiriliblər.

Faktla bağlı araşdırma aparılır.

## Hərbi hissə komandiri vəfat etdi

**Azərbaycanda hərbi hissə komandiri vəfat edib. APA-nın məlumatına görə, Silahlı Qüvvələrin Salyanda yerləşən intizam xarakterli hərbi hissəsinin komandiri, polkovnik-leytenant İxtiyar Məmmədov dünyasını dəyişib. Onun ürək tutmasından öldüyü bildirilir.**

Müdafiə Nazirliyinin mətbuat xidmətindən APA-ya faktı təsdiqləyiblər.

Bildirilib ki, İ. Məmmədov məzuniyyətdə olarkən, Ağdaş rayonunda yaşadığı evdə dünyasını dəyişib.

## Kürdə batan bacı-qardaş dəfn olundu

**Avqust ayının 2-də Kür çayında batan daha iki nəfərin - Rafiq Civişovun və Gülmirə Civişovanın meyiti dünən doğulduqları Çaylı kəndində yanaşı qəbirdə torpağa tapşırılıb.**

Dəfndə Çaylı kənd sakinləri, Qazax rayon icra başçısının Çaylı kənd nümayəndəsi, doğmaları, yaxınları iştirak ediblər.

Qeyd edək ki, torpağa tapşırılanların anası mərhumə Pərvanə xanım bir gün öncə dəfn edilib. Ailənin suda batan böyük qızı Aytən Civişovanın meyitinin tapılması üçün isə FHN-in əməkdaşları və Yuxarı Salahlı kənd sakinləri tərəfindən axtarış gedir.

Əlavə edək ki, Aytən 8 aylıq hamilə olub.

❑ Hikmət ORHUN

## Röya Ayxan niyə boşanıb? - mətbuat katibinin açıqlaması

### “Qismət... Röya ulduz həyatı yaşayır...”

**Tanınmış müğənni Röya Ayxanın həyat yoldaşı Anar Cəlilovdan boşanması ilə bağlı açıqlama cəmiyyətdə maraqla qarşılandı. Xoşbəxt ailə tablosu ilə yaddaşlarda qalan bu cütlüyün birdən-birə ayrılması həm də heyrətə səbəb oldu.**

Boşanma səbəbinin nələr olmasını öyrənmək üçün müğənninin özü ilə əlaqə saxlamağa cəhd göstərdik. Lakin bu, baş tutmadı. Bu səbəbdən də mətbuat katibi Türkan Məmmədlini danışdırdıq.

***T.Məmmədli:***

“Düzü, elə bir xüsusi səbəb də yoxdur. İnsanlar birləşir, ayrılır. Boşanma ilə bağlı detalları deyə bilməyəcəm. Açığı elə ciddi detal da yoxdur. Hər halda, qismət deyilən bir anlayış var. Qismət bu imiş. Röya ulduz həyatı yaşayır, ailədir, yəqin nəsə fikirləri üst-üstə düşməyib”.

Boşanma xəbərinə ətrafdakıların necə reaksiya verdiyini xəbər aldıqda T.Məmmədli belə cavab verdi:

“Fanatları çox üzüldü. Amma sevinənlər də oldu. Röya dostunu, düşmənini onsuz da gözəl bilir”.

❑ Fəridə ABDIYEVA

## Qəzet, jurnal və kitab əldə etməyin ən rahat yolu!

Siz sifariş edirsiniz,
biz istədiyiniz ünvana çatdırırıq!

Xaricdə və Azərbaycanda nəşr olunan bütün qəzet və jurnallara abunə olmaq, həmçinin Rusiyada və Azərbaycanda nəşr olunan kitabları daha sərfəli qiymətə və daha qısa vaxt ərzində əldə etmək üçün sadəcə zəng etməyiniz və ya email yazmağınız kifayətdir.

**Telefon: (012) 434 93 01, 434 01 33**

MÜSAVAT

## Müsavat Divanı toplandı

**Dünən Müsavat Partiyası Divanının növbəti toplantısı keçirilib. Partiyadan verilən məlumata görə, toplantı son günlərdə cəbhə xəttində şəhid olan əsgərlərimizin xatirəsi sayğı ilə yad edilərək başlayıb.**

Müsavat Partiyası vətən uğrunda şəhid olan övladlarımızın ailə üzvlərinə, yaxınlarına, eləcə də bütün xalqımıza başsağlığı verərək, yaralıların tez bir zamanda sağalması üçün onlara Allahdan şəfa diləyib: “Divanda son günlər cəbhə xəttində baş verən döyüşlər və Azərbaycan ordusunun verdiyi itkilərdən narahatlıq ifadə edilib və bu barədə partiyanın yaydığı bəyanat müsbət qiymətləndirilib. Həmin bəyanatda şəhidlərin qanının yerdə qalmaması üçün Müdafiə Nazirliyindən və Azərbaycan hakimiyyətindən bu hadisələrlə bağlı ictimaiyyətə dəqiq məlumat verilməsi, çoxsaylı itkilərin səbəblərinin araşdırılması və belə hadisələrin təkrarlanmaması üçün təxirəsalınmaz tədbirlər görülməsi zəruri hesab edilmişdi. Müsavat Partiyası tələb etmişdi ki, hakimiyyət ya işğal olunan torpaqlarımızın azad olunmasını həyata keçirsin, ya da atəşkəs dövründə əsgərlərimizin həyatının qorunmasını təmin etsin.

Yığıncaqda Azərbaycan hakimiyyətinin son zamanlar Müsavat Partiyasının fəallarına, vətəndaş hərəkatının təmsilçilərinə, QHT rəhbərlərinə qarşı həyata keçirdiyi repressiyaların daha da gücləndiyi qeyd olunub. Sirac və Fərəc Kərimli qardaşlarının, Leyla Yunusun, Xəqani Məmmədin və Rəsul Cəfərovun həbs olunmasına, Arif Yunus və bir sıra QHT rəhbərlərinə qarşı cinayət işinin qaldırılmasına, Yadigar Sadıqovun qanun pozuntusuna yol verilərək daha ağır şəraitli 14 saylı cəzaçəkmə müəssisəsinə göndərilməsinə kəskin etiraz bildirilib. Repressiyalara son qoyulması, bütün siyasi məhbusların dərhal azad edilməsi tələb edilib.

## Qobustan həbsxanasında aclıq aksiyası keçirilir

**Qobustan qapalı həbsxanasında kütləvi aclıq aksiyası başlayıb. Bu barədə qaynar.info-ya məhbusların yaxınları məlumat veriblər.**

Onlar bildiriblər ki, avqustun 3-ü səhər saat 6:00-dan etibarən məhbuslar Qobustan qapalı həbsxanasında kütləvi aclıq aksiyasına başlayıblar. Buna səbəb isə həbsxanaya yeni təyin olunmuş rəis Fikrət Qafarovun məhbuslarla kobud davranışı və qanunsuz əməlləridir. Məhbuslar aclıq aksiyası ilə bağlı ədliyyə generalı Mədət Quliyevə müraciət ünvanlayıblar. Amma bütün bunlara baxmayaraq, həbsxana rəisi qanunsuz əməllərini davam etdirir.

Mövzu ilə bağlı Penitensiar Xidmətin də mövqeyini dərc edəcəyik.

YENİ MÜSAVAT
N 195 (5904) 5 avqust 2014



**Yazarımız Tofiq Yaqubluya Azadlıq!**



# Yadigar Sadıqov 14 saylı həbsxanaya köçürülüb

## Penitensiar Xidmət müsavatçını 51 saatdan sonra "tapdı"

**Penitensiar Xidmət Müsavatın həbsdə olan başqan müşaviri Yadigar Sadıqovun harada olması barədə 51 saat sonra məlumat yayıb. Əvvəl Y.Sadıqovun Hüquqlarını Müdafiə Komitəsi öyrənib ki, müsavatçını Şüvəlan təcridxanasından çıxarıb Salyandakı Xələc həbsxanasına aparıblar.**

Ancaq nə ailəsi, nə müdafiə komitəsi onun haqqında səhih məlumat ala bilib.

Müdafiə komitəsinin sədri Elman Fəttah bildirib ki, Y.Sadıqov Şüvəlan təcridxanasından Xələcə aparılmaq adı ilə çıxarılıb: "Onun harada olduğunu bilmirdik. Bununla bağlı nə bizə, nə də ailə üzvlərinə, nə də vəkillərinə məlumat verilib. Qanunvericiliyə görə, yerdəyişmədə Yadigar Sadıqov da iştirak etməli, onun razılığı alınmalı idi, vəkillərinə bu barədə xəbər etməli idilər. Bunların heç biri baş verməyib".

Avqustun 4-də isə qaynar.info-nun sorğusuna cavab olaraq Penitensiar Xidmətdən bildirilib ki, saxlanılma yeri barədə qanunvericiliyə uyğun ailə üzvlərinə məlumat verilib. Ancaq qəribədir ki, ailəsinin bu məlumatdan xəbəri olmayıb.

**Y.Sadıqovun anası Gövhər Sadıqova deyib ki, Penitensiar Xidmət onlara heç nə deməyib. Müsavat Partiyası da ötən gün siyasi dustaqla bağlı yaydığı bəyanatda hakimiyyətdən yol verilən qanunsuzluqlara son qoyulmasını tələb edib:** "Yadigar Sadiqovun Apelyasiya Məhkəməsi 22 iyul 2014-cü il tarixdə başa çatıb.

Qərarın təcridxanaya təqdim edildiyi gün cəzaçəkmə müəssisəsinə köçürülməli idi. O, dünənədək saxlanıldığı Şüvəlan təcridxanasının rəhbərliyinin məlumatına əsasən qeydiyyatda olduğu Lənkəran şəhərinə yaxın olan, Salyanda yerləşən Xələc həbsxanasına göndərilməli idi.

02 avqust saat 12:00-da "Xələcə aparırıq" adı ilə Y.Sadıqov Şüvəlan təcridxanasından çıxarılsa da, Xələcə aparılmayıb və onun hara aparıldığı haqqında nə vəkilləri, nə də ailəsi məlumatlandırılmayıb".

Nəhayət, 51 saat sonra onun 14 saylı cəzaçəkmə müəssisəsində saxlandığı məlum olub. Müsavatçının müdafiə komitəsindən bildirilib ki, daimi yaşayış yerinə yaxın cəzaçəkmə müəssisəsinə köçürülməsi qanunun tələbidir və onun 14 saylı cəzaçəkmə müəssisəsinə köçürülməsi qanunun pozuntusudur. Bu qanunsuzluğun aradan qaldırılması üçün hüquqi müstəvidə addımlar atılacaq.

**E.Fəttah "Yeni Müsavat"a dedi ki, Y.Sadıqovun olduğu cəzaçəkmə müəssisəsi Qızıldaş qəsəbəsində yerləşir:** "Bizim şübhələrimiz və narahatlığımız davam edir. Penitensiar Xidmətin bu davranışı aydın deyil və qanun pozuntusudur.

Bu işlə vəkillər məşğul olacaq. Əvvəla, 51 saat onun yeri gizlədilib, ikincisi, yaşayış yerinə yaxın həbsxanaya aparılmalı idi. Hər iki halla bağlı addımlar atılacaq. Penitensiar Xidmət addımını əsaslandırmalıdır".

Komitə rəhbəri bildirdi ki, onun yeri Y.Sadıqovun müəyyən etdiyi şəxs tərəfindən açıqlanmayıb, Penitensiar Xidmətin hər hansı şəxsi onlara məlumat verib.

❑ **E.SALAMOĞLU**

# Leyla Yunusun səhhətində problemlər yaranıb

## Hüquq müdafiəçisi şəkər xəstəliyindən əziyyət çəkir; Arif Yunus səfirliklərlə görüşlər keçirir

**İyulun 30-da həbs edilən Sülh və Demokratiya İnstitutunun (SDİ) rəhbəri Leyla Yunus hazırda 1 saylı Bakı İstintaq Təcridxanasında saxlanılır. Şəkər xəstəliyindən əziyyət çəkən 60 yaşlı hüquq müdafiəçisinin səhhəti günü-gündən pisləşir. Vəkil və həbsxana daxilindən gələn məlumatlar heç də ürəkaçan deyil. Belə ki, əldə etdiyimiz məlumata görə, Leyla Yunusun xəstəliyi həyatı üçün təhlükəli vəziyyətə gəlib.**

SDİ rəhbərinin həyat yoldaşı, onunla eyni zamanda, barəsində Cinayət Məcəlləsinin 274 və 178-ci maddələri ilə cinayət işi açılaraq, səhhəti ilə əlaqədar ev dustaqlığına məhkum edilən Arif Yunus "Yeni Müsavat"a açıqlamasında Leyla Yunusun xəstəliyinin günbəgün artdığını bildirdi: "Həyat yoldaşımla görüşümə icazə verilmir. Yalnız vəkil görüşə bilir. Şənbə günləri ona dərmanlar apara bilirəm. Bildiyiniz kimi, o, şəkər xəstəsidir. Ona xüsusi dərmanlar və yemək lazımdır. Leyla xanım hər 3 saatdan bir dərman qəbul etməlidir. Əks halda, səhhətində cidd problemlər yarana bilər. Şəkər xəstəliyi insan stressdə olan zaman daha tez sürətlənir. Keçən ildən başlayaraq, Leylada şəkər xəstəliyi yaranıb. İndi yenə də problem yaranıb. Hazırda bu məsələ ilə bağlı səfirlərlə görüşürəm. Yaxın zamanlarda yenidən bəzi səfirlik, beynəlxalq təşkilatlarla görüş planlaşdırıram. İndiyə qədər onun özü ilə danışmamışam. Buna şərait yaradılmır. Məndə bəzi suallar yaranıb. Amma Leyla xanımın özü ilə əlaqəm olmadığına görə suallarım cavabsız qalıb".



**Arif Yunus təcridxananın hədsiz dərəcədə isti olmasından gileyləndi:** "Şənbə günü təcridxanaya getmişdim. Leylaya dərmanlar və lazımi ləvazimatlar aparmışdım. Deyilməyəcək dərəcədə isti bir yerdir. Mənim özümün bir anlığa vəziyyətim pisləşdi. Bayırda elə bir isti varsa, görün içəri nə vəziyyətdədir. Təcridxananın daxilində xəstəliyin necə müalicə olunmasından, ambulansın olub-olmamasından xəbərim yoxdur. Əsas problemlərdən biri təcridxananın uzaqda olmasıdır. Çünki mən saat 6-da şəhərdə olmalıyam. Geciksəm, raport yazırlar. Özüm də hər gün saat 6-da polisdə olmalıyam. Təcridxana getdiyim zaman növbə gözləməliyəm. Bu isə gecikməyimə səbəb olur. Yaxın günlərdə aidiyyəti orqanlara müraciət edəcəm. Tez-tez təcridxanaya getməyimə şərait yaradılması ilə bağlı. Çünki həqiqətən bu çox vacibdir. Həyat yoldaşıma dərmanlar tez-tez aparılmalıdır".

**Arif Yunus şəxsinə qarşı irəli sürülmüş ittiham maddələri ilə bağlı sualımıza belə cavab verdi:** "Özüm haqqında ümumiyyətlə fikirləşmirəm. İyulun 30-da prokurorluqda olanda dedim ki, may ayında xəstəxanada olarkən, vəkil vasitəsilə ifadə vermək istəmişəm. Amma gəlmədilər. Onların əsas məqsədi Leylaya qarşı ifadələr almaq olub. Bütün suallardan mən və xanımım imtina etdi. Biz heç bir sənədə qol çəkmədik. Sona qədər mövqeyimiz belə də qalacaq. Çünki Azərbaycanda istintaq yoxdur. Açıq-aşkar yuxarıların tapşırıqları icra edilir. Məhkəmələr də bu sistemdə işləyir. "Yeni Azərbaycan", "Səs", "Kaspi" və başqa bu tərzdə yazan qəzetlərin 20 ildir dərc etdikləri məlumatlar bizə qarşı irəli sürülən ittihamnamədədir. İttihamnaməni oxuyan hər bir insanda bu fikir formalaşır ki, hansısa jurnalist yazıb. Yəni bunların hamısı birbaşa sifarişdir. Sadəcə olaraq, yerinə yetirilir".

Xatırladaq ki, Leyla Yunus haqqında Cinayət Məcəlləsinin 274 (dövlətə xəyanət), 178 (dələduzluq), 192 (qanunsuz sahibkarlıq) və 223 (vergidən yayınma) maddələri ilə cinayət işi açılaraq, barəsində Nəsimi Rayon Məhkəməsinin qərarı ilə 3 aylıq həbs-qətimkan tədbiri seçilib. Arif Yunus haqqında isə 274 və 178-ci maddələrlə ittiham irəli sürülüb.

❑ **Cavanşir ABBASLI**

# Müxalifət liderləri şəhidlərimizin yasında niyə iştirak etməyib?

## Hamı deyir ki, dəfndə iştirak vacibdir, amma...

**Son bir neçə gündə cəbhə bölgəsində baş verənlər cəmiyyət tərəfindən ciddi şəkildə və narahatlıqla izlənilir. Olaylara bəzi siyasilər artıq münasibət bildirib. Eyni zamanda bəzi iqtidar nümayəndələri şəhidlərimizin yas mərasimində iştirak edərək, övladını itirmiş ailələrin acılarını bölüşüblər. Ancaq həmin mərasimlərdə müxalifət partiyalarının liderlərindən və tanınmış funksionerlərindən heç kəs iştirak etməyib.**





Bu da cəmiyyətdə birmənalı qarşılanmayıb. Xüsusilə sosial şəbəkələrdə müxalifət liderlərinin bu addımı ciddi şəkildə tənqid edilib. Rəyini soruşduğumuz müxalifət təmsilçiləri partiya rəhbərliyinin şəhidlərin dəfn mərasiminə qatılmaması ilə bağlı açıqlama veriblər.

Ümid Partiyasının sədr müavini Taleh Əliyev bildirib ki, şəhidlərin dəfnində iştirakla bağlı partiyada müzakirə olub: "Ümid Partiyası baş verən olaylarla bağlı ilk bəyanat verənlərdən olub. İlk şəhidlərlə bağlı xəbərlərə də dərhal reaksiya vermişik. Hətta ölkədə bir matəm elan olunması çağırışı ilə hakimiyyətə müraciət etmişik. Beynəlxalq təşkilatların bu istiqamətdəki fəaliyyətinə də münasibətimizi açıqlamışıq. Ancaq bundan əvvəl göyçaylı əsgər şəhid olarkən orada QHT fəallarının iştirakı skandal yaratmışdı. Belə bir hadisənin məhz ümidçilərin iştirakı ilə baş verməməsi üçün partiyada qərara gəlindi ki, iştirak olmasın. Ancaq yas mərasimlərinə partiya sədrinin öz deputat toxunulmazlığından istifadə edib iştirak etməsi nəzərdə tutulur. Dəfn günü hər hansı provokasiya təhlükəsini nəzərə alıb iştirak olmadı, istəmədik ki, son mənzilə yola salınanda şəhidlərimizin ruhu incidilsin".

**ADP sədrinin müavini Həsrət Rüstəmov da qeyd edir ki, bu məsələ ilə bağlı İdarə Heyətində müzakirə aparılıb:** "Baş verənlərlə bağlı hakimiyyət tərəfindən operativ və rəsmi məlumat verilməməsi, məlumatın gecikdirilməsi və bu fonda şayiələrə yaxşı meydan açılması, o cümlədən şəhidlərin dəfninin yüksək dövlət səviyyəsində qeyd olunmaması tənqid edildi. Bu məsələ yadımıza düşmədi ki, müxalifət partiyalarının da bu mərasimlərdə iştirakı yaxşı olardı. Bunun da bir səbəbi odur ki, siyasi partiyalar, ümumiyyətlə, dövlət həyatından sıxışdırılıb çıxarılmaq üzrədirlər. Burada da günah daha çox dövlətin, hakimiyyətdə olan qüvvənin üzərinə düşür. Bilmirik ki, hakimiyyət bizim şəhidlərin dəfnində iştirakımıza necə reaksiya verər. Ola bilsin, hakimiyyət buna baş vermiş hadisədən sui-istifadə cəhdi kimi yanaşsın, məsələnin bu tərəfi də var?"

**KXCP sədrinin müavini Xəzər Teyyublu isə bildirir ki, şəhid əsgərlərin dəfn mərasimində partiyanın rayonlarda yaşayan təmsilçiləri iştirak ediblər:** "Bu dəfnlərə rayon icra hakimiyyətləri təşkilatçılıq edirlər, konkret olaraq bu işlərdə təşkilatçılıq var, qərar dövlət səviyyəsində verilir. Bu məsələni siyasiləşdirməyin əleyhinəyik. Ancaq əlbəttə ki, müxalifət partiyalarının rəhbərlik səviyyəsində dəfn mərasimlərində iştirak etməsi məqsədəuyğundur və vacibdir".

**Qeyd edək ki, AXCP sədri Əli Kərimli müxalifət liderlərinin yas yerlərinə getməmələri ilə bağlı səslənən tənqidi fikirlərə öz facebook profilində münasibət bildirib:** "Bəzi dostlar təklif edirlər ki, şəhidlərin yas məclislərinə gedək. Görürlər axı, Türkiyədə hökumət və müxalifət liderləri necə birlikdə şəhidlərin yas mərasimində iştirak edirlər. Görünür, hələ də Azərbaycan hakimiyyətini tanıya bilməmisiniz. Təəssüf ki, bizim hökumət o qabiliyyətin sahibi deyil. Bizim şəhidlərin yas mərasimlərinə getməməyimiz üçün şəhid ailələrinə təzyiq olunur. Ceyhun Qubadovun 3 mərasimində yoldan qayıtmalı oldum. Ailəyə güclü təzyiq edib, hətta xeyir-şər çadırını belə sökdürdülər ki, mən orada iştirak edə bilməyim. Sonra daha bir şəhid ailəsinə də təzyiq olunduğunu eşitdim və qərara gəldim ki, onsuz da dəhşətli kədər içində olan şəhid ailələrinə təzyiq üçün bəhanə verməyim, onları çətin seçim qarşısında qoymayım".

❑ **Röya RƏFİYEVA**

YENİ MÜSAVAT
N 195 (5904) 5 avqust 2014

# “Fərahim İlqaroğlunun işində hüquq qətliamı baş verib”

## Əməkdaşımızın döyülməsindən beş aya yaxın vaxt keçsə də, istintaq fəaliyyətsizdir; **Rauf Arifoğlu:** “İnanıram ki, Məmmədovların xanimanı yaxın gələcəkdə darmadağın olacaq”

**“Yeni Müsavat”ın əməkdaşı Fərahim İlqaroğlunun aprelin 25-də yaşadığı evin qarşısında vəhşicəsinə döyülməsindən beş aya yaxın vaxt keçir. Bu qədər müddət ərzində istintaq yekunlaşmalı, müxbirimizi döyən Feyruz Termişi ilə yanaşı bu işi sifariş verənlər də həbs edilməli idi. Amma istintaq 5 ay ərzində jurnalisti döydürənlərin barəsində cinayət işi açmağa özündə iradə tapmayıb. Məlumdur ki, nəqliyyat naziri Ziya Məmmədovun deputat qardaşı Elton Məmmədovun övladı kik-boksinq üzrə idmançı dostu, “silləvuran”ı Tural Bayramova tapşırıq verib, o da əlaltısı F.Termişiyə müxbirimizi döyməyi əmr edib. “Yeni Müsavat”ın jurnalist araşdırmaları, o cümlədən Termişinin Bayramovdan sifariş aldığını etiraf etməsi tamamilə sübuta yetirdi ki, plan Məmmədovlar tərəfindən sifariş olunub.**



Məsələ böyüyüb, cinayətin bütün tərəfləri açılandan sonra isə Elton Məmmədov oğlunu və onun idmançı dostunu istintaqdan qorumağa başladı. Yalnız Termişi həbs edildi, Bayramova isə 20 sutkalıq inzibati cəza kəsildi. Üstəlik, Aynar Məmmədov Daxili İşlər Nazirliyinə çağırılaraq ifadəsi alındı və istintaq bitməmiş onun günahsız olduğu elan edildi.

Bütün bunlar ona görəydi ki, F.İlqaroğlu nazirin qardaşı oğlunun avtoxuliqan hərəkətləri ictimailəşəndən sonra facebook səhifəsində onu kəskin tənqid etmişdi, habelə “Yeni Müsavat” ardıcıl olaraq Məmmədovların korrupsioner fəaliyyətindən yazırdı.

Deputatın oğlu da qəzetə gözdağı vermək, müxbirimizi isə yazdığı tənqidə görə cəzalandırmaq üçün bu varianta əl atdı, əməkdaşımızı evinin qabağında döydürdü. İstintaq isə hələ də davam edir və heç bir nəticə yoxdur. İlk gündən yazırdıq ki, bu məsələdə siyasi iradə olmayacağı halda A.Məmmədov həbs edilməyəcək. İstintaq isə yubanır. Vəkil Elçin Sadıqov da bildirib ki, jurnalistin döyülməsi ilə bağlı istintaqın fəaliyyətsizliyindən yaxın günlərdə müvafiq orqanlara şikayət veriləcək.

**Fərahim İlqaroğlu: “Elədikləri pislik yerdə qalmayacaq”**

**F.İlqaroğlu isə ümidini kəsməyib. Onun sözlərinə görə, ölkə başçısı İlham Əliyevə müraciət edib və inanır ki, bu sui-qəsdin sifarişçiləri Termişi kimi cəzalandırılacaq:** “Təkcə ondan məlumatlıyam ki, 4 aydır Feyruz Termişi istintaq təcridxanasında saxlanır. Mənə gələn xəbərə görə, ailəsi onunla görüşmək istəyib. Amma görüş verilməyib. İstintaqa gəlincə, heç bir yenilik, irəliləyiş qeydə alınmayıb. Müstəntiq Mikayıl Qüdrətov mənə deyir ki, iş gedir, istintaq yekunlaşan kimi nəticəsi barədə məlumat veriləcək.

Bu necə istintaqdırsa bütün dəlil-sübutlar ortadadır, Termişi əmr verənin adını ifadəsində açıqlayıb, gəl ki, heç bir yenilik yoxdur. Mənə qarşı bu cinayəti əmr verənlər cəzasını almırsa, azadlıqda gəzirsə, deməli, təhlükə sovuşmayıb”.

**F.İlqaroğlu səhhətindəki problemlərin həll olunmadığını da qeyd etdi:** “Müalicə davam edir, bu hadisədən sonra dişlərimi müalicə etdirirəm. Üstəlik, məni maddi cəhətdən ziyana salıblar. Gəlib üzr istəmək, barışıq təklif etmək əvəzinə maraqlanmırlar. Bunu Allah götürməz. Elədikləri pislik yerdə qalmayacaq”.

**Rauf Arifoğlu: “Onları əfv etməyəcəm”**

**“Yeni Müsavat”ın baş redaktoru Rauf Arifoğlu deyir ki, F.İlqaroğlunun işində medianın, ictimaiyyətin gözü qabağında bir hüquq qətliamı baş verib. Baş redaktorun sözlərinə görə, Azərbaycanda bir sıra hallarda qanun güc yox, güc qanundur:**

“Bu məqamda etiraf etməliyəm ki, Ziya Məmmədova gücümüz çatmır ki, cinayətkar qardaşı oğlunun və Fərahimi döyənlərin cəzalandırılmasına nail ola bilək. İstintaq fəaliyyətsizdir, bu sui-qəsd hüquqi qiymətini almayıb, cinayəti sifariş verənlər isə azadlıqda gəzir”.

**R.Arifoğlu bildirir ki, Məmmədovlar klanı maliyyə resursları hesabına “Yeni Müsavat”a hücuma keçiblər:** “Nizami Rayon Məhkəməsinin icra şöbəsini üstümüzə salıblar, bildiyimə görə onlara rüşvət veriblər, məqsəd başımızı qatmaqdır. İstəyirlər ki, bizə son zərbəni vursunlar. Bu ailənin Aynar Məmmədov kimi daha bir "parlaq siması" Anar Məmmədov qəzetin bank hesabından pul oğurladıb. Onlar bizə minnətçi salmaq, üz istəmək əvəzinə qəzeti sıxışdırırlar. Lakin “Yeni Müsavat” əldə ölən qəzetlərdən deyil, səsimizi çıxarırıq, davam edəcəyik.

Ölkə rəhbərliyinə, istintaqa bir daha müraciət edirəm ki, Qarabağ veteranı, zəhmətkeş İlqar kişinin oğlu Fərahimin nazirin hansı qardaşı oğlu Aynar tərəfindən döydürülməsi cəzasız qalmasın. Tələbimiz budur ki, cinayətkarlar həbs edilsin və bu məsələdə sona qədər gedəcəyik".

**Baş redaktor Məmmədovları əfv etməyəcəyini açıqladı:** “İnanıram ki, Məmmədovların xanimanı yaxın gələcəkdə darmadağın olacaq. Bunu dəqiq bilirəm və Məmmədovlar özləri də görəcəklər ki, qəzetlə müharibə aparmaqda necə bir səhv ediblər. Bu yaramaz, saymazyana hərəkətlərinə, bizi əzib keçmələrinə görə indidən bilsinlər ki, onları əfv etməyəcəm”.

❑ **E.SALAMOĞLU**

# Anar Məmmədovun müharibə poliqonu -Qolf meydançası

## Prezidentin, Nərgiz Paşayevanın qızları və müxalifət liderlərinin cəbhə ilə bağlı statusları, nazir oğlunun da qolf açıqlaması...

**Azərbaycanda gedən hərbi əməliyyatlar və onunla bağlı verdiyimiz şəhidlər ölkə gündəmini və insanını ciddi məşğul etməkdədir. Demək olar ki, hər kəsin diqqəti bu mövzuya, sərhədlərimizə kilidlənib. Sadə camaatdan, mediadan tutmuş, prezidentin qızlarınacan, hər kəs bu mövzuda yazır, paylaşır, ümummilli mövzu ətrafında virtual gəzişmələr edir.**

Tanınmış mühacir jurnalist Həbib Müntəzir isə ortaya çıxarıb ki, nəqliyyat naziri Ziya Məmmədovun oğlu Anar Məmmədovun gündəmi xalqdan tamamilə fəqlənir. H. Müntəzir oxucuların gördüyü bu fotoları paylaşaraq, yazır: “Guya haradasa müharibə gedir, camaat cəbhədən xəbər gözləyir, ailələr pərişandır. Kimi səfərbərlikdən, kimi sabah yenə şəhid xəbəri gələcəyindən narahatdı....

Və bu məqamda Ziya Məmmədovun oğlu Anar Məmmədov, özünün İnstagram səhifəsində xalqdan oğurladıqları pullarla tikdirdiyi hotel və qolf meydançasının şəklini paylaşır, bununla fəxr edir. Təəccüblənirikmi? ƏSLA!"

Beləliklə, məlum olur ki, Məmmədovlar klanı növbəti dəfə xalqla deyil, özü ilədir. Məmmədovların öz gündəmləri, öz meydanları var. Onların savaş sahələri qolf meydançaları imiş.

Müsavat.com Həbib Müntəzirin paylaşdığı həmin virtual “trafey”ləri oxucularına təqdim edir.

Buradan da göründüyü kimi, oxucular Anarı söyürlər. “Cavan -cavan oğullar sərhədlərdə can verir, sizin insanlığınıza tüpürüm”, deyə bir istifadəçi yazır.

Hazırda bu fotolar Həbib Müntəzirin facebook səhifəsində müzakirə edilir.

Elə bu faktdan çıxış edərək məşhurların cəbhə ilə bağlı statuslarını toplayıb, müharibə, son günlər verdiyimiz itkilər barədə nə yazdıqlarını öyrənməyə çalışdıq.

Azərbaycan prezidenti İlham Əliyevin qızları Leyla və Arzu Əliyevalar rəsmi facebook səhifələrində bu acıya münasibət bildiriblər.

Belə ki, Arzu Əliyeva “Vətən yolunda ölənlərin xatirəsi həmişə yaşayacaq” statusu, Leyla Əliyeva isə matəm simvolu olan şəkillə şəhidləri yad ediblər.

L.Əliyeva daha sonra yazıb: “Şəhidlərin ailələrinə başsağlığımı ifadə edirəm! Həlak olmuş əsgərlərimiz Azərbaycanın müstəqilliyini müdafiə edərək onun milli azadlığını, torpaqlarını qoruyub. Onların qəhrəmanlığı, Azərbaycan xalqı qarşısında böyük xidmətləri heç vaxt unudulmayacaq, onlar mənim ürəyimdə əbədi yaşayacaq. Vətən, torpaq uğrunda şəhid olan oğullarımızın ailələri onlarla fəxr edə bilərlər. Çünki onlar müstəqil Azərbaycan üçün belə şücaətli oğullar, qəhrəmanlar böyüdüblər. Şəhidlərin ailələrinə daimi diqqət hər bir vətəndaşın borcudur, dövlətin, hökumətin, mənim, sizin borcunuzdur. Biz heç vaxt onları unutmamalıyıq. Bilin ki, mən həmişə sizinlə, xalqlayam və ömrümün sonunadək sizinlə qalacağam”.

Moskva Dövlət Universitetinin Bakı filialının rektoru, akademik Nərgiz Paşayevanın qızları Aida Mahmudova və Ülviyyə Rəhmanova şəhid ailələrinə başsağlığı veriblər. YARAT Müasir İncəsənət Məkanının təsisçisi Aida və “Nargis” nəşriyyat evinin baş redaktoru Ülviyyə xanım fikirlərini bölüşüblər. Gənc xanımlar facebook sosial şəbəkəsində olan səhifələrində qaraya bürünmüş Azərbaycan bayrağının şəklini paylaşaraq bunları yazıblar:

“Allahdan şəhidlərə rəhmət, analara isə səbr arzulayırıq”.

**Azərbaycan Prezident Administrasiyası rəhbərinin müavini, xarici əlaqələr şöbəsinin müdiri Novruz Məmmədov şəhid olan əsgərlərin ailələrinə başsağlığı verib. Bu barədə N.Məmmədovun twitter səhifəsində yazılıb:** “Torpaqlarımızın müdafiəsində həyatından keçən Azərbaycanın igid övladlarına Allah rəhmət eləsin! Şəhidlərimizin ailələrinə səbr diləyirəm!”.

**Müsavat başqanı İsa Qəmbər facebook səhifəsində cəbhədə baş verən son olaylarla bağlı “Yeni Müsavat” qəzetinə verdiyi müsahibəni paylaşıb.**

**Müsavat başqanı hakimiyyətə və cəmiyyətə önəmli mesajlar verib:** “Mili barışıq bərqərar olunmalıdır”; “Döyüş əməliyyatları başlayarsa, biz də üzərimizə düşəni edəcəyik”.

**AXCP sədri Əli Kərimli isə müxalifət liderlərinin yas yerlərinə getməmələri ilə bağlı səslənən tənqidi fikirlərə münasibət bildirib:** “Bəzi dostlar təklif edirlər ki, şəhidlərin yas məclislərinə gedək. Görürlər, axı Türkiyədə hökumət və müxalifət liderləri necə birlikdə şəhidlərin yas mərasimində iştirak edirlər. Görünür, hələ də Azərbaycan hakimiyyətini tanıya bilməmisiniz. Təəssüf ki, bizim hökumət o qabiliyyətin sahibi deyil. Bizim şəhidlərin yas mərasimlərinə getməməyimiz üçün şəhid ailələrinə təzyiq olunur. Ceyhun Qubatovun 3 mərasimində yoldan qayıtmalı oldum. Ailəyə güclü təzyiq edib, hətta xeyir-şər çadırını belə sökdürdülər ki, mən orada iştirak edə bilməyim. Sonra daha bir şəhid ailəsinə də təzyiq olunduğunu eşitdim və qərara gəldim ki, onsuz da dəhşətli kədər içində olan şəhid ailələrinə təzyiq üçün bəhanə verməyim, onları çətin seçim qarşısında qoymayım”.

❑ **Fərahim İLQAROĞLU**



# Anar Məmmədov “Yeni Müsavat”ın pullarını oğurladı

**Nəqliyyat naziri Ziya Məmmədovun oğlu Anar Məmmədov “Yeni Müsavat” qəzetinin pullarını oğurlayıb. Məşhur “Ayı işi”nin məhkəmə çəkişməsini yenidən yadına salan nazir oğlu qəzetin bank hesabından cərimənin tutulmasına səbəb olub.**

Belə ki, uzun müddət davam edən məhkəmə çəkişməsi nəticəsində “Yeni Müsavat” və “Azadlıq” qəzetləri müştərək qaydada 4 min manata cərimə olunmuşdu. “Azadlıq” qəzeti üzr istəyəndən sonra cərimə ona bağışlanılmışdı. Azərbaycan Respublikası qanunvericiliyinə görə, əgər müştərək borclulardan birinin borcu bağışlanırsa, avtomatik olaraq digərinin də borcu qapanmış hesab olunur.

**“Yeni Müsavat” qəzetinin təsisçisi və baş redaktoru Rauf Arifoğlu bildirir ki, Anar Məmmədov qərəz nümunəsi göstərərək “Yeni Müsavat” qəzetinin üzərinə gedib:** “Məhkəmə icraçılarına təzyiq, hətta bəzi şübhələrə görə, rüşvət verərək onları "Yeni Müsavat" qəzetinin hesabından 4 min manatın götürülməsinə vadar qoydu. Hazırda Məhkəmə Qərarları İcrası İdarəsinin Nizami rayon şöbəsi ilə məhkəmə çəkişməmiz getdiyi halda, qəzetin hesabından 1377 manat icra ilə pul götürülüb. “Yeni Müsavat” qəzetinin rəhbərliyi bunu oğurluq hesab edir. Çünki bu, qanunsuzdur. Tərəflərdən biri müştərək qaydada cərimələnmiş borcdan azad olunubsa, avtomatik olaraq o biri də azad olunmuş deməkdir. Buna baxmayaraq, “Yeni Müsavat” qəzetindən qanunsuz olaraq pul götürülüb. Əgər qanunsuz olaraq pul götürülübsə, bu, oğurluqdur. “Yeni Müsavat” qəzeti rəhbərliyi bu oğurluq hadisəsində Anar Məmmədovu suçlayır".

**Qəzetimizin hüquqşünası Vaqif Hüseyn isə bildirir ki, baş verənlər gözlənilməzdir:** “Çünki bizim icraçılarla yazışmamız var. İcraçılar bizdən cərimə barədə qərarın dərhal icra olunmasını tələb edirdi. Əslində Anar Məmmədovun vəkili bu işə ərizə ilə xitam verib. Ancaq sonradan qərar icraya yönəldilib, bu, qanunsuzdur. Biz bundan şikayət verdik. Həmin şikayətin surətini, hətta şikayətin icraata qəbul olunmaq haqqında bildirişi onlara təqdim etdik. İcra haqqında qanunun 17.1.6-cı maddəsinə görə, əgər məhkəmə qərarlarından, aktlarından şikayət verilirsə, icraat məcburi olaraq dayandırılır. Biz artıq icraçıların özlərindən, onların qeyri-qanuni hərəkətlərindən şikayət etməli olacağıq”.

❑ **RÖYA**

YENİ MÜSAVAT
N 195 (5904) 5 avqust 2014

# Cəbhədəki döyüşlər böyük hərbi əməliyyata çevrilə bilər

**Azərbaycan-Ermənistan döyüş xəttində gərginlik davam edir. Bazar günü cəbhə bölgəsinə gedən müdafiə naziri, general-polkovnik Zakir Həsənov son iki günü orada keçirib və dünən Goranboy, Tərtər, Ağdam cəbhələrində olub. Onun şəxsi heyətlə görüşdüyü və öz tapşırıqlarını verdiyi də bildirilir. Z. Həsənov düşmənin son günlər intensivləşən hücumlarını dəf edərkən fərqlənən hərbçiləri bilavasitə təltif edib.**

Cəbhənin Ağdam rayonu istiqamətində şəhid olmuş Biləsuvar sakini Qarayev Anar Vidadi oğlu ötən gün səhər saatlarında doğulduğu Biləsuvar rayonunun Nərimankənd kəndindəki qəbiristanlıqda torpağa tapşırılıb.

**ATƏT-in Minsk Qrupunun amerikalı həmsədri Ceyms Uorlik isə son günlər döyüş cəbhəsində baş verənlərdən narahatlığını bildirərək hər iki tərəfi atəşkəsə çağırıb:** "Ümid edirəm ki, Ermənistan və Azərbaycan prezidentləri yaxın gələcəkdə görüşüb, vacib məsələləri müzakirə etməyə razılıq verəcəklər".

Qeyd edək ki, cəbhədə baş verən toqquşmalardan sonra Ermənistanın baş naziri Ovik Abramyan və müdafiə naziri Seyran Ohanyan Azərbaycan sərhədinə gəlib. Anspressin məlumatına görə, Abramyan və Ohanyan gecə saatlarında Azərbaycan sərhədində yerləşən Tavuş rayonuna səfər edib. Onlar bir sıra hərbi qulluqçularla görüşlər keçirib. Görüşlərdə son vaxtlar Azərbaycan-Ermənistan sərhədində gedən döyüşlərlə bağlı məsələlər müzakirə edilib.

***



# Vətən müharibəsi - Azərbaycan üçün unikal şans

## Ölkədə tam bir müharibə ab-havası yaranıb, insanlar orduya yazılmaq üçün komissarlıqlara axın edirlər; Müdafiə Nazirliyi döyüş bölgəsinə böyük canlı qüvvə və texnika yığıb; Pənah Hüseyn: "Son 20 ildə ilk belə hadisədir ki, vətənpərvərlik və döyüş əhval-ruhiyyəsi yüksəkdir"

Ermənistan ordusunun cəbhə xəttində Azərbaycan ordusunun mövqelərinə qəfil hücum etməsindən sonra yaranmış vəziyyət ölkədə geniş əks-səda doğurub və müharibə çağırışlarını aktuallaşdırıb. Son günlərin müşahidələri onu deməyə əsas verir ki, Azərbaycan xalqı vətən müharibəsi ab-havasına köklənib.

Hazırda torpaqlarımızın işğaldan azad edilməsi namine vətən müharibəsini başlatmaq üçün unikal şans yaranıb. İlk dəfədir ki, xalq heç bir təbliğat, çağırış olmadan müharibəyə köklənib. Cəbhə xəttində baş verənlər ictimaiyyəti silkələyib və gözlənilmədən ölkədə güclü savaş ovqatı yaranıb. Bazar günü Müdafiə Nazirliyi xalqa müraciət edərək orduya verilən dəstəyə görə təşəkkür edib. Nazirlikdən deyilir ki, artıq hər gün yüzlərlə insan MN-ə müraciət edərək orduya yazılmaq istədiyini bildirir. Müdafiə Nazirliyinə, yerli hərbi komissarlıqlara orduya yazılmaq üçün müraciətlərin sayı getdikcə artır.

Bundan başqa, siyasi-diplomatik cəbhədə də Azərbaycanın mövqeləri güclüdür. Artıq hər kəs qəbul edib ki, ilk olaraq erməni qüvvələri atəşkəsi pozaraq Azərbaycan əsgərlərinə hücum edib, çoxsaylı təlefatla nəticələnən hərbi cinayət əməli törədib. Bu vəziyyətdə Azərbaycanın döyüş əməliyyatlarını bərpa edərək işğal altındakı torpaqları azad etmək haqqı var. Redaksiyamıza yaxın olan siyasi ekspertlər də hesab edirlər ki, doğrudan da ermənilərin axmaqlıqları ucbatından yaranmış indiki vəziyyət Azərbaycanın xeyrinədir və ölkəmiz ermənilərə qarşı təmizləmə əməliyyatlarına başlasa, düşmənin vəziyyəti kritikləşəcək. Ordudakı qaynaqlarından biri musavat.com rəhbərliyinə deyib ki, hazırda Ağdamın işğaldakı kəndlərini azad etmək cəmisi 2-3 saatın işidir: **"Bütün qüvvə toplanıb, nazir baxış keçirib. Əmr gözləyirik".**

Musavat.com-un əldə etdiyi məlumatlardan biri də budur ki, yaranmış vəziyyətdən narahat olan Ermənistan rəhbərliyi Rusiya prezidenti Putinə müraciət edərək, Azərbaycanı hərbi əməliyyatlardan yayındırmaq xahişində bulunub. Məsələnin təəccüblü tərəfi də budur ki, mötəbər qaynaq, Putinin Ermənistan prezidentinə onun ürəyini rahatladacaq heç nə söyləmədiyini bildirib.

Lakin bizə yaxın ekspertlər hesab edirlər ki, Azərbaycan böyük ehtimalla Soçi görüşünə qədər ciddi hərbi əməliyyata başlamayacaq. Bu da o deməkdir ki, artıq Rusiya prosesdə arbitr kimi rolunu ala bilib. Ancaq bu, ekspertlərin fikirləridir. Cəbhədən gələn hazırlıq xəbərləri isə göstərir ki, Azərbaycan iqtidarı olduqca ciddi şəkildə müharibəyə hazırlaşır.

## "Bu, Azərbaycanla yanaşı Ermənistan və bütün Cənubi Qafqaz üçün bir şansdır"

**Baş verən situasiyanı "Yeni Müsavat" üçün şərh edən ekspertlərin fikrincə, Soçi görüşü məhz bu prosesdə Rusiyanın arbitr kimi çıxış etməsi məsələsini ortaya çıxardı. Çünki daha əvvəl həm ABŞ-da, həm də Fransada belə bir görüşün keçirilməsi təklifləri olub:** "Amma birdən-birə Soçi məsələsinin meydana çıxması bəzi mətləblərə işarə edir. Hadisələrin bu şəkildə gərginləşməsi, konkret hansı tərəfin başlamasından asılı olmayaraq, Soçi görüşünə əsas yaradan addım kimi görünə bilir. Məsələ ondadır ki, Rusiya Avrasiya İqtisadi Birliyində Ermənistanla Azərbaycanın bir yerdə təmsil olunması strategiyasında maraqlı görünür. Rusiya ilə yanaşı Qazaxıstan və Belarus da bu məsələni ciddi şəkildə qoyurlar. Qazaxıstan hesab edir ki, Azərbaycansız Ermənistanı AİB-yə qəbul eləmək olmaz. Burda Türkiyə amili də var. Yeri gəlmişkən, bugünlərdə Soçi görüşündən əvvəl Azərbaycan prezidenti İlham Əliyevlə Türkiyənin baş naziri Ərdoğan arasında görüş planlaşdırılır. Belə bir görüşün planlaşdırılması diqqəti cəlb edir, çünki bilindiyi kimi, Qazaxıstan prezidenti Nursultan Nazarbayev Türkiyənin AİB-yə assosiativ üzvlüyünə çalışır. İndiki şəraitdə NATO üzvü və Avropaya qoşulmaq istəyən Türkiyənin bu quruma üzvlüyü praktik görünməsə də, bu məsələyə diqqətin artması gözləniləndir".

**Ekspertin fikrincə, bu məsələdə daha bir diqqətçəkən məqam Ermənistan hakimiyyətinin son zamanlar Moskvadan açıq-aşkar incikliyidir:** "Yeri gəlmişkən, bu yaxınlarda Argentinada səfərdə olan Ermənistan prezidentinin Rusiyadan narazılıq notları üzərində qurulmuş çıxışı vardı. O, Rusiyanın Azərbaycana silah satması faktının əleyhinə bəyanat səsləndirmişdi. Daha sonra "DQR" rəhbərliyi rus qoşunlarının sülhməramlı qüvvələr olaraq Dağlıq Qarabağda yerləşdirilməsinə qarşı çıxmışdı. Hazırkı situasiya Azərbaycan tərəfinin əlinə müəyyən kart-blanşlar verir ki, geniş əməliyyatlar keçirsin. Gizli deyil ki, Azərbaycan ordusunun çox ciddi qüvvələri sərhəd bölgəsinə cəmləşdirilib, onlar hətta müəyyən qədər nümayiş olunublar. Ancaq hələlik nə iri zərbə qüvvələrindən, nə də hərbi aviasiyadan istifadə olunub. Bu, bir növ erməni tərəfinə mesajlardır. Eyni zamanda görünən odur ki, Rusiya hakimiyyəti də Ermənistanda Moskvaya qarşı olan bəzi dairələrə müəyyən reallıqları başa salmağa çalışır".

**Daha bir mühüm məqam ondan ibarətdir ki, 1993-cü ildən bəri ilk dəfə olaraq kənar qüvvələrin, konkret olaraq Türkiyənin bu proseslərə müdaxilə imkanı yaranıb. Ekspertlərin fikrincə, hazırkı situasiyada Türkiyənin proseslərə müdaxilə etmək imkanları yaranıb və bu situasiya Qafqaz üçün yeni bir başlanğıc ola bilər:** "Diqqət edinizsə, Türkiyə dövlətinin, cəmiyyətin reaksiyası çox operativ və yerində oldu. İlk dəfə olaraq Türkiyənin dövlət rəhbərliyi tərəfindən bu olaya reaksiyalar təsadüfi deyil. Elə bir vəziyyət yaranıb ki, Türkiyə bu məsələyə müdaxilə edə bilər. Bununla bərabər Rusiyanın özü də Ukrayna ilə yanaşı Cənubi Qafqazda ikinci bir mürəkkəb münaqişəyə qoşulmaqda maraqlı deyil. Bu, Azərbaycanla yanaşı, Ermənistan və bütün Cənubi Qafqaz üçün bir şansdır".

## "Türkiyənin proseslərə müdaxilə etmək imkanları yaranıb və bu situasiya Qafqaz üçün yeni bir başlanğıc ola bilər"

**Mövzu ilə bağlı qəzetimizə danışan sabiq baş nazir, AXP sədri Pənah Hüseyn bildirdi ki, Azərbaycan cəmiyyəti torpaqların azad olunmasını tələb edir. P.Hüseyn deyir ki, artıq çoxlu sayda insanlar müraciət edərək orduya yazılmaq istədiklərini bildiriblər:** "İndiki status-kvonun davam etməyəcəyi aydındır. Artıq Azərbaycan cəmiyyəti torpaqların işğal altında saxlanılmasına dözmək istəmir. Vəziyyətin dəyişməsindən danışılarkən xalqın torpaqların azad olunmasını istədiyi nəzərdə tutulur. Ya sülh yolu ilə, bu olmasa, hakimiyyətdən tələb ondan ibarətdir ki, silahlı qüvvələrdən istifadə edərək torpaqlar azad edilsin. Mən bir unikal məsələyə diqqəti cəlb etmək istəyirəm. Son günlər çoxlu sayda ehtiyatda olan, xüsusi təlim görmüş keçmiş əsgərlər, gizirlər hərbi komissarlıqlara müraciət edirlər. Artıq bununla bağlı müzakirələr aparılır. Bizlərə də müraciətlər olub. Açığı, bu, son 20 ildə ilk belə hadisədir ki, vətənpərvərlik və döyüş əhval-ruhiyyəsi yüksəkdir. O cümlədən cəmiyyətin digər təbəqələri, valideynlər, yaşlı insanlar, qadınlarımız ermənilərin bu həyasızlığından çox ciddi şəkildə hiddətlidirlər.

Sözün həqiqi mənasında biz vətən müharibəsi astanasına gəlib çatmışıq. Hətta bir çox yerlərdə təşəbbüs qaldırılıb ki, hansısa siyasi qüvvənin, o cümlədən hakimiyyətin tədbiri kimi deyil, 100 minlərin iştirakı ilə ümummilli bir aksiya keçirilsin. Xalqın bu tələbi bütün dünyaya, o cümlədən Azərbaycanın siyasi qüvvələrinə çatdırılmalıdır. Mən inanıram ki, belə bir çağırış olarsa, yüz minlərlə insan bu çağırışlara səs verər".



## "Hazırda Ağdamın işğaldakı kəndlərini azad etmək cəmisi 2-3 saatın işidir"

**P.Hüseyn deyir ki, sadə xalq kimi ölkənin siyasi qüvvələri də torpaqların azad edilməsinə köklənib və hazırda ölkə daxilindəki mürəkkəb situasiyadan çıxmaq üçün şans yaranıb:** "Mən bunu yalnız fərdi təhlillərə əsaslanaraq demirəm. Bugünlərdə Müsavat Partiyasının başqanı İsa Qəmbərin cəmiyyətə çox önəmli mesajları oldu. Milli Strateji Düşüncə Mərkəzinin Qarabağ münaqişəsinin həllinə dair hazırladığı konseptual sənəd var. Hətta onun müəyyən, ictimailəşməsi mümkün olan hissəsi cəmiyyətə də təqdim olunmuşdu. İsa Qəmbərin son mesajları da xeyli dərəcədə həmin təhlillərdə ifadə olunmuş konsepsiyadan irəli gəlirdi. Demək istəyirəm ki, bu mövqe indiki konyuktura ilə bağlı deyildi. Amma əlbəttə ki, son hadisələrlə vəziyyət xeyli dərəcədə aktuallaşıb.

Xarici düşmənlə müharibə etmək üçün daxildə hər hansı bir ziddiyyət, münaqişə olmamalıdır. Mən İsa bəyin mesajındakı bu məqama xüsusi diqqət çəkmək istəyirəm ki, indiki məqamda Azərbaycan cəmiyyətində ümummilli bir barışığa ehtiyac var. Bu da hazırkı məqamda yaranan unikal şansdır. Əlbəttə, bu məsələdə də atılacaq praktik addımların yüzdə doxsanı iqtidarın üzərinə düşür. Bunu iqtidar edə bilər".

**P.Hüseyn deyir ki, mövcud əhval-ruhiyyə, görülmüş işlər və ordunun potensialı torpaqları azad etmək üçün kifayətdir. Eyni zamanda siyasi vəziyyətin də əlverişli olduğunu xatırladan təcrübəli siyasətçinin fikrincə, hakimiyyət hazırda yaranmış şansdan istifadə edib torpaqların azad olunmasına nail olmalıdır:** "Etiraf etmək lazımdır ki, bu vəziyyətə təsir edən amillər oldu. Əlbəttə, cəmiyyət çox təsadüfi olaraq Ukrayna hadisələrini maraqla izləmirdi. Orda baş verənlərin də təsiri olub. Çünki Ukrayna ərazisinin bir hissəsi faktiki olaraq işğal altındadır və bu işğala qarşı bütün vasitələrdən istifadə olunaraq əməliyyatlar aparılır. Beynəlxalq ictimaiyyət isə bunun əleyhinə çıxmır, əksinə, bu əməliyyatları təqdir edir. Bu vəziyyət bizə əsas verir ki, Ukraynadan da açıq şəkildə təcavüz faktının olduğu ərazilərimizi azad edək. Çünki bizim ərazilərimiz Ermənistan ordusu tərəfindən işğal edilib.

Bir daha təkrar edirəm ki, Azərbaycanın siyasi müxalifəti bu məsələdə öz üzərinə düşəni dərk edir. Müxalifətin mütləq əksəriyyəti bu düşüncədədir və hakimiyyətdən də tələb ondan ibarətdir ki, yaranmış bu vəziyyətdən istifadə olunsun".

❑ **Kənan RÖVŞƏNOĞLU**

YENİ MÜSAVAT
N 195 (5904) 5 avqust 2014



# Ən müdhiş söz - müharibə

Xalid KAZIMLI

**Qarabağda və onun ətrafında gedən üç günlük müharibə bir çox mətləbləri üzə çıxardı.**

Onları təxminən belə sıralamaq olar. Məlum oldu ki:

Məmləkət insanının döyüş ruhu nəinki ölməyib, hətta daha da güclənib;

I Qarabağ müharibəsində düçar olduğumuz hərbi məğlubiyyətə görə qisas ovqatı daha da şiddətlənib;

Hərbi xidmətə yaşı çatan və çatmayan yüz minlərlə vətən oğlu (eləcə də qızı) bir çağırışa bənddirlər ki, cəbhəyə könüllü yollansınlar;

Gerçək vətənpərvərlərlə yanaşı xeyli yalançı urapatriotlar da əmələ gəlib;

**Eyni zamanda o da məlum oldu ki:**

Küyə, panikaya düşmək xasiyyətimiz daha da güclənib;

Gerçək məlumatlardansa şayiələrə, dezinformasiyalara inanmaq şakərimiz qalır;

Bir sıra dairələr sərf etməyən informasiyadansa yalan məlumatlar yayaraq, guya ki, "informasiya müharibəsi" aparırlar.

"Hakimiyyət nə edir, düz edir" deyənlərlərlə yanaşı, "bütün günahlar öz hakimiyyətimizdədir" tipli açıqlamalar, şərhlər verənlər fəallaşır;

Yalançı patriotlarla gerçək vətənpərvərləri bir-birindən ayırmadan elliklə qaralamaq xətti güclənib;

Şovinist çağırışlarla ("asmalıyıq, kəsməliyik") yanaşı, pasifist *("erməni də yazıqdır, o da insandır")* mövqe sərgiləyənlər də çoxalıb;

Daxili düşmənləri axtarıb tapmaq və mütləq hərbi dövrün qanunlarına uyğun olaraq güllələmək (?!) çağırışları artdı və s.

Bütün bunlardan başqa, ən əsası, yenə məlum oldu ki, biz müharibə kimi olduqca ciddi, faciəvi, müdhiş bir məsələyə peşəkar hərbçilərin prizmasından deyil, romantik inqilab şairlərinin prizmasından baxırıq.

Müharibə dəhşətli şeydir, minlərlə insan ölümü, qıtlıq, dağıntı, əsirlik, yesirlik, göz yaşları, silinməz ağrı-acılar, qaralmış insan həyatları, şikəstlik deməkdir.

Sanki məhəllə davasına gedəcəkmiş kimi emosiyaya qapılaraq "yığışın, gedək vuruşmağa" deyənlər vardı. Yaxud "Azərbaycan rəhbərliyi dərhal hücuma keçməlidir" tipli çağırışlar səslənirdi. Halbuki müharibəyə başlamaq kimi qərinədə bir dəfə veriləcək ciddi qərarı yüz ölçüb- bir biçərək, bütün amilləri nəzərə alaraq vermək lazımdır. Müharibədə emosiyalar ərşə çıxsa da, ona başlamaq qərarı emosiya ilə verilə bilməz.

Düşmənin gülləsi altında olan kəndlərin camaatının davranışından da bəhs etmək gərək. İllərlə aparılan yanlış təbliğat nəticəsində onlarda belə bir qənaət formalaşıb ki, vəziyyət nə qədər kritik olsa da, doğma ev-eşiyi tərk etmək, geriyə, qonşu kəndlərə çəkilmək olmaz. Niyə? Hərbi baxımdan bu cinayətə bərabər səhlənkarlıqdır. Çünki döyüş əməliyyatlarının şiddətləndiyi bir vaxtda mülki əhali, xüsusilə də əliyalın camaat, qız-gəlin, qocalar, uşaqlar yalnız əl-ayağa dolaşan maneədirlər. Döyüşən hərbi hissələr düşmənin təzyiqi qarşısında manevr etməyə məcbur olanda geridə qalan yüzlərlə insanı nəzərə alaraq bunu edə bilməyəcək, ya əsgərlər kütləvi şəkildə həlak olacaqlar, ya da hər halda geri çəkilsələr, bir kəndin mülki əhalisi, arvad-uşaq düşmən əlinə keçəcək.

Bu yaxşıdırmı? Bu millət ikinci Xocalı faciəsinə, o cür təhqiramiz bir olaya tablaşa bilərmi?

Ona görə də camaatı qızışdırıb güllə qabağında saxlamaq, ailəsini, körpə uşaqlarını götürüb təhlükəsiz yerlərə çəkilmək istəyənləri qınayıb, üzə salmaq lazım deyil. Onsuz da onların kənddən çıxması və ya qalması heç nəyi həll eləmir, əsas odur ki, hərbi birləşmələr səngəri tərk etməsin.

Bakıda oturub səngərdən reportaj verən igid jurnalistlərimizi qınayanlar, onların reportajlarında yanlışlıqlar, dezinformasiyalar axtaranlar da çoxdur.

Adamlar güllə qabağındadırlar, can hövlü deyilən bir şey var. Biz burada mışıl-mışıl yatanda onlar gecənin 5-də saytlara, agentliklərə xəbər göndərirlər. Heçmi insafınız yoxdur?

İş olan yerdə nöqsan da olar, əlbəttə. Dünyanın ən mahir, peşəkar futbolçusu belə ötürmələrin yarısını düzgün verə bilmir, qapıçı təkbətək ilə üç dəfə təkbətək çıxır, bir qol vurur, penalti qaçırır və s. Bir jurnalistin də göndərdiyi 50 xəbərin içində 5-6-sı yanlış ola bilər, bundan ötrü yuxusuz gecələr keçirən, saatlarla ac-susuz qalan reportyorların əməyinin üstündən qələm çəkmək olmaz.

---

**Son günlər cəbhə bölgəsində baş verən hadisələr və əsgərlərimizin şəhid olması ölkə mediasının gündəmini işğal edib. Ölkə vətəndaşları nə baş verdiyini anlamağa çalışdığı bir vaxtda telekanallar gündəlik şou-proqramlarını yayımlamaqda davam etdilər. Digər tərəfdən, İP uğrunda savaşda bütün etik və peşəkarlıq prinsiplərini gözardı edən bir çox saytlar və xəbər portalları isə dezinformasiya yayaraq cəmiyyətdə yersiz şayiələrin yaranmasına səbəb oldular. Bir çox media mənsubları Ermənistanı "raket atəşinə tutarkən", səfərbərlik elan olunması və hansısa kəndlərin azad olunması xəbərini yayanlar da oldu. Şəhid olanların sayı haqqında müxtəlif rəqəmlər səsləndi.**

# Media "müharibədən" necə çıxdı?

## Ekspertlər medianın son günlərini dəyərləndirdi: "Sabah jurnalistləri söyəcəklər, qınayacaqlar..."



Zeynal Məmmədli



Arif Əliyev



Əflatun Amaşov

Bəzi KİV-lərin bu cür arzuolunmaz fəaliyyəti media ekspertlərinin, eləcə də peşəkar jurnalistlərin haqlı narazılığına səbəb oldu.

**Musavat.com-a açıqlamasında media eksperti Zeynal Məmmədli bu vəziyyətin yaranmasında Müdafiə Nazirliyini günahlandırdı:** "Çox təəssüf ki, Müdafiə Nazirliyinin mətbuat xidməti növbəti dəfə yarıtmaz, min cür şayiələrin yayılmasına yol açan məlumatlar verdi. Mən anlayıram ki, bu məlumatlar son dərəcə ölçülüb - biçilməli və bunun üçün müəyyən vaxt verilməlidir. Ancaq bu dərəcədə şayiələrə yol açacaq qədər yox. Təsəvvür edin, cəbhə bölgəsində nə baş verdiyini TRT- dən öyrənirik. Axı indiki zamanda heç nəyi gizli saxlamaq olmaz. Ona görə Müdafiə Nazirliyi gün ərzində vaxtaşırı məlumat verməli idi. Bu da jurnalistləri informasiya almaq və yaymaq məsələsində ciddi problemlə üz-üzə qoydu".

**Telekanalların şəhid xəbərlərinə vaxtında reaksiya verməməsinə gəlincə, Zeynal Məmmədli bu iradları gündəmi dəyişmək üçün yaradılan yalançı hay-küy adlandırdı:** "Bu halda medianın ənənəvi hay-küyü, diqqət yayındırmaları, "orada insanlar ölür, TV- lər niyə yas saxlamır?" - kimi məsələlərin müzakirəsi mənasızdır, mövzu qıtlığından irəli gəlir.

Əksinə, məsələni çox ciddi şəkildə qoymaq lazımdır ki, Müdafiə Nazirliyinin işini yenidən qurmaq üçün nələr etmək lazımdır. İndiki dünyada heç nəyi gizli saxlamaq mümkün deyil, Müdafiə Nazirliyinin bu davranışı qeyri-peşəkar və gülünc göründü".

**Jurnalistlərin vətənpərvərlik çağırışları etməsinin yolverilməz olduğunu bildirən media eksperti hər kəsi öz işini görməyə çağırıb:** "Biz harada olmamızdan asılı olmayaraq, heç bir halda müharibə təbliğatı aparmamalıyıq. Çünki bəzən vətənpərvərlik adı altında müharibə təbliğatı aparılır. Jurnalist tərəf olmamalıdır. Jurnalist hərbçini əvəz etməməlidir. Müharibə zamanı ola bilər, ancaq indiki şəraitdə hərbi vətənpərvərlik, təbliğat bizim işimiz deyil. Sadəcə, doğru-düzgün xəbər verməyə çalışmalıyıq".

**Zeynal Məmmədli təəssüf hissi ilə Azərbaycan jurnalistikasının bu cür ekstremal vəziyyətlərə hazır olmadığını bildirib:** "Təəssüf ki, Azərbaycan jurnalistikası bu tip vəziyyətlərə hazır deyil. Sevindirici haldır ki, Müdafiə Nazirliyi ilə jurnalistlərin görüşü oldu. Ancaq bu görüşdə hər hansı ortaq nəticə olmadı. Hər hansı yaddaş kitabçası hazırlanıb jurnalistlərə paylanmadı. Bu bir sınaq oldu və bir daha göstərdi ki, Müdafiə Nazirliyi də köhnə işindədir, media da".

**"Yeni Nəsil" Jurnalistlər Birliyinin sədri Arif Əliyev bu mövzuya olduqca həssas yanaşmağın tərəfdarı olduğunu deyib:** "Burada əsas informasiya mənbəyi Müdafiə Nazirliyidir. Onların verdiyi informasiyalar da bir qədər məhduddur. Təəssüf ki, belə vəziyyətdə informasiya ilə manipulyasiya edən jurnalistlər tapıldı. Xüsusilə də yalançı erməni mənbələrindən istifadə cəhdləri və şəhidlərin sayı üzərində aparılan manipulyasiyadan söhbət gedir. Hər bir itki ağır itkidir. Ancaq bu rəqəmlər üzərindəki oyunlar çox mənfi haldır".

**Arif Əliyevin sözlərinə görə, medianın son hadisələrdə peşəkarlıq göstərə bilməməsinin səbəbi onların müstəqil yayım siyasətinin olmamasıdır:** "Biz bir daha şahid olduq ki, müstəqil medianın zəiflədildiyi bir şəraitdə jurnalistika hadisələrə adekvat münasibət göstərə bilməyəcək. Sözsüz ki, televiziyalar bu məsələlərdə sərbəst olsa idi, özləri öz proqramlarını müəyyənləşdirə bilsəydilər, onlar hamısı eyni cür reaksiya verməzdilər. Belə bir vəziyyətdə çal-çağır nə üçündür? Əksinə, həmin vəziyyətdə şəhid verən ailələrdən reportajlar hazırlamaq lazım idi. Cəmiyyətdə həmin anda ciddi mövzulara ehtiyac vardı. İnsanlarda bir çaşqınlıq var idi ki, onu aradan qaldırmaq lazım idi. Televiziya öz vəzifəsinin öhdəsindən gəlmədi və mən hesab edirəm ki, bu, telejurnalistlərimizin bacarıqsızlığı deyil, medianın müstəqilliyinin əlindən alınması səbəbindəndir".

**Ekspert bildirib ki, problemin kökündə medianın siyasi qüvvələr tərəfindən idarə olunması durur:** "Bizim Qarabağ döyüşlərindən, Çeçenistandakı müharibədən reportajlar hazırlayan cəsarətli jurnalistlərimiz var. Problem bunda deyil. Problem ondadır ki, bu halda jurnalistika müstəqil olaraq, o prinsiplərə əməl etmək imkanından məhrumdur. Çünki KİV-lərin böyük əksəriyyəti-televiziya və radio bütünlüklə, çap mətbuatının və o cümlədən yeni medianın əksər hissəsi siyasi mərkəzlərdən idarə olunur. Ayrı-ayrı media qurumlarının səhvlərini aradan qaldırmaq asandır, biz bunun yollarını bilirik. Ancaq kənar təsirləri aradan qaldırmağa bizim gücümüz çatmır. Sabah jurnalistləri söyəcəklər, danlayacaqlar ki, bunu düzgün eləmədilər, bu anda özlərini düzgün aparmadılar. Ancaq bu o jurnalistikadır ki, onun ekstremal şəraitdə işləmək üzrə 25 illik təcrübəsi var. Televiziyaların bu davranışı professionalizm problemi deyil, müstəqil yayım siyasətinin olmamasıdır".

**Mətbuat Şurasının sədri Əflatun Amaşov isə problemin səbəbini bu sahədə yetərincə ixtisaslaşmış jurnalistin olmamasında görür:** "Biz bununla bağlı bəyanat yaymışıq və münasibətimiz orada öz əksini tapıb. Azərbaycan jurnalistikasının problemlərinin biri də budur ki, ixtisaslaşma dərinləşməyib. Bir jurnalist çox müxtəlif və bir-birinə yaxın olmayan mövzularda yazır. Biz istərdik ki, müharibə haqqında yazan və ya cəbhə bölgəsindən xəbər hazırlayan jurnalistlər bu mövzudan müəyyən qədər məlumatlı olsunlar. Heç olmasa topu tüfəngdən seçə bilsinlər".

❑ Nərgiz LİFTİYEVA

YENİ MÜSAVAT
N 195 (5904) 5 avqust 2014

# İqbal Ağazadə bələdiyyə seçkilərinə hazırlıqlara bağlı bölgələrə səfər edəcək

## **Taleh Əliyev:** "Hesab edirik ki, bu, insanların prosesə qoşulmasına, seçkilərə qatılmasına böyük təkan verəcək"


Taleh Əliyev

**Ümid Partiyası İcra Aparatının rəhbəri Taleh Əliyev partiyanın mətbuat xidmətinə bələdiyyə seçkilərinə hazırlıqla bağlı danışıb. T.Əliyev deyib ki, avqustun 2-də keçirilən Ümid Partiyası Ali Məclisinin sessiyasından dərhal sonra partiya sədri, millət vəkili İqbal Ağazadə zonalar üzrə yerli şöbə sədrlərini ayrı-ayrılıqda qəbul etdi və yerlərdə bələdiyyə seçkilərinə hazırlığın vəziyyəti ilə maraqlandı: "Hər bir şöbə sədri təmsil etdiyi rayonun bələdiyyə subyektləri və üzvlərinin sayı, ilkin namizədlərin siyahısı və görülən işlər barədə partiya sədrini məlumatlandırdı.**

Bələdiyyə seçkilərinə hazırlıqlar zamanı rastlaşdıqları bəzi problemlərdən danışdılar. Yerli təşkilat sədrləri rastlaşdıqları əsas problem kimi bələdiyyələrin statusunun olmamasını və bundan əvvəlki seçki təcrübəsini göstəridilər. Qeyd olundu ki, əvvəlki bələdiyyə seçkilərində namizədliyini irəli sürən partiya üzvlərinə namizədliklərini geri götürmək üçün hakimiyyət tərəfindən güclü təzyiqlər olunub. Bir çox bələdiyyə subyektlərində namizədlərin özünə, qohumlarına olan təzyiqlər onların namizədliklərini geri götürməsinə səbəb olub. Namizədliyini geri götürməyənlərin isə bəziləri əsassız olaraq qeydiyyata alınmayıb. Lakin keçmişdə baş verənlərə bizi prosesdən çəkindirmir və biz gələcəyə inamla baxırıq. Çalışırıq ki, daha çox bələdiyyə subyektindən daha çox namizədlə seçkilərə qatılaq. Yerli şöbə sədrləri və fəallar də bu istiqamətdə gərgin iş aparırlar. Artıq kifayət qədər buna nail ola bilmişik. Ayrı-ayrı subyektlər üzrə ilkin namizədlər siyahısı hazırdır və siyahı artmaqda davam edir.

Biz prosesin getməsi, daha çox insanın namizədliyini irəli sürməsi üçün əlimizdən gələni edirik. Partiyamızın sədri cənab İqbal Ağazadə rayon şöbələrinin rəhbərləri ilə son görüşündə də bu istiqamətdə bir daha öz tapşırıq və tövsiyələrini verdi. Partiya olaraq ilin əvvəlindən seçkilərə qatılmaq və prosesdə iştirak etmək üçün yerlərdə təbliğat aparır, bölgələrə intensiv səfərlər edir, zona müşavirələri keçiririk. Bundan sonra da insanların seçkiyə, proseslərə qatılması üçün bir sıra tədbirlər həyata keçirməyi düşünürük. Yaxın günlərdə partiya sədrinin rayonlara səfəri planlaşdırılır. Artıq bu yöndə hazırlıqlar görülür. Hələlik səfərlərin detallarını açıqlamağı məsləhət bilmirik. Amma səfərlər zamanı ictimaiyyəti geniş şəkildə məlumatlandırmaq fikrindəyik. Partiya sədr yerlərdə ilkin namizədlərlə görüşəcək, bələdiyyə seçkilərinə partiyanın qatılmasının səbəblərini açıqlayacaq, bunun əhəmiyyətini ilkin namizədlərə, partiya fəallarına izah edəcək. Hesab edirik ki, bu insanların prosesə qoşulmasına, seçkilərə qatılmasına böyük təkan verəcək".

# Ümid Partiyasının Ali Məclisinin sessiyası keçirildi



**Avqustun 2-də Ümid Partiyasının Mərkəzi Qərargahında partiyanın Ali Məclisi növbəti sessiyasını keçirdi. Sessiya öz işinə Məclis üzvlərinin Azərbaycan Dövlət Himnini oxuması ilə başladı. Şəhidlərin ruhu bir dəqiqəlik sükutla yad edildi. Sonra gündəlik səsə qoyuldu və təsdiqləndi. Gündəliyə çıxarılan təşkilatı məsələ, sədrin sərəncamlarının təsdiqi və cari məsələlər müzakirə edildi. Ali Məclis yeni üzvlərini təsdiq etdi.**

Tanınmış şair Rəfail Tağızadənin Ali Məclis sədrliyinə namizədliyi irəli sürüldü və seçildi.

Sədrin sərəncamları təsdiq edildi.

Sessiyada iştirak edən Ümid Partiyasının sədri, millət vəkili İqbal Ağazadə təşkilati məsələlər, qarşıda duran vəzifələr və bələdiyyə seçkilərinə hazırlıqla bağlı məruzə ilə çıxış etdi, məclis üzvlərinə tapşırıq və tövsiyələrini verdi.



***

Tağızadə Rəfail Alı oğlu 11 fevral 1958-ci ildə Ağdam rayonunun Sofulu kəndində anadan olub. 1964-1974-cü illərdə Boyəhmədli kənd orta məktəbində təhsil alıb.

1974-cü ildə Azərbaycan Politexnik İnstitutuna *(indiki Texniki Universitet)* daxil olub, 1979-cü ildə həmin institutu bitirib. İxtisasca mühəndis-sistemotexnikdir.

Keçmiş SSRİ-nin müxtəlif şəhərlərində xüsusi kurslar keçib. Uzun müddət istehsalatda müxtəlif vəzifələrdə çalışıb. Milli Orduda ön cəbhədə zabit kimi qulluq edib. "Şah İsmayıl Xətai"adına və digər Fəxri Fərmanlarla və qiymətli hədiyyələrlə təltif olunub.Siyasi fəaliyyətdədir. Siyasi fəaliyyətiə 2002-ci ildən Ümid Partiyası sıralarına qoşulmaqla başlayıb. Ümid Partiya sədrinin Qarabağ məsələləri, sonra isə Təşkilat məsələləri üzrə müavini olub. Hal-hazırda partiya Ali Məclisinin sədridir.

Dövrü mətbu orqanlarda mütəmadi olaraq şer, poema və publisistik yazılarla çıxış edir.

"Qapı"(2004) və "Qarabağ rüzgarları" (2009), "Gecə xəyalları" (2013) şeirlər kitabının müəllifidir.

Beynəlxalq Rəsul Rza mükafatı laureatıdır (2006). ("Qarabağ Qazisi haqqında ballada" poemasına görə).

Dünyanın çağdaş avanqard şairlərinin, xüsusən çağdaş polyak şairlərinin şeirlərini Azərbaycan türkcəsinə tərcümə edir.

"Qəfil görüş" çağdaş polyak şeir antologiyası kitabının həmmüəllifidir.

Şopenin 200 illiyi ilə əlaqədar olaraq Şopenin Azərbaycanda təbliğinə görə (eyni zamanda "Şopenin ürəyi" poemasına görə) Polşanın Mədəniyyət və Mədəni İrs naziri tərəfindən xüsusi Diploma layiq görülüb.

Mədəniyyətlərarası Dialoqa Dəstək Mərkəzinin sədridir.

Şeirləri türk, rus, inglis, polyak, ukrain dillirinə tərcümə olunub.

Ailəlidir. Iki övladı və iki nəvəsi var.











**Bu səhifə Ümid Partiyası tərəfindən təqdim edilmişdir**

YENİ MÜSAVAT
N 195 (5904) 5 avqust 2014



# Əziyyətlə böyütdüyümüz uşaqlar

Zamin HACI
zaminhaci@gmail.com

**Artıq hiss olunur təzədən atəşkəs rejiminə qayıdırıq, virtual vətənpərvərlərimiz də dünyada yaşayan bütün erməniləri qırıb Bakımıza qayıdıblar, o səbəbdən mövzu ilə bağlı bir-iki fikrimizi də yazaq, yoxsa sonra gec olacaqdır. Bir də gələn yay qırğın düşə ya düşməyə. Gələn yay, inşallah, yunanlar, ya da iranlılarla vuruşacağıq, çünki yapistlərin hesablamalarına görə artıq Ermənistanda ins-cins qalmayıbdır.**

Fikir nədən ibarətdir? Birincisi, son atışmaları Rusiya amilinə bağlayırlar, deyirlər guya bunu ruslar təşkil edib. Ortada isə heç bir fakt yoxdur. Ancaq fərziyyələr, kiminsə yatıb yuxuda gördüyü söhbətlərdir. Lap hesab edək belədir. Guya bu, yapistlərin məsuliyyətini azaldır?

ABŞ inqilaba pul ayırmaq istəyirmiş, müstəqil siyasətimizi pozmaq fikri varmış. Rusiya uşaqlarımızı öldürür, cəbhədə təxribat edir. İran dini duruma müdaxilə edir, Türkiyə Ermənistanla sərhədi açmaq istəyir və sairə. Bunlar mənim sözlərim deyil, yapistlərin öz açıqlamalarıdır. Bəs o ağıza çullu dovşan sığmadan danışılan “uğurlu xarici siyasət” hanı? Xarici siyasət uğurludursa, Rusiya niyə ermənilər tərəfdən güllə atıb bizim gəncləri öldürür? Mən istərdim xalqımız ancaq çay içsin və asudə vaxtlarında bu sual üzərində düşünsün. Başa düşdük ki, erməni heç zaddır, arxalı köpəkdir, biz isə boz qurduq. Bəs niyə dünya ictimaiyyəti bu bozqurdu dəstəkləmir? 2015-ci ildə Bakıda keçiriləcək Avropa oyunları necə olacaq? Yoxsa uca millətimizlə oyun oynamaq istəyirlər? Ar olsun!

İkinci mühüm məsələ “camaatın min bir əziyyətlə böyütdüyü uşaqların həlak olması” tezisi ətrafındadır. Mən ürək ağrısı ilə qeyd edim ki, hər dəfə kiminsə dilindən, ya müxalif medianın səhifələrindən bu tezisi oxuyanda dərin kədərə düçar oluram, həmişə fikirləşirəm bunun bir izahatını yazım, əl saxlayıram. Ancaq indi düşünürəm yazmaq lazımdır. Vətən söhbətlərində gizli fikir qalmasın gərək. Sabir demişkən, sonra gözümüz bərələ qalmasın.

Söhbət ondadır ki, bu millətin kasıb və yetim balaları cəbhə xəttində həlak olurlar. Guya indi kompüter sistemidir, kimin harada xidmət elədiyini kompüter müəyyənləşdirir. Bəs nə üçün Çıraqlı kəndində atışmada nazir uşaqlarını heç demirəm, adi sahə müvəkkilinin uşağı da gözə dəymir? Ancaq mövzumuz bu deyil. Mövzumuz əziyyət mövzusudur.

Azərbaycanda neçə illərdir kasıbların uşaqları vətəni qoruyub ölürlər. Ancaq valideynlərin, əsgər analarının buna etiraz edəcək heç bir qurumu, birliyi yoxdur. Əksinə, hakimiyyət hər həlak olanın ailəsinə beş-on kisə kartof yardımı edib söhbəti bağlayır. Sonra yenə bu mərhum əsgərlərin uşaqları harın məmurların qapılarında qalır, əziyyət çəkirlər. Gah görürsən təhsil haqqı verə bilməyib universitetdən qovulurlar, gah polis təpiyi altında qalırlar. Bunun səbəbi nədir? Niyə azərbaycanlılar uşaqlarının bir topa fırıldaqçı, oğru, yalançı məmurun boşboğazlığına qurban getməsinə dözürlər? Bəzən hətta “o biri uşaqlarım da qurban olsun” deyirlər?

Mən iddia edirəm ki, bu, həmin uşaqların əziyyətsiz böyüməsi ilə bağlıdır. Azərbaycan mülayim iqlim qurşağında yerləşir, uşağı buraxırsan çölə, bir də görürsən öz-özünə, otdan-əncərdən yeyib böyüyüb. Hələ əksinə, uşaq özü valideynin əziyyətini çəkir, balaca vaxtından orda-burda işləyib evə pul gətirir. Oliqarx, nazir, məmur uşaqları başqa məsələ! Onların valideynləri bu uşaqlara görə həqiqətən əziyyət çəkirlər. London klinikasında doğuş, İsveçrədə bağça, Amerikadan gətirilən dayə, Fransada litsey, nə bilim, Oksfordda təhsil, Laciverd Sahildə istirahət... Hələ arada uşaq “Bentli” ilə kimisə basdalayır, buna görə nə qədər itin-qurdun ağzını yummalısan, QHT-lərə pul tökməlisən, AŞ PA-da deputat almalısan, canım sənə desin, respublika daxilindəki dilənçilərə nəzir verməlisən və sairə və ilaxır. Bunlar hamısı əziyyətdir, xərcdir.

Kasıb isə uşağına əziyyət çəkmir, çəksə vəziyyəti ilə də maraqlanar. Əziyyət çəkilən uşaqda o əziyyətin nəticəsi də görünməlidir. Görünmür. Təhsil yox, sağlamlıq yox, iş-güc yox... Hərbi ixtisaslara, zabit olmağa keçid balı hər il ən aşağı səviyyədə olur.

Ümumiyyətlə, insan öz vətəni ilə maraqlanar, onun sərvətini kim oğurlayır, seçkisini kim saxtalaşdırır suallarını verər. Vermirsə, qalanı əfsanədir.

**Türkiyə tarixində ilk dəfə keçiriləcək prezident seçkilərinə 5 gün qalsa da ölkədən kənarda olan vətəndaşların səsvermə kampaniyası artıq bitib. Türkiyə Mərkəzi Seçki Komissiyasının verdiyi xəbərə görə, iyulun 31-dən avqustun 3-dək xaricdə yaşayan 2 milyon 784 min vətəndaş üçün 54 ölkədəki 103 diplomatik nümayəndəlikdə səsvermə imkanı yaradılıb. Əgər seçki ilk mərhələdə başa çatmayıb ikinci mərhələyə qalsa, xaricdə yaşayan vətəndaşlara avqustun 17-20-də yenidən belə bir imkan yaradılacaq.**

# Obama Ərdoğanın telefonunu açmır - Türkiyə gündəmi

## Xaricdə yaşayan Türkiyə vətəndaşları AKP-nin yaratdığı süni əngəllərdən şikayətçidir; Kılıçdaroğlu Ərdoğanı Hitler və Mussoliniyə bənzətdi; Fətullah Güləndən tərəfdarlarına “Əkməl” tapşırığı



Kamal Kılıçdaroğlu



Rəcəb Tayyib Ərdoğan



Barak Obama

Türkiyə seçki qanunlarına görə, xaricdəki səsvermə qutuları hər üç namizədin nümayəndəsinin iştirakı ilə möhürlənərək avqustun 10-dək Türkiyəyə göndərilməlidir. Hökumət üzvləri xaricdəki seçicilərin seçkiyə marağının azlığından şikayət etsələr də vətəndaşlar buna seçki prosedurunun çətinləşdirilməsinin səbəb olduğunu deyir. Almaniyada yaşayan vətəndaşlar bildirib ki, seçki qanununa edilən son dəyişikliklərə görə, vətəndaşlar seçki məntəqələrinin təyin etdikləri gündə səs verə bilər. Bu isə bir sıra çətinliklər yaradır. Avropa qaydalarına görə iş yerindən ayrılmalı vətəndaşlar bir həftə öncə bu haqda şirkətə yazılı müraciət etməlidir. Xaricdəki seçki komissiyaları isə vətəndaşlara bildirişi səsvermə gününə 3-5 gün qalmış göndərib. Zamanlamadakı süni əngəllər səsvermə faizinin aşağı düşməsinə səbəb olub. Türkiyə mediası yazır ki, ölkədən kənarda olan seçicilərin çoxu əməkçi miqrantlardır. Onlar müxalifətin elektoratı sayılır.

Müxalifətin də seçki hazırlıqları davam edir. Professor Ekmeleddin İhsanoğlunun Tokatdakı təbliğat mitinqində çıxış edən Cümhuriyyət Xalq Partiyasının lideri Kamal Kılıçdaroğlu AKP iqtidarını xalqın təpkilərinə baxmayaraq dövlətin bütün imkanlarını AKP namizədinin xeyrinə istifadə etməkdə suçlayıb: "Dövlətin valisi, əmniyyət müdiri, polisi, məmurları Ərdoğanın qələbəsi üçün işlədilir. Türkiyənin bugünkü tablosu 1940-cı illərin Almaniyasını, Mussolininin İtaliyasını yada salır. Orada da hər tərəfdə diktatorların rəsmləri olurdu. Hara baxsan, Ərdoğanın təbliğat plakatlarıdır. Büdcənin pulu ilə təbliğat qurur. Biz dövlətə vergini ona görə veririk ki, Ərdoğan özünə təbliğat kampaniyası qursun? Belə bir seçimin ədalətli keçdiyini söyləmək olarmı?“

**Bir qəzetçinin sualı ilə İŞİD haqqında danışan Kılıçdaroğlu deyib ki, terror qruplaşması təkcə 49 Türkiyə vətəndaşını deyil, Türkiyə baş nazirini də girov götürüb:** “İŞİD Türkiyə bayrağını endirdi, baş nazir susdu, vətəndaşlarımızı girov götürdü, baş nazir susdu. Hələ də İŞİD-ə "terror qrupu" demir. Əslində İŞİD bir nəfərimizi də girov götürüb - Rəcəb Tayyib Ərdoğanı. Mosul konsulluğumuz niyə zamanında boşaldılmadı, xəbərdarlıq edildiyi halda hökumət niyə təslim oldu, Türkiyənin heysiyyəti nədən ayaqlar altına atıldı? Ortada bir sövdələşmə var, danışıqlar var, biz bunu bilirik. Biz İŞİD-in əlinə silahları Rəcəb Tayyib Ərdoğanın verdiyini də bilirik. Onun türkmənlərə yardıma getməsi haqqında dedikləri isə ağ yalandır. AKP utanmadan “Ərdoğan - bir dünya lideri” şüarı səsləndirir. Ölkəsinin etibarını yox edən bir şəxs necə dünya lideri ola bilər? Ərdoğan yalqız qalmış bir liderdir. O, dünyanın ələ saldığı, yalan söyləməkdə tayı-bərabəri olmayan bir liderdir".

***

**Avqustun 4-də ABŞ-da mühacirətdə olan Fətullah Gülən uzun müddətlik sükutunu pozub. “Gülən” sonuncu dəfə 17 dekabr Böyük Rüşvət Əməliyyatından sonra videomüraciət yayaraq “paralel dövlət” yaratması ilə bağlı iddialara qarğış yağdırmaqla cavab vermişdi. Son videomüraciətində F.Gülən deyib ki, həftəlik moizələrini davam etdirəcək:** “Şeytan davamlı olaraq önümüzə çıxır, "sizə söylənənlərə qarşı ancaq süsacaqsınız?" sualı ilə bizi təhdid edir. Bizə “paralel” dedilər, bizə “vampir” dedilər. Həqiqətən bəziləri millətin qanını içir, milləti qansız qoyur. Biz də deyirik ki, kim paraleldirsə, kim vampirdirsə, Allah onun min bəlasını versin, vampirlərin evinə atəş salsın, yuvalarını başlarına yıxsın. Kim hörgütdürsə, kim silahlı hörgütdürsə, kim millətə pislik etmək istəyirsə, kim millətin haqqı olan bir arpa qədər haram yeyibsə, Allah onun bəlasını versin".

**Fətullah Gülən çıxışında müxalifətin “çatı adayı” Ekmeleddin İhsanoğlu haqqında övgü ilə danışıb. Türkiyə mediası yazır ki, bu sözlər hərəkat liderinin seçki günü tərəfdarlarına açıq təlimatıdır:** “Hər halımızla, hər davranışımızla, imai-ekmel, ehsani-ekmek, ihlasi-ekmel, rızayi-ekmel, yakini-ekmel deməliyik”.

***

**Ötən gün Türkiyə mediasının ən çox tirajladığı xəbərsə professor İhsanoğlunun xanımı Füsun İhsanoğlunun “Hürriyet” qəzetinə müsahibəsi olub. Seçki kampaniyası boyu həyat yoldaşı ilə Türkiyəni dolaşan Füsun İhsanoğlu insanların təpkisindən məmnunluğunu ifadə etsə də, AKP-nin seçki taktikasını “sözün bitdiyi yer” adlandırıb:** “Belə bir kampaniyanı heç gözləmirdim. Mənim ailəmdən önəmli siyasətçilər çıxıb. Onların siyasət dili hər zaman dövlət ərkanına uyğun olub. Mən Ərdoğanın danışdığı dili anlamıram. Türkiyənin ən yüksək vəzifəsi uğrunda bir yarışma gedir. Bu yarışmaya qatılanlar nəzakəti heç əskik etməməlidirlər. Bizim hörmətli Ərdoğan ailəsi ilə dostluğumuz onun bələdiyyə başqanı olduğu dönəmlərdən başlayır. Nə dəyişib - bunu anlaya bilmirəm. Biz yenə eyni insanlarıq, sayğıda qüsur etmərik. Bizim aldığımız ailə tərbiyəsi bunu vacib edir. Hər gün eşitdiyim sözlərə görə çox üzülürəm”.

Füsun İhsanoğlu “Ərdoğanın həyat yoldaşı Əminə Ərdoğan haqqında nə düşünürsünüz” sualına sözlə yox, üz cizgiləri ilə üzüldüyünü ifadə edərək cavab verib.

***

ABŞ prezidenti Barak Obama Türkiyənin baş naziri Rəcəb Tayyib Ərdoğanın telefonlarına cavab vermir. Türkiyə telekanallarından birində canlı yayıma çıxan baş nazir deyib ki, bu səbəbdən ABŞ vitse-prezidenti Co Baydenlə danışmaq məcburiyyətində qalır. Baş nazir deyib ki, prezident Abdulla Güldən Obama ilə telefon danışığında bir sıra məsələləri müzakirə etməsini istəyib. Ancaq prezident Gül bu təklifi qəbul etməyib. Ərdoğanın sözlərinə görə, Gül Obamaya zəng etməsini uyğun görmədiyini deyib. Siyasi şərhçilər bu xəbəri yorumlayarkən yazır ki, Obama ilə Türkiyə rəhbərliyi arasında soyuq münasibətlər Türkiyənin Fələstin, İraq, Misir siyasətinə görə ola bilər. ABŞ-ın bu siyasətin tamamilə əksi olan siyasət yürütdüyü bəllidir. Obamanın Türkiyə liderləri ilə telefon danışığında əsas müzakirə mövzusunun Orta Doğu olacağı şübhəsizdir. Görünür, Obama Ərdoğanın telefonlarına cavab verməməklə ABŞ-ın xarici siyasətində hər hansı yeniliklər etmək fikrində olmadığına diqqət çəkmək istəyib. Onu da vurğulayaq ki, bir müddət öncə ABŞ və Türkiyə xarici siyasət idarələri rəhbərlərinin Fələstin məsələsinə görə fikir ayrılığı diplomatik qalmaqal səviyyəsinə yüksəlmişdi.

Onu da vurğulayaq ki, 2012-ci ilə qədər Vaşinqtonla Ankara arasında çox isti münasibətlər vardı. Obama “Time” dərgisinə müsahibəsində Ərdoğanı dünyada etibar etdiyi 5 liderdən biri saydığını demişdi. Demək olar, ayda bir dəfədən az olmayan telefon danışıqları, ildə bir neçə dəfə qarşılıqlı görüşlər liderlərin münasibətlərinin yüksək səviyyədə olmasının göstəricisi idi.

Ancaq “Gəzi Parkı” olaylarında AKP-nin vətəndaşlara adekvat olmayan güc tətbiq etməsi, Misirdə “müsəlman qardaşlar” iqtidarına fərqli münasibət, 17 dekabr əməliyyatından sonra ABŞ-a qarşı bir sıra ittihamların səslənməsi iki ölkə arasında münasibətlərin soyumasına səbəb olub.

Ekspertlər onu da bildirir ki, iki ölkənin münasibətlərindəki soyuqluq hələ bir müddət sürə bilər. Ancaq Barak Obamanın səlahiyyət müddəti bitən Gülə “vida zəngi” etməsi də gözlənilləndir.

Bu məsələdə diqqət çəkən daha bir fakt var - ABŞ xarici siyasət idarəsi 10 avqust seçkiləri ilə bağlı geniş açıqlamalar verməyib. Yalnız dövlət katibi Con Kerri medianın suallarını cavablandırarkən “kim seçilərsə, Vaşinqton onunla işləməyə davam etdirəcək” ifadələrini səsləndirib.

❑ **Aygün MURADXANLI**

YENİ MÜSAVAT
N 195 (5904) 5 avqust 2014

# Kafir bir addımlıqda

**Suriyada, İraqda, uzaq -uzaq ölkələrdə savaşan, ölən, öldürən Azərbaycan vətəndaşları bir addımlıqlarında olan Qarabağda savaşmaq belə istəmirlər. Kimlər üçünsə Qarabağda savaşmaq cihad deyil, Vətən uğrunda ölməklə şəhidlik məqamına yüksəlmək olmaz. Kimlərsə, Arazın o biri tayından gəlməli olan fitvanı gözləyirlər. Fitva isə yubanır, gəlmir.**

Azər RƏŞİDOĞLU



Yaxın Şərqdə savaşan sələfi, xəvaric və təkfirçi qrupları anlamaq olur. Onlar "vətəni sevmək imandandır" hədisini yalan hesab edirlər. Onlar üçün dünyəvi Azərbaycan vətən deyil.

Onlar belə hesab edirlər ki, Azərbaycan müsəlman ölkəsi deyil, vətən deyil, vətəni sevmək kimi bir dini çağırış da səslənməyib, odur ki, bu ölkədən hicrət edib, islam ölkələrində cihad etmək və şəhid olmaq lazımdır. Onların fikrincə, şərab satılan Qarabağda müsəlmanların qətlinə göz yummaq olar. Bu qorxulu düşüncə minlərlə insanı düşüncəsiz robotlara çevirib. Onların ən çox nifrət etdikləri şüar "öncə Vətən" çağırışlarıdır.

Odur ki, İraqda baş kəsən Azərbaycan vətəndaşı olan təkfirçilər doğma torpaqlarında savaşmaq istəmirlər.

Lakin Azərbaycan əhalisinin mühüm hissəsini təşkil edən şiələrin alimlərindən də səs çıxmır. Onların nə cihad çağırışları eşidilir, nə də dünya şiələrini Qarabağı azad etməyə çağırırlar.

Bəziləri hesab edir ki, Qarabağda cihad etmək üçün heç bir əsas yoxdur. Ümumiyyətlə, cihad elan edilməsinə hazırda islam alimlərinin özlərinin də münasibəti birmənalı deyil.

Hər özünü "İslam alimi" elan edən təkfirçi cihad elan edə bilməz. Odur ki, bu gün uzaq bir ölkədə oturan, kimliyi bəlli olmayan bir "təkfirçi alimin" çağırışına yüzlərlə Azərbaycan gəncinin qoşulmasının nə dini hökmlərə, nə də cihada heç bir bağlılığı var.

"Cihad anlayışı"na İslam məzhəblərinin fərqli baxışları mövcuddur. Odur ki, bu məsələnin müzakirəsinin özü də gərginlik yarada bilər. Məsələ kimin haqlı, kimin haqsız olduğunda da deyil. Lakin dini siyasi alverə çevirmək istəməyən istənilən ilahiyyatçı təsdiqləyə bilər ki, bu gün Suriyadan, İraqdan səslənən cihad çağırışının heç bir dini əsası yoxdur. Azərbaycanlıları bu ölkələrə çağırıb, ölümə göndərmək də dinə söykənmir.

Azərbaycanlıların özlərinin torpaqları işğal edilib. Lakin problem təkfirçilərlə bitmir. İraq, Suriya, Fələstinlə bağlı fitva verən şiə alimləri, müctəhidlər, mərcəyi - təqlidlər Qarabağa axıdılan müsəlman, şiə qanına bu qədər seyrçi qalırlar. Fələstin, Qəzza üçün göz yaşları axıdan Türkiyə hakimiyyəti "bir millət, iki dövlət" olan Azərbaycanlı qardaşlarının ermənilər tərəfindən qətlinə bu qədər biganə yanaşır.

Əslində din, millət, məzhəb təəssübkeşliyi hamını Qarabağa axışmağa, bu müsəlman yurdu uğrunda savaşmağa vadar edir. Qarabağda yaşayan minlərlə müsəlman zorla torpaqlarından çıxarılıb. Hər gün Qarabağda Azərbaycan əsgərinin və dinc sakinlərinin qanı axıdılır. Lakin nə sələfi və digər təkfirçilər, nə şiə icmaları, nə də ki türk qardaşlarımız tərəfdarlarını Qarabağ savaşına çağırmağı ağıllarından belə keçirmirlər. Təkfirçiləri anladıq. Şiə müctəhidlərinin öz məzhəb qardaşlarının ölümünə bu dərəcədə seyrçi qalmasına nə ad verək? Görünən budur ki, Qarabağdakı müsəlman qadınlarının qeyri-müsəlman işğalçıların girovunda qalması çox az adamı maraqlandırır.

Suriya və İraqda döyüşən təkfirçiləri uzaq ölkələrdə "cihad" adı altında terror, partlayışlar törədərək, dünyada müsəlmanları vəhşi kimi qələmə verməyi özlərinə rəva bilirlər, vətəni qorumağı isə şənlərinə sığışdırmırlar. Şiə alimləri də deyəsən ermənilərin xətrinə dəymək istəmir.

Azərbaycan insanı inanclıdır. Sadəcə olaraq, ruhani xadimlər xalqın dini maraqlarının təmin olunmasında önəmli rol oynaya bilmirlər və bunu istəmirlər. Çünki Azərbaycanın tanınmış ruhani xadimlərinin önəmli hissəsi xarici qüvvələrin, eyni zamanda hakimiyyətin nəzarətindədir.

Azərbaycan dindarının önəmli hissəsinin dini rəhbəri olan müctəhidlərdən, rəhbərlərdən Qarabağa dair mövqelərini nəzərdən keçirtməyi tələb etmək haqqı var.

İnanclı insanlar Qarabağ savaşında misilsiz qəhrəmanlıqlar göstəriblər. Bunu təkrar etmək iqtidarındadırlar. Qarabağın azadlığı uğrunda vuruşaraq şəhid olmaq diktator Bəşər Əsədin hakimiyyəti uğurundakı döyüşlərdə ölməkdən daha şərəflidir.

Bu gün qan tökmək istəyənlərə meydan var - bu Qarabağdır. Bir türk - İslam torpağı işğal olunub. Din alimləri isə bunu görmək belə istəmirlər...

# Rusun Qafqazdakı maşası

Zahid SƏFƏROĞLU
zsafaroglu@gmail.com



**"Əzabkeş" erməni xalqı əsrlər boyu öz mövcudluğunu saxlamaq üçün böyük güclərin kölgəsinə sığınıb. Son iki əsrdə bu, Rusiyanın hesabına baş verib. Bəlkə də buna normal baxmaq olardı. O məntiqlə ki, özləri bilər, can onların, cəhənnəm - Tanrının. Amma iş ondadır ki, ələlxüsus da rusun əlində maşa rolunda olan bu xalq çörəyini yeyib suyunu içdiyi millətlərə, öz qonşularına həmişə badalaq vurub, bəlalar gətirib, əzablar yaşadıb.**

Son günlər döyüşlərin yenidən alovlandığı Dağlıq Qarabağ da mənfur qonşularımızın bədxahlığının, məkr və hiyləsinin, öz ağasının hesabına özgə torpaqlara yiyələnməsinin ən təzə təzahürlərindən biridir. Hələ harasıdır, ermənilər onlara daim xeyirxahlıq göstərmiş böyük qonşularına - türklərə bu boyda nankorluqları azmış kimi, Rusiyaya özlərini təklif eləməkdə davam edir, "türk dünyası üzərində daha güclü dəyənək olmaq" istəyirlər.

"Biz Rusiyanın Qafqazdakı İsraili ola bilərik". Keçmiş erməni kəşfiyyatçısı, daha doğrusu, başkəsəni Vova Vartanov İrəvandakı mətbuat konfransında Qarabağdakı son olaylara münasibət bildirərkən deyib bunu. Sitat: "Əgər Rusiya ağıllı və ardıcıl olsa, türkə satılmasa, gec-tez Ermənistan bütün türk dünyasını nəzarətdə saxlayan dövlətə çevrilə bilər. Və Rusiya yavaş-yavaş ona yaxınlaşacaq ki, Ermənistan Cənubi Qafqazın balaca İsrailinə çevriləcək".

Ac toyuq, darı məsələsi yada düşür təbii ki. Amma insaf naminə İsraillə müqayisə, yersizdir. Ən azı ona görə ki, İsrail güclü dövlət olaraq Qərbdə mühüm söz sahibidirsə, Ermənistanın adı heç it dəftərində də yoxdur. Ermənistan hərbi-siyasi və iqtisadi-maliyyə göstəriciləri etibarilə əslində baş tutmamış, cılız bir dövlətdir və tamamən Rusiyanın asılılığındadır - həm də müti asılılığında. Bu mütilik haqda tərəflər arasında 2047-ci ilədək qüvvədə qalacaq "sığə müqaviləsi" də imzalanıb.

Sonra. İsraildə Amerika hərbi bazası yoxdur, bu dövlət yetərincə güclü orduya, nüvə başlıqlarına, modern hərbi-sənaye kompleksinə malikdir. O dərəcədə modern ki, hətta Rusiyaya və Çinə silah satır. Ermənistanda isə əksinə, rus bazası mövcuddur, onu sərhədlərini rus əsgərləri qoruyur, ümumiyyətlə, Rusiyasız Ermənistan adında dövlətin varlığı böyük sual altındadır. Özləri də fərqindədirlər ki, Ermənistan Rusiyanın quberniyasıdır. Başqa özəllikləri də burada da sadalamaq olardı. Məsələn, Ermənistanın sahibi Rusiya ABŞ qədər dünyada qüdrət sahibi deyil. Yaxud demokratiya və insan haqları sahəsində köklü fərqlilikləri göstərmək olar.

Sözü nəyə gətiririk? Ona ki, Ermənistanın İsrail olmasına çox var. Fəqət, onları birləşdirən üç güclü, ortaq cəhət mövcuddur: **1.** Hər ikisi işğalçıdır. **2.** Hər ikisi bəşəriyyət əleyhinə, dinc sakinlər, uşaqlar əleyhinə cinayətlərə imza atıblar və atmaqdadırlar. **3.** Hər ikisi yerləşdikləri bölgədə sabitsizlik, gərginlik və qonşular üçün xəta-bəla mənbəyidir.

Bu məsələlərdə ermənilərə, ümumiyyətlə, çatan olmaz. Region xalqlarının bəxti gətirib ki, ermənilər İsrail kimi dövlət qura bilməyiblər. Və nə yaxşı ki, qura bilməyəcəklər, çünki bu xislətdə millətin xoşbəxt olub rifah içində yaşaması mümkünsüzdür. Məsələ də ondadır ki, bu gün təkcə Ermənistan adlı qondarma dövlət yox, az qala erməni toplumunun özü Kremlin əlində qonşu xalqlara qarşı şantaj alətinə çevrilib.

Götürək, elə ötən həftə Bakıda "Neftçi"- "Çixuriya" matçında ermənilərin törətdiyi, iki xalqı toqquşdurmağa yönəlik xəritə təxribatını. Bu insident onların iç üzünü bir daha açdı. Güney Qafqazda normal birgəyaşayışa və inkişafa müstəsna olaraq ermənilərin əngəl olduğuna şübhə yeri saxlamadı. Eləcə də Moskvanın əlində alət olan və vaxtaşırı Gürcüstanı qarışdırmağa çalışan Cavaxetiya erməniləri.

Müxtəsəri, harada kompakt yaşayan ermənilər var, orda qan-qada, bəla var... Onlar nə İsrail ola bildilər, nə də yəhudi. Onlar sadəcə, erməni oldular. Onun-bunun maşası olan erməni. Yəhudilər Xolokostu dərhal tanıtdırdılar. Erməni isə 100 ildi dünyanı uydurma soyqırımına inandıra bilmir. Çünki maşa rolundadır. Onlar böyük güclərə məhz bu rolda lazımdılar. Ən önəmlisi, özləri bunu istəyir. Terrorçu Vartanov da elə onu deyir...

# Deputat nazirə tövsiyə verdi

**Deputat Fazil Mustafa orta məktəblərdə hərbi hazırlıq dərslərinin bərpa olunması ilə bağlı təhsil naziri Mikayıl Cabbarova müraciət edib.**

Virtualaz.org saytı xəbər verir ki, bu barədə F.Mustafa sosial şəbəkədə məlumat yayıb.

F.Mustafa deyib ki, orta məktəblərdə hərbi hazırlıq dərslərinin bərpasına ehtiyac yaranıb: "Ehtiyatda olan kifayət qədər zabit və gizirimiz var. Onlar bu işi minimum əmək haqqı ilə həyata keçirə bilərlər. Hələ dərs ilinin başlanmasına bir ay vaxt var. Operativ surətdə orta məktəbin 7-ci sinfindən başlayaraq dövlət və özəl təhsil müəssisələrində şagirdlərin həftədə bir dəfə hərbi vərdiş və davranışlara yiyələnməsinə yönələn dərslərin keçirilməsi nəzərdə tutulmalıdır. Hərbi oyunlar üzrə müxtəlif yarışların keçirilməsi də məktəblərin iş planına salınmalıdır".


Fazil Mustafa


Mikayıl Cabbarov

Deputatın fikrincə, məktəblərdə səyyar atıcılıq kurslarının təşkilinə ehtiyac var. Belə kurslar yaradılmalı və uşaqlar ödənişsiz əsaslarla bu kurslarda iştirak etməlidirlər.

YENİ MÜSAVAT
N 195 (5904) 5 avqust 2014






# “50 milyonluq ev sata bilsəm...”

## Hacı İbrahim: “Artıq ikinci şəhər haqqında fikirləşməyə başlamışam ”

**Xəbər verildiyi kimi, Bakıdan 28 kilometr aralıda, Qaradağ rayonunun Sahil qəsəbəsində yeni möhtəşəm şəhər salınır. Xəzər adaları (“Khazar İslands”) adlanan şəhərin əsas hissəsi Xəzər dənizində yaradılan 50-yə yaxın süni adada yerləşəcək. Yeni şəhərdə artıq tikinti işləri 3 ildən artıqdır ki, davam edir. Zaman baxımından yeni tikilən şəhərdə istifadəyə verilən önəmli yerlərin açılışına artıq tez-tez rast gəlmək olur.**

Avqustun 3-də “Khazar İslands” adlanan şəhərdə hovuzun açılışı olub. Açılışda dünyanın müxtəlif yerlərindən istirahət üçün paytaxtımıza gəlmiş turistlər və yerli əhali iştirak edib. İştirakçıların bir çoxu təəssüratlarını bizimlə bölüşüblər. Onlar buranı istirahət üçün bəyəndiklərini bildiriblər.

Qeyd edək ki, yeni açılışı olan hovuz ən müasir texnologiyalarla tikilərək istifadəyə verilib. Ərazidə insanların istirahəti üçün hər cür şərait yaradılıb. Xüsusi diskotekalar təşkil olunub. Hər hovuzun yanında ailəvi və tək oturmaq üçün stollar təşkil olunub.

Onu da qeyd edək ki, yeni salınan “Khazar İslands” adlı şəhərin tikintisini “Avesta” Konserni həyata keçirir. Konsernin prezidenti **Hacı İbrahim Nehrəmli** yeni salınan şəhərin layihəsi və istifadəyə verilən hovuzla bağlı danışıb. O, şəhərin layihəsi üçün 100 milyard pul ayrıldığını bildirdi: “Ümumiyyətlə, bu şəhərin son dəyəri 100 milyard dollar olacaq. Şəhər 3 hissədən ibarət olacaq. Birinci etap 10 milyard dollar vəsait xərclənməlidir. Burada 150 min insan yaşayacaq. 2,3 və 4-cü hissələrin isə hər biri əvvəlkinə nisbətən 30 min artacaq. 2020-22-ci illərdə 1-ci etap başa çatacaq. Bu hissənin dəyəri 10 milyard dollardır. İnvestisiya dəyəri isə 4 milyard dollardır. Ərazidə bəzi binaların inşası artıq başa çatmaq üzrədir. Biz evləri təmirli olaraq, kvadratı 4 min manatdan olmaqla satacağıq”.

**Konsern rəhbəri şəhərə sərf olunan vəsaitin haradan alınmasını da açıqladı:** “Bir çox təşkilatlar bizə müraciət ediblər. Bununla bağlı bəzi təşkilatlarla işə başlamışıq. Türkiyə, Çin və Çexiya şirkətlərinin investisiyaları hazırdır. Bəzi iş adamları da var ki, bura öz şəxsi pullarından investisiya qoyurlar. Düşünürəm ki, bu ilin sonu, gələn ilin əvvəli buraya diqqət daha da böyük olacaq. Çünki əvvəllər bu layihə barədə danışanda hamı elə zənn edirdi ki, mən nağıl danışıram. Amma bu gün göründüyü kimi, bu bir gerçəklikdir. Hamıya sübut etdim ki, haqlıyam. Məqsədim xalqım üçün faydalı işlər görməkdir. Qoy xalqım gəlib, bu gözəl yerlərdə istirahət eləsin. Ən ucuz, keyfiyyətli yerdir. Burada yaşam tərzi çox yüksək səviyyədə olacaq. Burası komfort bir şəhərdir. 3 il yarımdır ki, burada çalışıram. Düşünürəm ki, bu şəhəri bitirmişəm. Ardı öz-özünə tikiləcək. Artıq ikinci şəhər haqqında fikirləşməyə başlamışam”.

**Hacı İbrahim şəhərin ümumi proyektinin nə zaman bitəcəyi barədə də danışdı:** “Burada 40 milyon kvadratdan çox tikinti sahəsi var. Bunların içərisində 50 məktəb, 50 bağça, 5 universitet və xəstəxanalar var. Birinci etap 2020-22-ci illərdə hazır olacaq. İkinci etap 2018-də başayıb, 2025-də bitəcək. 3-cü etap 2023-də başlayıb, 2030-da qurtaracaq. 4-cü etap 3-cü ilə birlikdə başlayacaq. Bu barədə isə indidən dəqiq bir söz deyə bilmərəm. Çünki hər şey investisiyadan asılı olacaq. Əgər bu gün mənə 8 milyard pul ayırsalar, şəhəri 2025-ə bitirərəm. 1 aydan sonra evlərin rəsmi satışına başlayacağıq. 50 milyonluq ev sata bilsəm, gələn il bu rəqəm 150-yə qalxacaq. Beləliklə, şəhərin tikintisi getdikcə artmağa başlayacaq. 2016-cı ilin martından burada yaşayış başlayacaq, 2022-də artıq burada 150 min insan yaşayacaq. Bütün dünyanın turistlərini bura dəvət etməyə çalışacağıq. Buna nail olsaq, hər şey dəyişəcək. İnsanlar çamadanla qapımın ağzında dayanıb, ”Hacı İbrahim, xahiş edirəm, pulumu qəbul edib, mənə ev ver" deyəcək. Mən baxıb, fikirləşəcəm. Üç il bundan əvvəl buralar su idi. İlk vaxtlar işlər başlayanda hamı mənə inanmırdı. Mənə deyirdilər ki, sənin işin-gücün qurtarıb? Amma mən hər zaman gücümə inanmışam. İndi isə hamı həqiqətə inansın. Bu il 12 restoran açmağı düşünürəm. Şəhəri qranitdən tikirəm. Möhkəm olması üçün. 100 il müddət keçsə belə burada heç bir təhlükə ola bilməz".

**Son olaraq, konsern prezidenti şəhərin tikintisindən sonra çoxsaylı müraciətlərin olduğunu da qeyd etdi:** “Avqustun 15-də məni Küveytə dəvət etmişdilər. Bəzi səbəblərə görə gedə bilmədim. Amma sentyabrın 5-dən etibarən 5 günlük səfərim nəzərdə tutulur. Çox önəmli insanlarla görüşəcəm. Onlar istəyirlər ki, şəhərin bir hissəsini indidən bizdən alsınlar. Sonra baha qiymətə satmaları üçün. Mən də fikirləşirəm ki, onların pullarını alıb, yeni şəhərlər tikib, sonra onlara satım. Bəzi xarici təşkilatlar var ki, bir həftədən sonra işə başlamaq istəyirlər. Heç kəsə xahiş etmirəm ki, bura gəlsin. Kim pul qoymaq istəyirsə, qapım üzlərinə açıqdır”.

**❑ Cavanşir ABBASLI**
**Fotolar müəllifindir**

# “Ermənistan hakimiyyəti ömrünü güllələr hesabına uzatmağa çalışır”

## Vüqar Bayramov: “Bu ölkədə hər uşaq 2100 dollar xarici borcla doğulur”

**“Qarabağ məsələsi hər zaman mənim üçün həssasdır: yalnız ona görə yox ki, doğulduğum kənd işğal altındadır, həm də ona görə ki, ölkəmizin ərazi bütövlüyü milli məsələdir. Təmsil olunduğum müxtəlif beynəlxalq qurumlarda, o cümlədən Avropa Birliyi Vətəndaş Cəmiyyəti Forumunda Qarabağ ermənilərinin birlik forumlarında təmsil olunması məsələsi hər zaman müxtəlif dairələr tərəfindən süni və qərəzli şəkildə gündəmə gətirilib.**

Qitənin qərarverici dairələrində kimlərin münasibətinin necə olmasından asılı olmayaraq mən Avropa Birliyindəki ən yüksək səviyyəli forumdakı imkanlarımdan faydalanaraq qondarma ”DQR"in nəinki hər hansı yüksək səviyyəli tədbirlərə, hətta ən adi görüşlərə qatılmasına imkan verməmişəm. Cəbhə xəttində baş verən son gərginlikdən sonra qlobal arenaya çıxış imkanı olan hər birimizin fəal olması və ölkənin maraqlarını müdafiə etməsi çox vacibdir". Bu fikirləri iqtisadçı alim Vüqar Bayramov bildirib.



**Vüqar Bayramov** deyib ki, cəbhə xəttində baş verən son gərginlikdən sonra erməni lobbisi yenidən fəallaşaraq avropalılara Rusiyanın onları sıxdığını, Moskvaya isə regional münaqişənin səbəbkarının sanki onlar olmadığını təlqin etməyə çalışır. Ən ciddi məsələlərdən biri də məhz erməni rəsmilərinin son hadisələrdən daxili siyasi alət kimi istifadə etməsidir.

İqtisadçı alimin sözlərinə görə, Ermənistan hakimiyyəti təmas xəttində son günlər müşahidə edilən gərginlikdən daha çox daxili iqtisadi-sosial problemləri xalqa unutdurmaq və yumşaq desək, erməni əhalisinin diqqətini daxili çətinliklərdən Azərbaycanla münaqişəyə cəlb etməyə çalışır. Artıq bir neçə gündür ki, istər erməni mediası, istərsə də düşmən ölkə nümayəndələrinin də üzv olduğu qlobal email qruplarda daha çox son günlər baş verən gərginlik müzakirə edilməklə yanaşı, eyni zamanda bu qarşıdurmalarda da ermənilər Bakını günahkar çıxarmağa çalışırlar: baxmayaraq ki, nəinki Azərbaycan torpaqlarını işğal edən, həmçinin son günlər təmas xəttində atəşkəsi pozan da məhz Ermənistandır.

Vüqar Bayramovun sözlərinə görə, Ermənistan hakimiyyəti hələ bir müddət də Qarabağ kartından istifadə edərək əhalinin diqqətini daxili problemlərdən yayındırmağa çalışır. Aydındır ki, sosial-iqtisadi problemlərin dərinləşməsi fonunda rəsmi İrəvan ölkə gündəliyini məhz savaş xəbərləri ilə zəbt edə bilir. Ermənistanın xarıcı borcu artıq 6 milyard dollara çatıb və ümumi daxili məhsulun (ÜDM) 56 faizi deməkdir. 2013-cü ildə sözügedən ölkədə ÜDM-də artım 3.5 faiz olduğu halda xarici borc 5 faizdən çox artıb. Bu ölkənin xarici borcunun 85.2 faizi dövlət borcudur ki, bu da düşmən dövlətinin xarici asılılığının daha da dərinləşməsinə gətirib çıxarır. Başqa tərəfdən, bu gün Ermənistanda dünyaya gələn hər bir uşaq 2100 dollara yaxın xarici borc ilə dünyaya gəlir.

O deyib ki, Ermənistanda digər ciddi problemlərdən biri yoxsulluq həddidir. Mərkəzi Bankın hesablamalarına görə, təqaüdçülərin 60 faizindən çoxu yoxsulluq həddində yaşayır. Rəsmi statistikada ölkə əhalisinin 23.4 faizinin yoxsulluq həddində yaşadığı öz əksini tapsa da, BMT-nin İnkişaf Proqramının hesabatına əsasən bu göstərici 48 faizə bərabərdir. Hətta rəsmi statistika belə Ermənistanda hər 4 nəfərdən 1-nin yoxsul həddə yaşadığını göstərir. Digər tərəfdən, söhbət sadəcə Dünya Bankının qiymətləndirmələrinə əsasən gündəlik gəliri 2 dollardan az olan insanlardan gedir. Halbuki BMT-nin son metodologiyası Ermənistan əhalisinin yarıdan çoxunun yoxsulluq həddində yaşadığından xəbər verir.

İqtisadçı alim onu da bildirib ki, Ermənistan Dövlət Statistika Komitəsinin məlumatına görə, ölkədə işsizlik səviyyəsi 15.9 faizdir. Beynəlxalq hesabatlarda isə bu göstərici 36 faizə yaxın göstərilir. Həm rəsmi, həm də beynəlxalq hesabatlar sözügedən ölkədə işsizliyin əsas sosial problemlərdən olduğunu göstərir. İşsizlik problemi eyni zamanda Ermənistanda ölkəni tərk edənlərin sayındakı artımda özünü göstərir. Bu isə düşmən ölkədə demoqrafik vəziyyətin heç də yaxşı olmadığından xəbər verir. Göründüyü kimi, Ermənistan hakmiyyəti bu ölkə üçün heç də yaxşı vəziyyətə gətirib çıxarmayıb: xarici borc asılılığı artır, yoxsulluq dərinləşir, insanlar iş tapa bilmir. Belə olan halda isə rəsmi İrəvan hakimiyyətinin ömrünü təmas xəttində atılan güllələr hesabına uzatmağa çalışır.

## Sabiq baş nazir Rusiya-Azərbaycan gizli çəkişməsinin mərkəzində



# Toni Bleyer Azərbaycan qazı uğrunda vuruşur - İtaliya dağlarında

### Azərbaycan qazını Avropaya nəql etdirmək uğrunda başlayan davada "suitilərin cütləşməsi" amili; ölkəmiz Avropaya getdikcə daha çox lazım olur...

**İyulun 18-də "Reuter" agentliyinə istinad verdiyimiz xəbərdə deyilirdi ki, Rusiya mübahisəli Cənub Axın qaz kəmərinin təbliği ilə bağlı fəaliyyətini genişləndirir. Bu fəallığın nəticəsi olaraq İtaliyanın "La Repubblica" qəzetində Cənub Axın qaz kəmərinin təbliği üçün 1 səhifəlik yazı dərc olunub.**

Öz qazını Avropaya nəql etməkdə Rusiya ilə rəqabətdə olan Azərbaycan da Qərbdə öz maraqlarının təbliğinə xüsusi önəm verir. 45 milyard avroluq layihəyə görə "Şahdəniz-2" yatağından hasil olunacaq qazı TANAP və TAP kəmərləri ilə Avropaya nəql etmək planlaşdırılıb. Qərbdə bir çoxları hesab edir ki, bu kəmərin köməyi ilə Avropanın Rusiya qazından asılılığını azaltmaq mümkündür.

Azərbaycan tərəfi Qərbdə öz maraqlarını müdafiə etmək üçün ciddi gediş edərək, Böyük Britaniyanın keçmiş baş naziri Toni Bleyeri Azərbaycan qazının Avropaya nəqli üzrə BP-nin başçılıq etdiyi konsorsiumun məsləhətçisi təyin etdirib. Bu barədə "The Financial Times" qəzeti də "Şahdəniz-2" layihəsinə yaxın mənbəyə istinadən yazmışdı. Onlar da Reuter kimi bildirmişdilər ki, cənab Toni Bleyerdən başqa Almaniyanın keçmiş xarici işlər naziri Hans-Ditrix Genşer və "Goldman Sachs İnternational"ın sədri, BP-nin keçmiş icraçı direktoru Piter Sazerlend də məsləhət qrupuna işə cəlb edilib.

45 milyard avroluq layihə Azərbaycanın "Şahdəniz-2" yatağından hasil olunacaq qazı TANAP və TAP kəmərləri ilə Avropaya nəql etmək, bununla da Avropanın Rusiya qazından asılılığını azaltmaq üçün nəzərdə tutulub.

O vaxt BP bildirmişdi ki, "Cənub dəhlizi"nə dair məsləhət qrupu "Şahdəniz-2", TANAP və TAP layihələrinin reallaşması dövründə meydana çıxa biləcək siyasi, ekoloji, imic və sosial problemlərin həlli üzrə məsləhətlər verəcək. Toni Bleyer bu qrupa siyasi və işgüzar təcrübəsi nəzərə alınaraq seçilib. O da xüsusilə vurğulanmışdı ki, "Cənub dəhlizi"nə 7 ölkə cəlb olunduğundan, ortaya çoxsaylı normativ və ekoloji problemlər çıxa bilər.

Artıq "The Guardian" cənab Bleyerin bu istiqamətdə gördüyü işlərdən yazır. Nə qədər ironik olsa da, Böyük Britaniyanın keçmiş baş naziri bu dəfə İtaliyada ekoloqlarla mübarizə aparmalı olacaq.

İş orasındadır ki, layihəyə görə Azərbaycanın qaz kəməri 2016-cı ildə İtaliyanın cənubundakı Piglia şəhərindən keçməklə fəaliyyətə başlamalıdır. Ancaq qaz kəmərinin çəkilişinə yerli sakinlər tərəfindən uzun müddətdir ki müqavimət göstərilir. Toni Bleyerin təyinatı barədə məlumat buralarda dərhal geniş əks-səda verib.

Ekoloqlar iddia edirlər ki, Pugliada UNESCO tərəfindən dünya mədəniyyəti nümunəsi kimi qorunan iki abidə var. Kəmər çəkilərkən bu abidələrə müəyyən ziyan dəyə bilər. Ekoloqlar yerli şirin su mənbələrinin neftlə çirklənə biləcəyindən də ehtiyat edirlər.

Digər tənqidçilər iddia edirlər ki, Aralıq dənizinin sahilindən keçəcək xətt nəsli kəsilməkdə olan rahib suitilərin gələcəyini təhlükə altına ala bilər.

TAP isə bildirir ki, onlar sahildə suitilərin cütləşmə vaxtında hər hansı iş görməyəcəklər. Ortaya başqa bir manеə də çıxıb. 150 ailəyə məxsus zeytun bağlarının sahibləri deyirlər ki, elə ağaclar var ki, onların yaşı 2 min illə ölçülür. Belə ağacları çıxarıb başqa yerdə əkmək olmaz. Yeni yerdə həmin ağacların quruması təhlükəsi böyükdür...

**"Aralıq dənizinin belə bir qədim tarixi olan ərazisindən kəmərin keçməsini planlaşdırmaq absurddur. Toni Bleyer öz torpaqlarını, dənizi, təbii ehtiyatları müdafiə edərək öz uşaqlarına ötürmək istəyən icmaya qarşı dayanıb"**, İtaliyanın Azərbaycan qaz kəmərinə qarşı müxalif olan təşkilatının nümayəndəsi Elena Gerebizza deyib.

Görünür ki, məzuniyyətini İtaliyada keçirməyə üstünlük verən Toni Bleyer Pugliaya gedərkən yüz ölçüb, bir biçməlidir. **"Mən orada olmuşam, insanlar çox qəzəblidir"**, Emma Huqhes deyib. Onun sözlərinə görə, bir çox aktivist özlərini qayalıqlara zəncirləməklə kəmər çəkilişinin qarşısını almağı düşünür....

Azərbaycan qaz xəttinin tərəfdarları isə deyirlər ki, bu plana qarşı çıxan Grillo hərəkatı Pugliada yaşayan çoxluğun fikrini əks etdirmir. Onlar TAP tərəfindən keçirilmiş sorğuya istinad edirlər. Sorğuya görə, çoxluq qaz kəmərinin yerli landşaftı korlayacağı ilə bağlı iddialara inanmır. Bir çoxları isə düşünür ki, qaz kəməri İtaliyada qazın qiymətinin düşməsinə səbəb olacaq....

Yazıda bildirilir ki,TAP-ın ali rəhbərlərindən birinin qəzəbli kütlə ilə danışıqlar aparması üçün İtaliyanın 50 hərbçisi onu müşayiət edib. Regiondakı binaların divarlarında anti-TAP çağırışları olan şəkillərə və yazılara rast gəlmək olar...

TAP yerlərdə öz nüfuzunu artırmaq üçün yerli festivalların keçirilməsinə 500 min avroya yaxın vəsait xərcləyib. Ancaq aktivistlər bu festivalları da əks-təbliğat üçün istifadə ediblər...

Məqalənin sonunda deyilir ki, bu kəmər prezident Əliyevin ən önəmli ambisiyalarından birini təmin etməlidir. Analitiklər onu da bildirirlər ki, prezident Azəri qazını ixrac etməklə ölkənin azalmaqda olan gəlirlərini kompensasiya etmək istəyir.

Toni Bleyerin son təyinatına hüquq müdafiəçiləri də etiraz edirlər. Onlar iddia edirlər ki, mövcud iqtidar Azərbaycanla şəxsi mülki kimi rəftar edir. Bu qaz kəməri isə ona mövqelərini daha da gücləndirməyə imkan verəcək...

Bu kimi məsələlərə aydınlıq gətirmək üçün TAP əleyhdarları cənab Bleyerin ofisinə yazılı müraciət ediblər. O isə bu sorğunu cavabsız qoyub...

**❑ Elbəyi HƏSƏNLİ (Sürix)**

**P.S** *Şübhəsiz ki, Azərbaycan qaz xəttinə qarşı aparılan bu kampaniyanın arxasında Rusiyanın bəlli dairələrinin əli var. Rəsmi Moskva Cənub Axın qaz kəmərini Avropaya çəkmək istəyir. Nəticədə Azərbaycanla Rusiya arasında iqtisadi maraqlardan dolayı ciddi rəqabət yaranıb.*

# Rusiyanın tərifindən sonra...



**Hüseynbala SƏLİMOV**

**Bəzən heç nə təsadüfən olmur. Diplomatiya heç də bütün dərdlərin çarəsi deyil. Diplomatiya da gücə söykənəndə təsirli olur. Amma Azərbaycan və Ermənistan prezidentlərinin avqustun 8-9-da Soçidə görüşəcəkləri haqda xəbər döyüş bölgələrində son günlərdə yaşanan narahatlığı azacıq da olsa səngitdi desək izafi bir təhrifə yol vermərik.**

Çoxdan idi ki, yüksək səviyyəli görüşlərə "stop" deyilmişdi. Azərbaycanın Xarici İşlər Nazirliyi bir neçə dəfə bəyanat yaymışdı ki, ölkə rəhbərliyi nəticəsiz görüşlərə can atmır. Çox güman ki, Ermənistan rəhbərliyini də elə bu bəyanatlar isterik vəziyyətə gətirmişdi.

Hərçənd ki, döyüş bölgələrində vəziyyətin başqa səbəbdən də gərginləşəcəyi uzun müddət idi ki, proqnozlaşdırılırdı. Avropa Birliyilə assosiasiya sazişini imzalamamaqla Azərbaycan rəhbərliyi Rusiyanın minimum tələblərini təmin etsə də Rusiya rəhbərliyi bu ölkədən növbəti addımı gözləyir - Azərbaycan da digər ölkələr kimi özünün Gömrük Birliyinə və Avrasiya İttifaqına birmənalı münasibətini açıqlamalıdır.

Azərbaycanda düşünürlər ki, onların total mənada bloklara qoşulmamaq siyasəti Rusiyanı təmin etmək iqtidarındadır. Amma Rusiyada belə düşünürlərmi? Təbii ki, yox. Bunu bu ölkənin rəsmilərinin seyrək bəyanatlarından sezmək olar. Halbuki bir müddət bundan əvvəl Bakıda olan xarici işlər naziri Sergey Lavrov bildirdi ki, onun ölkəsi Azərbaycanı heç bir ittifaqa səsləmir. Amma bu, səmimilik həddindən uzaq bəyanat idi. Ən azı ona görə ki, Sergey Lavrovdan əvvəl Azərbaycana baş çəkən Rusiya rəsmiləri tamam başqa sözlər deyirdilər...

Elə bu səbəblərdən də Rusiyadan Azərbaycana təhdidlərin olacağı gözlənirdi.

Rusiya bunu necə həyata keçirə bilərdi? Hətta yenicə siyasi proseslərə maraq göstərənlər də Rusiyanın təhdidlərinin bir ünvanını göstərirdilər - Dağlıq Qarabağ və Ermənistanla həmsərhəd bölgələr.

Təsadüfi deyil ki, ölkə bir neçə gün gərgin döyüş anları yaşadı. Elə həmin bu günlərdə də xəbər verildi ki, istisna deyil ki, prezidentlər avqust ayında görüşəcək...

Danışıqların bərpa olunmasında Ermənistanın da maraqları var. Ermənistan üzücü, nəticəsiz danışıqlar prosesinin davam etməsində maraqlıdır. Bunun bir neçə səbəbi var. Onlardan ən başlıcası da odur ki, həmin bu danışıqlar Azərbaycanı perspektivsiz diplomatik labirintdə saxlayır.

Özünüz fikir verin. Son günlərdə atəşkəs əsasən Dağlıq Qarabağdan uzaqda, Ermənistanla həmsərhəd olan digər bölgələrdə pozulurdu. Bəs buna dünya ölkələrinin reaksiyası necə oldu? Onlar ümumi ifadələrlə kifayətləndilər və hər iki ölkəni atəşi dayandırmağa çağırdılar...

Bütün bu proseslərə baxanda adamın ağlına bir fikri gəlir. Ümid yaxşıdır, gəl, ümid qədər də insanı dolaşdıran, onu fəaliyyətdən saxlayan ikinci bir şey yoxdur. Bəli, rəsmi Bakı hələ də ümid edir...

Bakı ümid edir ki, Rusiya nə vaxtsa üzünü Azərbaycana tərəf çevirəcək və Azərbaycan ərazilərinin işğalının arxasından çəkiləcək. Amma olacaqmı bu? Güman etmirik. Müxtəlif dönəmlərdə Rusiya Azərbaycandan torpaqlar qoparıb və onları qaytarmayıb, əksinə Ermənistanın tərkibinə qatıb...

Bakı ümid edir ki, Azərbaycanın sosial-iqtisadi inkişafı və Ermənistanın geriləməsi sonuncunu vadar edəcək ki, işğalçılıq siyasətindən konstruktiv bir siyasətə keçsin. Amma olacaqmı bu? Düşünmürük. Ona görə ki, çox kasıb, amma militarist ölkələr var bu dünyada. Şimali Koreyada az qala acından ölürlər, amma öz siyasətlərindən əl çəkmirlər...

Bəs nə etməli? Belə bir halda hansı siyasəti aparmalı? Güclənməyin və güclü dövlətə çevrilməyin alternativini fikirləşmək çətindir. Bəzən belə fikirlər səslənir ki, Azərbaycanın silahlanmasına ehtiyac yoxdur, o, nə qədər silahlansa da, Rusiyaya çata bilməz, Azərbaycan ərazilərinin işğalının arxasında isə məhz Rusiya dayanır. Bu fikirdə həqiqət olsa da ümumilikdə götürəndə o, çox təhlükəli bir tendensiyaya çevrilə bilər. Rusiya bir neçə dəfə azərbaycanlıları yaxşı silahlanmış və mütəşəkkil erməni dəstələri ilə üzbəüz qoyub...

Elə bu son günlərdə də belə oldu. V.Jirinovski Azərbaycanı və azərbaycanlıları bir xeyli təriflədi. Arxasınca isə Ermənistan silahlı qüvvələri Azərbaycan ərazisinə daha bir hərbi müdaxilə etməyə cəhd göstərdilər. Nə edəsən ki, top yıxmayan Şərq qalalarını bəzən tərif yıxıb...



# Jurnalistlər hərbi toplanışa hazırdır

## Onlar hesab edir ki, bu, müharibə şəraitində çox vacibdir

**Ötən həftə cəbhə bölgəsində baş verən olaylar və bunun mediada işıqlandırılması müxtəlif reaksiyalara səbəb oldu. Bunun ardından bəzi saytlarda və sosial şəbəkələrdə Müdafiə Nazirliyinin təşəbbüsü ilə jurnalistlərin hərbi toplanışının keçiriləcəyi haqqında xəbərlər yayıldı.**

“AzeriDefence” saytı hərbi mənbələrdən əldə etdiyi məlumata əsaslanaraq yazır ki, yaxın vaxtlarda keçirilməsi planlaşdırılan hərbi toplanışa televiziya, radio, qəzet-jurnal və elektron KİV-lərdə çalışan kişi jurnalistlər cəlb olunacaqlar.

Xəbərdə qeyd olunub ki, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti tərəfindən Müdafiə Nazirliyinin sifarişi üzrə keçiriləcək hərbi toplanışın ən azı 10 gün davam edəcəyi gözlənilir. Hərbi toplanışa istisnalar qoyulmadan həm baş redaktorlar, həm də sıravi jurnalistlər cəlb olunacaqlar. Hərbi toplanışa çağırılan jurnalistlər Azərbaycanın cəbhə xəttinə yaxın poliqonlarının birində səhra şəraitində hərbi təlimə cəlb olunacaqlar. Eyni zamanda jurnalistlər üçün bir günlük hərbi vəziyyət və səfərbərlik dövründə medianın və jurnalistlərin fəaliyyəti mövzusunda treninq keçiriləcək.

**Bu xəbərin izi ilə müxtəlif KİV-lərdə çalışan kişi jurnalistlər və redaktorlar arasında sorğu keçirdik. Rəyini soruşduğumuz jurnalistlərdən əksəriyyəti bu addımın çox vacib olduğunu vurğulayıb, təlimdə iştirak etməyə hazır olduqlarını bildiriblər.**

**“Anspress” saytının müxbiri Hafiz Əhmədov hər zaman bu cür təlimlərə qatılmağa hazır olduğunu dedi:** “Əlbəttə, hər zaman getməyə hazıram. Bizim jurnalistlərin hərbi bilikləri kifayət qədər deyil. Həm də çoxu hərbi xidmət keçməyib. Hərbi təhsilin verilməsi çox mühüm məsələdir”.

**“Yeni Müsavat” qəzetinin əməkdaşı Cavanşir Abbaslının fikrincə, jurnalistlərə hərbi təlimlər keçirilsə, böyük töhfələri ola bilər:** “Müharibə başlayarsa, əsas yüklərdən biri jurnalistlərin üzərinə düşəcək. Jurnalist hər şeydən əvvəl cəsarətli olmalıdır. Ona görə də müharibə olarsa, cəsarətli mətbuat nümayəndələrinə ehtiyac duyulacaq. Hərbi təlimlər bu baxımdan önəmlidir. Jurnalist olaraq, belə bir təlim həyata keçirilsə, iştirak edəcəyəm. Bütün jurnalistləri belə təlimlərdə fəal iştiraka səsləyirəm”.

**AzadlıqRadiosunun reportyoru İslam Şıxəli deyib ki, onun belə bir təlimdə iştirakla bağlı verəcəyi qərar təlimin şərtlərindən asılı olacaq:** “Döyüş şəraitində reportyorun hərəkətlərini tənzimləyən xüsusi qaydalar var. Ancaq əmin deyiləm ki, Azərbaycanın Müdafiə Nazirliyi həmin qaydaların tam təmin olunmasına şərait yaratsın. Ümid edirəm hərbi təlimdə "nə edə bilərik" və “nə edə bilmərik” suallarına dəqiq cavablar tapılar".

**“Turan” İnformasiya Agentliyinin reportyoru Etimad Budaqov isə belə təlimlərin daha öncə keçirilməli olduğunu bildirib:** “Bu yaxşı haldır. Əslində də daha əvvəl olmalıydı. Bu təlimlərin istər hərbi jurnalistikanın inkişafına, istərsə də cəmiyyətin maarifləndirilməsinə, düzgün informasiya ilə təmin olunmasına çox böyük köməyi olacaq. Əgər belə təlimlər daha əvvəl təşkil edilsə idi, indi yalan xəbərlər daha az yayılardı. İnformasiya müharibəsində olduğumuz bir zamanda insanlarda bu qədər çaşqınlıq yaratmaq düzgün deyil”.

**Ulus Tv İnternet Televiziyasının əməkdaşı Məğrur Salmanov belə təlimlərin keçirilməsinin vacib olduğunu deyir:** “Cəbhə xəttinə göndərilən jurnalist, peşəkarlıqdan əlavə, fiziki və psixoloji cəhətdən mövcud şəraitə hazırlıqlı olmalıdır. Jurnalistin hüquqi və etik tələblərdən yetərincə xəbəri olmalıdır ki, cəmiyyətə dezinformasiya ötürməsin, hərbi sirləri yaymasın. Bütün bunlar üçün hərbi təlimlərin keçirilməsi vacibdir və mən də iştirak etməyə hazıram.”

**Fotoqraf Əhməd Muxtar hərbi təlimin jurnalistlər üçün vacib olduğunu bildirib:** “Sırf peşə bacarıqlarının artırılması baxımından çox vacibdir. Müharibə zamanı bir jurnalistin əməl etməli olduğu qaydalar, döyüş şəraitində informasiyanı toplamağın və yaymağın etik və hüquqi tərəfləri və sair haqqında biliklərin əldə edilməsi baxımından önəmlidir”.

Mövzuya münasibət bildirən redaktorlar da belə hərbi təlimlər keçiriləcəyi təqdirdə qatılmağa hazır olduqlarını bildiriblər. “Qafqazinfo” saytının baş redaktoru **Elbrus Ərud** sualımıza “Vətən, millət üçün nə lazımdırsa edərik” deyə, cavab verərək, bu cür təlimlərin keçirilməsini müsbət qiymətləndirib.

**Aznews.az saytının baş redaktoru Elçin Zahiroğlu Müdafiə Nazirliyinin son günlərdəki fəaliyyətindən narazılığını bildirsə də, təlimə qatılmağa hazır olduğunu deyib:** “Vacib məsələdir. Ancaq bu işi nazirlik hansı səviyyədə keçirə biləcək, bu barədə söz demək çətindir. Təəssüf ki, Müdafiə Nazirliyi mətbuatla çox pis işləyir. Bunun acı nəticəsini də son günlərdə gördük və bu proses davam edir. Qorxuram bu təlimlərə də reket və ya adı olub, özü olmayan saytların, qəzetlərin əməkdaşları cəlb oluna”.

Baş redaktor qeyd edib ki, əgər bu təlimlərə qatılmaq müraciət əsasında baş tutacaqsa, orada iştirak etməyə hazırdırlar.

❑ **Nərgiz LİFTİYEVA**

# Günün altında qovurulanlar

## **Fəhlə Vüsal Tağıyev:** “İstidə qum daşımağın nə demək olduğunu bu işlə məşğul olan bilər”

**Yayda günəşin qızmar şüalarından qorunmaq üçün insanların çoxu kölgəliklərə çəkilir, şəhərdə qarşılarına su kranı çıxan kimi əl-üzlərini yuyub sərinləyirlər. Ancaq bu istidə açıq hava şəraitində, günün altında işləmək məcburiyyətində qalan xeyli insanlar da var. Onlar günün ən qızmar çağlarında belə yol çəkir, asfalt döşəyir, körpü tikir, daş qaldırır, beton tökürlər. Yayda qızmar günəş şüaları altında işləmək əsl işgəncədir. Ancaq istənilən vaxt paytaxtın küçələrində bu cür insanlara rast gəlmək mümkündür. Onlar üçün bir gün işləməmək həmin gün evə çörək pulu apara bilməmək deməkdir.**

Biz də günün ən isti vaxtını seçib bu cür insanların axtarışına çıxdıq. Yolumuzu tikinti işləri gedən məkanlardan saldıq. Günün altında hüquqları ilə birgə günəş şüası altında qovrulan fəhlələrə yaxınlaşıb söhbət etməyə çalışdıq. Fəhlələrdən istidə necə işlədiklərini soruşduq. **Akif adlı fəhlə dərindən bir ah çəkərək istidə işləməyin əsl zülm olduğunu dedi:** “Nə edə bilərik. Biz də çörəyimizi belə zülmlə qazanmağa məcburuq. Artıq 10 ilə yaxındır ki, tikintidə və digər yerlərdə fəhləlik edirəm. Yayda işləmək xüsusilə çətindir. Qışda yenə birtəhər çalışmaq olur. Bu yaxında işə yenicə başlamış cavan bir oğlanın istidən ürəyi getdi. Bu iş zülmdür. Bunu hər kəs bacarmır. Arada 20-30 dəqiqə günorta fasilə veririk. Onu da bəzən çox görürlər. Hər kəs istəyir ki, işini tez bitirsin”.



**Tikintidə qum daşıyan Vüsal Tağıyev deyir ki, dəhşətli isti olanda bir az kölgəyə çəkilir və işə fasilə verir:** “Mənim işim lap çətindir. İstidə qum daşımağın nə demək olduğunu bu işlə məşğul olan bilər. Çox isti olanda dayana bilmirəm. Bir az kölgəyə çəkilir sərinləməyə çalışıram. Amma bu gün heç dayanmamışam”.

Qeyd edək ki, biz tikintidə olarkən saat 14:00-u göstərirdi. Yəni günün ən qızmar vaxtı.

Fəhlələrin şəklini çəkmək istəsək də, “bizi işimizdən edərsən” deyib razılaşmırlar.

Daha sonra yolumuzu metronun “Xalqlar dostluğu” stansiyasının yaxınlığında yerləşən “qul bazarı”ndan saldıq. Havanın isti olmasına baxmayaraq, burada da hər kəs əllərinə müxtəlif alətlərini alıb yol kənarından keçən maşınlara yaxınlaşıb fəhlə lazım olub-olmadığını soruşurdu. “Qul bazarı”nda iş axtaran bir neçə nəfərlə söhbətləşdik. **Onlardan Ağa İbrahimov adlı kran düzəldən deyir ki, bir neçə ildir ki, qışda-yayda “qul bazarı”nda dayanır:** “Xüsusən də yayda çox çətindir çöldə dayanmaq. Özü də ümidsiz dayanmaq. Bilmirsən ki, bu gün bu cəhənnəm istisində dayanmağınla uşaqlarına heç olmasa 5 manat çörək pulu apara biləcəksən ya yox. 40 yaşım var. İnstitut qurtarmışam. Ancaq iş tapa bilmədiyim üçün 3 ildir ki, burada dayanıram və qul kimi çalışıram. Yalandan deyirlər ki, işsizlik azalıb, iş yerləri açılıb. Haradadır? Biz niyə görmürük?!”





Elə söhbətimizin bu yerində bir maşın gəlir və usta lazım olduğunu deyir. A. İbrahimov “gedim, bəlkə 1-2 manat qazandım deyərək” bizdən uzaqlaşır və çörək pulu qazanmaq ümidi ilə digər fəhlələrlə bərabər maşına tərəf qaçır. Bizdə uğurlar arzulayıb yolumuza davam edirik.

"Nəsimi" bazarı yaxınlığında yol kənarında əllərində süpürgəsi ilə oturan iki orta yaşlı qadınla rastlaşırıq. Görünür ki, bu xanımlar isti olduğu üçün yolu süpürməyi yarımçıq qoyub bir az istirahət etmək qərarına gəliblər. Yaxınlaşıb yanlarında otururuq və söhbətə başlayırıq. Belə havada işləməyin çətin olub-olmadığını soruşuruq. **Adının Zərnigar olduğunu deyən qadın “nə edək, biz işləməyək, kim işləsin” deyə dərindən bir ah çəkir:** “Çox istidir. Amma nə edək, işləməyə məcburuq. Buraları təmiz görməsələr bizi işdən çıxararlar. Gün vurmasın deyə tez-tez su içirik. "İstidir, işə çıxmırıq və ya hava bir az sərinləsin işləyək" desək pulumuzu kəsərlər. Başqa çarəmiz yoxdur".

**Söhbətə qatılan digər qadın onları günün altında qalmağa başqa insanların məcbur etdiyini dedi:** “Camaat əlinə nə gəldi yerə atır. Zibil qutusu ola-ola niyə yerə zibil atırsınız ki? Niyə bizim işimizi artırırsız?! Zibil az olanda biz də tez işləyib qurtarırıq”.

Süpürgəçilər deyinə-deyinə süpürgələrini əllərinə alıb yolu süpürməyə davam etdilər.

❑ **Günel MANAFLI**
**Fotolar müəllifindir**

YENİ MÜSAVAT
N 195 (5904) 5 avqust 2014

# Ağdamda müdafiə nazirinin mühafizəçisi də şəhid olub

## Erməni komandir İrəvanı ölmüş əsgərlərin meyitlərini gizlətməkdə suçlayıb...

**Cəbhə xəttində şəhid olan hərbçilərimizdən biri müdafiə naziri Zakir Həsənovun mühafizəçilərindən olub. Bu haqda qafqazinfo saytının yaydığı xəbərdə deyilir ki, avqustun 1-dən 2-nə keçən gecə erməni kəşfiyyat-təxribat qrupu cəbhənin Ağdam-Ağdərə istiqamətində müdafiənin ön xəttində yerləşən mövqelərimizdəki postlara növbəti dəfə basqın etməyə cəhd göstəriblər.**



Həmin vaxt şəhid olanlar arasında gizir Əliyev Pərvin Səlahəddin oğlu da olub. P.Əliyev xəbəri yayan saytın rəhbəri Elbrus Ərudun qonşusu və uşaqlıq dostudur. Jurnalist deyib ki, Pərvin Zakir Həsənov müdafiə naziri təyin olunandan sonra onun mühafizəsini həyata keçirən şəxslərdən biri olub.

Pərvin xüsusi təyinatlı briqadada xidmət eləyib və "muzdlu" kimi uzun müddət xidmət keçib. Evlidir, iki övladı var. Elbrus Ərud həmçinin qeyd edib ki, şəhid olanlardan daha birisi - Rahil Hüseynov da onun həmkəndlisidir. Hər iki şəhid Biləsuvarın Nərimankənd kəndindəndir.

Aldığımız başqa məlumata görə, Pərvin Əliyev və Rahil Hüseynov xüsusi təyinatlı elit dəstədə olublar. Z.Həsənov müdafiə naziri təyin olunandan sonra P.Əliyevlə R.Hüseynov digər 3 şəxslə birgə nazirin mühafizəsinə təyin olunublar.

Qeyd edək ki, Ağdam-Ağdərə istiqamətində düşmən təxribatı zamanı, onun hücumunun qarşısını alarkən Silahlı Qüvvələrimizin hərbi qulluqçusu gizir Əliyev Pərvin Səlahəddin oğlu ilə yanaşı kiçik gizirlər Hüseynov Rahil Əfsər oğlu, Əhmədov Elçin Rasim oğlu və müddətdən artıq həqiqi hərbi xidmət edən (MAXE) əsgər Quliyev Sərxan Qeyrət oğlu şəhid olublar. Həmin vaxt düşmənin çox sayda canlı qüvvəsinin məhv edilməsi xəbəri də var.

Məlumata görə, erməni tərəfi itkilər haqda məlumatı gizlətməklə ölkə daxilində həddən ziyadə ağır durumda olan cəmiyyətin qəzəbindən yayınmağa çalışır. Düşmən tərəf meyitləri Xankəndindəki morqda gizlədir.

Bu məxfilik uzun sürməyəcək. Artıq Qarabağ müharibəsində Azərbaycana qarşı vuruşmuş işğalçı Ermənistanın "Arabo" batalyonunun komandiri Manvel Eqiazaryan Ermənistan mətbuatına səslənərək cəbhədə baş vermiş əsgər ölümü xəbərlərinin mətbuatda yayımlanmasını tələb edib. Keçmiş komandir 18-20 yaşlı erməni əsgərlərin cəbhədə həlak olmasının gizlədilməsini hakimiyyətin qorxusu ilə əlaqələndirib.

Eqiazaryan son döyüşlərdə xeyli erməni əsgərin Azərbaycan ordusu tərəfindən öldürüldüyünü qeyd edib.

Azərbaycanın Milli Qəhrəmanı, general-leytenant Rövşən Əkbərov ermənilərin 71 itki verməsi haqda məlumat verib. Aydındır ki, 1-ci Qarabağ müharibəsi dövründə Füzuli, Tərtər döyüşlərindən keçmiş general-leytenant 71 rəqəmini təsadüfi demir. R.Əkbərov kifayət qədər peşəkar hərbçidir və onun "havaya güllə atması" bu günə qədər olmayıb. Onun düşmənin 71 itki verməsi və 80 əsgərinin yaralandığını dəqiq bilgilərə əsaslanmasına şübhə yoxdur.

R.Əkbərov "bu döyüşlərdə, baş verən atışmalarda düşmənin 6-7 postu məhv edilib" söyləyib.

Cəbhə xəttində vəziyyət isə kəskinləşməkdə davam edir. İctimai yerlərdə, sosial şəbəkələrdə ən yaxın zamanda səfərbərlik elan ediləcəyi və yeni Qarabağ müharibəsinin başlanacağı haqda müzakirələr aparılır.

❑ ELSƏN

# Veteran döyüşçülər prezidentə səsləndi

**Cəbhə xəttində yaşanan gərginlik və hərbi əməliyyatlar könüllü batalyonlar yaradılması fikrini aktuallaşdırıb. 1992-93-cü illərdə Qarabağ uğrunda gedən döyüşlərdə könüllü batalyonlar, dəstələr xüsusi fədakarlıq nümayiş etdirib. O baxımdan könüllü batalyonlara yenidən ehtiyac yarandığı deyilə bilər. Artıq Laçın alayının sabiq komandiri Arif Paşayev prezidentə müraciət edib.**



**Arif Paşa:**
"Döyüşmək üçün prezidentə müraciət etmişəm"



**Nurəddin Xoca:**
"Şəhid olmaq növbəsi bizimdir"



**Etibar Əmiraslanov:**
"Biz villa, qazanc, var-dövlət istəmirik, ölüm istəyirik"

**A.Paşayev facebook səhifəsində bunları yazıb:** "Azərbaycan Respublikasının prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevə. Cənab Ali Baş Komandan mən işləmək üçün Rusiya Federasiyasının Komi Respublikasına getməyi planlaşdırırdım. Son vaxtlar cəbhədə yaranan vəziyyətlə əlaqədar bu səfərimdən imtina etdim.

Vətən naminə canından və qanından keçməyə hazır olan biz keçmiş döyüşçülər torpaqlarımızın azadlığı uğrunda aparılacaq mübarizənin ön sıralarında olmağı özümüzə şərəf və borc bilirik. Tanrı vətənimizi və millətimizi qorusun".

**Keçmiş döyüşçü, bozqurd batalyonunun komandiri olmuş Nurəddin Xoca da prezidentə ilk müraciət edənlərdən olub. Onun sözlərinə görə, veteranlara da prezidentə müraciət etməyi söyləyib:** "Artıq bir çox 1-ci Qarabağ müharibəsi veteranları Ali Baş Komandana müraciət ediblər.

Çağırış etmişəm ki, bizi hərbi hissələrə ezam etsinlər. İndi veteranlar orduya çağırılmalı, hərbi hissələrə götürülməlidirlər. Səngərlərdə çoxluğu veteranlar təşkil etməlidirlər. Bir də biz 1-ci Qarabağ müharibəsi veteranları məğlub ordunun əsgərləri ləkəsini öz üstümüzdən silmək istəyirik".

**N.Xocanın fikrincə, cəbhədəki vəziyyətlə bağlı xəbərlər boşluğunu şayiələr doldurur:** "Bu da Müdafiə Nazirliyinin mətbuat xidmətinin yarıtmaz işlədiyini göstərir. Lakin müdafiə nazirinin bütün Qarabağ cəbhəsini gəzməsi, ağır texnikanın cəbhəyə göndərilməsi, zərbə hücum hava qüvvələrinin döyüş bölgələrində havaya qaldırılması, bəzi xəbərlərin düz olduğunu göstərir.

Ordumuz ermənilərin zərbəsinə əks zərbə endirib.

Düzdür, şəhidlərimiz var. Amma döyüş gedir və istəsək də, istəməsək də itkilərlə qarşılaşacağıq. Ona görə də tələb edirik ki, veteranlar orduya çağırılsın. Razıyıq, əsgər kimi səngərə girib, öz təcrübəmizi bu cavan əsgərlərə öyrədək. Həm də indi irəli getmək, şəhid olmaq bizim növbəmizdir. Biz vicdanımızda olan bu ləkəni yumalıyıq. Bu cavan əsgərlər yox. Onlar bu vətənə hələ çox lazım olacaqlar".

**Əfsanəvi döyüşçü Etibar Əmiraslanov da könüllü döyüşməyə hazırdır:** "Cəbhə xəttində olanlar cavan uşaqlardır. Onlar lap iki il qulluq etsinlər. Axı döyüş görməyiblər?! Mütləq köhnə döyüşçüləri onların yanına qoymaq lazımdır. Hər 10-15 əsgərə bir təcrübəli döyüşçü ayırmaq lazımdır. Ancaq bildiklərini edirlər. Biz isə hamımız döyüşməyə hər an hazırıq".

**E.Əmiraslanov deyir ki, məmurlar var Əlibəylinin getməsinə razıdır, amma onun döyüşlərə qayıtmağına yox:** "Məni yuxarılara pis qələmə veriblər. Bilirlər ki, ermənilərin yükşəkliklərinə bayrağımızı sanca-sanca gedəcəyəm, prezident də bu məsələdə diqqətlidir. O halda məmurlar pis vəziyyətdə qalacaqlar. Ona görə məni yuxarılara pis təqdim edirlər, istəmirlər döyüşlərə gedim. Biz villa, qazanc, var-dövlət istəmirik, ölüm istəyirik".

❑ E.SALAMOĞLU

# Müharibə ritorikası və zəif təbliğat



**Mahal İSMAYILOĞLU**
mahal57@mail.ru

**Az qala unudulmuşdu Qarabağ... Çal-çağır, sıralanan şənliklər, gəlib-gedən qonaqların şərəfinə düzənlənən ziyafətlər, bir il sonra keçiriləcək idman yarışına xərclənən pullar bizim müharibə şəraitində yaşadığımızı unutdurmuşdu. Dağlıq Qarabağ ətrafında gedən savaşda atəşkəs elan olunandan sonra ilk dəfə burnumuza barıt qoxusu dəydi...**

İki-üç gün ərzində gedən savaşda şəhid olan əsgərlərimiz bizə sağalmayan yaramızın olduğunu, torpaqlarımızın düşmən tapdağı altında qaldığını xatırlatdı. Və müharibə vəziyyətində olan ölkədəki əyər-əskiyi də dərhal üzə çıxartdı.

Hərbi sahə üzrə mütəxəssis deyilik, amma elə o qədər də potensiala malik olan bir sahədə - mətbuatda çalışırıq. Kimə sirdir ki, zəif təbliğat olan ölkə istənilən savaşda üstünlük qazana bilmir. Bəlkə də diletantlar, urapatriotlar öz arqumentlərini ortaya qoyacaqlar. Amma bütün hallarda belə təbliğat zəngin ölkənin potensialı ilə zərrəcə üst-üstə düşmür.

Üç-dörd gün cəbhədən gələn xəbərlər, onların təqdimatı göstərdi ki, daha çox xaosdan söhbət getdi. Hətta bir çox məqamlarda cəbhədən gələn xəbərlər heyrət doğururdu: "Əcəba, nədən bizim tv-lər, xəbər agentlikləri bu qədər yanlışa yol verir?!" Bilmirəm, kim göstəriş vermişdi ki, tankların, topların cəbhə bölgəsinə daşınmasını əks etdirən süjetlər tv-lərdə, videogörüntülər xəbər portallarında belə gen-bol yayılsın. Axı müharibənin elementar qanunları var: heç vaxt cəbhə bölgəsində olan texnika belə səxavətlə nümayiş etdirilmir, əksinə, olduqca məhdud resurslarla böyük uğur qazanıldığı təbliğatda əsas mövzu olur.

Axı o tankların, döyüş maşınlarının cəbhəyə daşınmasını nümayiş etdirmək nəyə lazım idi? Onsuz da düşmənin əlində də bizə tuşlanan analoji silahlardan var. Özü də bu silahlar münaqişədən maksimum bəhrələnmək istəyən ölkədə - Rusiyada istehsal edilib. İndi heç kimə sirr də deyil ki, dərin iqtisadi, sosial böhran girdabına düşən Ermənistanı da indiki məqamda bu savaşa sürükləyən Rusiyadır.

Tanınmış dövlət xadimlərindən birinin dilindən qopan ifadələr indi yerini tapır: "Düşmən ona gərəkli olan informasiyaların böyük əksəriyyətini mətbuatdan götürür, xırda bir hissəsi isə məxfi kəşfiyyatın öhdəsinə düşür".

Cəmisi iki-üç gün sürən, amma lokal şəkildə hələ də davam edən savaşda informasiya yanlışlığı o qədər narahatlıq doğurdu ki, hətta bununla bağlı müəyyən qurumlar KİV-lərə səslənməli oldular.

Bu qədər ajiotaja varmaq və bu axarda yol verilən yanlışlar ciddi narahatlıq doğurmalıdır. Bəlkə də ordu quruculuğunun özü qədər vacib olan iş onunla bağlı təbliğatın qurulmasıdır. Bilmirəm diqqət yetirdinizmi, ötən əsrin doxsanıncı illərinin əvvəlində baş verənlər sanki eynilə təkrarlanırdı. Axı o vaxtdan 20-25 il ötür, doğrudanmı ciddi istinadlara söykənən təbliğat qurmaq yaddan çıxıb? Axı belə məqamlarda təbliğat ruporunu dərhal Müdafiə Nazirliyinin mətbuat xidməti ələ almalı, cəmiyyətə ölçülüb-biçilmiş informasiya təqdim edilməli, qalan bütün təbliğat vasitələri də bu istiqamətə yönlənməlidir.

Biz az qala Dağlıq Qarabağ savaşının elə ilk günlərindən gileylənirik ki, informasiya blokadasına alınmışıq. Bu illər ərzində də ciddi dönüş baş verməyib. Bu da danılmaz həqiqətdir ki, qloballaşan dünyada hər bir dövlət, toplum bütün sədləri yarıb, öz təbliğatını qura bilir. Sadəcə olaraq, bu təbliğat bir günün, bir ilin ərzində araya-ərsəyə gəlmir, bu, bir an da olsun fasilə verilməyən prosesdir. Bu baxımdan mükəmməl informasiya məkanına sahib olmaq istəsək, elə bir ciddi manea ilə qarşılaşmayacağıq. Yeganə çətinlik maliyyə resurslarıdır ki, şükürlər olsun, bundan gileylənə bilmərik.

Keçmiş sovet imperiyasındakı bütün münaqişələr eyni ssenari üzrə idarə olunur. Hətta bununla bağlı ritorika da ən xırda detallarına kimi müəyyən edilib. Əslində münaqişələrin diplomatik yolla həll edilməsinə çağırış da onu dəstəkləyən üçün bir təbliğat vasitəsidir. Məqamı gələndə işə salınır, iddiaların təmin edilməsində kara gəlir. Biz nəzərə almalıyıq ki, belə ziddiyyətlər burulğanına düşmüşük. Buna görə müharibə ilə bağlı informasiyaları dövriyyəyə buraxanda daha diqqətli olmalıyıq.

Bütün baş verənlərdən nəticə çıxarmaq məqamıdır. Bunun üçün bizim imkanlarımız və intellektual potensialımız var.

**Təbrik**



**Rübabə xanımı 50 yaşı tamam olması münasibətilə həyat yoldaşı Mirzə bəy, oğlanları Bəhrux bəy, Bəhram bəy təbrik edir, ona uzun ömür və cansağlığı, işlərində müvəffəqiyyətlər arzulayırlar.**




**Elan**

**Sabunçu rayonu, Balaxanı qəsəbəsində, yeni yaşayış massivində təcili torpaq sahəsi satılır. Qiyməti razılaşma yolu ilə.**

**Əlaqə 050 340-60-55 Mübariz**

**Elan**

**Bakının Türkan qəsəbəsində dənizdən 600-700 metr aralı, sahəsi 20 sot olan bag satılır. Bağın orderi, 82 metr dərinlikdən çıxan şirin suyu, hasar və darvazası, meyvə agacları, 1 otaq və mətbəxdən ibarət kiçik tikilisi var. Qaz və telefon xətti yaxınlıqdan keçir. Qiyməti razılaşma yolu ilə.**

**Əlaqə tel: 070-611-64-15**

**Kişilər!!!**

Xəstəliklərdən əzab çəkən adamlar üçün! Diqqət!
**İsrail təbabəti** tətbiq edilir! **Axırıncı şans!!!**
Əgər Sizə nə **Azərbaycanda,** nə də **xaricdə heç kim kömək edə bilməsə və** Siz aşağıda **göstərilən xəstəliklərdən** həmişəlik qurtarmaq istəyirsinizsə, onda **yaxşı insanlara,** keyfiyyətli, qısa müddətdə və tam müalicəsini **d-r Vaiz Səmədov apara bilər:**

---

* **Cinsi zəiflik, meyilin və ereksiyanın azalması tam impontensiyədək** (yaşdan və səbəbdən asılı olmayaraq)
* **Cinsi marağın** və **cinsi aktların** azalması
* **Vaxtından tez** toxum **ifrazatı** (səbəbdən asılı olmayaraq)
* **Toy gecəsinin** uğursuzluqları **(kişi tibbi problemlər)**
* **Prostatitlər.** Prostat vəzin **böyüməsi** və ya **kiçilməsi**
* **Prostat adenoması** *(vəzidə düyünlərin əmələ gəlməsi)*
* **Cinsi vəzilərin**-xayaların **böyünməsi** və ya **kiçilməsi**
* **Qasıq-xayalıqda** sızıltı, küt və ya kəskin **ağrılar**
* Əvvəldən **xarici cinsi üzvün** balaca olması
* **Xarici cinsi üzvün** sonradan **birdən kiçilməsi**
* **Cinsi üzvün** düyünlə birdən **əyilməsi** (Peyroni xəstəl.)
* **Oğlan uşaqlarında cinsiyyət üzvlərinin inkişafsızlığı**
* **Uşaqlarda** gecə vaxtı **yerinə sidiyə getməsi (*enurez*)**
* Hormonal və iltihablı **sonsuzluq** (kişilər və qadınlarda da)
* **Qadınlarda uşaqlıq boruların keçməməzliyi**
* Sidik aktlarının gecə ya **gündüz tez-tez olması**
* Sidik aktlarının çətinlikləri və tutulmaları
* Cinsi aktla bağlı **sidikdə** və **spermada qan olması**
* **Zöhrəvi xəstəliklərdən** sonra **qalıqlar və ağırlaşmalar**
* **Saçların** bütün formalatda **tökülməsi** və **sızanaqlar**
* **Gərginlik, yuxusuzluq, yaddaşın azalması**

---

Həkim qəbulu və həkimə zəng etmək saat 11.00-dan sonra
**Tel: (012) 437-88-05; (050) 213 88-05.**
**Həkimin 16 TV çıxışları: youtube.com və facebook.com "doktor Vaiz Səmədov".**

# Tarixin məşhur simaları türmə həyatı













## Stalin oğurluğa görə 5 dəfə türməyə düşüb, Yanukoviç isə dələduzluğa görə...

**Son illər Azərbaycan türmələri məşhurlarla dolub-daşır. Siyasətçilər, jurnalistlər, hüquq müdafiəçiləri, gənc aktivistlər sanki növbə ilə, bir-birinin ardınca türməyə göndərilir. Amma tarix sübut edir ki, dünya üzrə türməyə düşən məşhurların ümumi sayı da az olmayıb. Siyasətin ən tanınmış simaları tarixin müəyyən dönəmlərində məhbəs həyatı yaşayıblar.**

**Başlayaq Vladimir İliç Lenindən.** Oktyabr inqilabının öncülü və Xalq Sovet Komissarının birinci katibi zamanında fəhlələr arasında aktiv təbliğat aparıb. 70-dən artıq təbliğat vərəqələri paylayıb. 1895-ci ilin dekabrında həbs olunub. Bir il türmədə yatandan sonra 3 il müddətinə Yenisey quberniyasına sürgünə göndərilib.

**İosif Vissarionoviç** Stalin isə türmədə düz 6 dəfə yatıb. Amma bunlardan cəmi bir dəfəsi siyasi səbəblər ucbatından baş verib. Digər 5 həbsin səbəbi isə soyğunçuluq olub. Gənc ideoloq maddi vəsait əldə etmək üçün soyğun, oğurluq, talançılıqla məşğul olurdu. Stalin hətta Tiflisdə həmin vaxt üçün fantastik rəqəm sayılan 1,4 milyon rubl oğurlamaqla tarixdə "qabiliyyətli" oğru kimi ad qazanıb. Bundan başqa, Stalinin bandası Bakıda da bütün neft maqnatlarını qorxu altında saxlamağı bacarıb. Onun banditlik fəaliyyətinin pik nöqtəsi isə "İmperator Birinci Nikolay" adlı paroxoda hücumu olub.

**Adolf Alaizoviç Hitlerdən** isə xüsusi danışmaq lazımdır. Onu ilk dəfə 1923-cü ildə siyasi səbəblərdən həbs ediblər. Səbəb hökumət əleyhinə təbliğat aparması olub. Türmədə isə komfortlu şəraitdə saxlanıb, onun kamerasını digər məhbuslar yığışdırıb. Hitlerə daim ziyarətçi qəbul etməyə icazə verilib. Bununla yanaşı, o, türmədəikən özünün "Mənim mübarizəm" adlı kitabını yazıb.

**Fidel Aleksandroviç Kastro,** Kuba liderinin yolu da türmədən keçib. Kubada aktiv inqilabi hərəkatın iştirakçısı olan Kastro 1953-cü ilin 26 iyulunda San Diyeqidaki Monkada kazarmasına hücum təşkil edib. Bununla da o, diktator Fulqeniko Batisti devirməyə çalışıb. Onun başçılıq etdiyi dəstə uduzsa da, Kastro kəndlərdən birində gizlənməyə nail olub. Onu orda 1 avqust tarixində aşkar ediblər. Məhkəməsində Kastro əminliklə bildirib ki, tarix onu haqlı çıxaracaq. Məhkəmə onu 15 il müddətinə azadlıqdan məhrum etmə ilə cəzalandırıb, bir müddət sonra isə amnistiya ilə azadlığa çıxıb. 4 il sonra Fidel Kastro Kuba hakimiyyətini devirib.

**Nelson Rolilahlaloviç Mandela** da qaradərililərin aktiv müdafiəçilərindən biri *(eyni zamanda CAR-ın ilk qaradərili prezidenti)* kimi türmənin "dadı"nı görənlərdən olub. O, 1961-ci idə qaradərililərin üsyanını təşkil edib. Buna görə 17 ay sonra saxlanılaraq həbs edilib. Bu həbsin gerçəkləşməsinə ABŞ-ın xüsusi xəfiyyələri yardımçı olub. Məhkəmə onu 5 il müddətinə azadlıqdan məhrum etmə ilə cəzalandırıb.

Amma onun həbs həyatı bununla yekunlaşmayıb. Mandela ümumən 27 il həbsdə yatıb. Bu müddət ərzində o, dünya şöhrəti qazana bilib, onun ictimai çıxışları isə tarixin bir hissəsinə çevrilib.

**Venesuelanın sabiq prezidenti Uqo Rafaeloviç Çavesdən** də xüsusi danışmaq lazımdır. 1992-ci ildə onun rəhbərlik etdiyi ordu kolonları etiraz əlaməti olaraq Karakas küçələrinə çıxıblar. Onlar hakimiyyəti ələ keçirmək istəmədiklərini, sadəcə, onu yenidən qurmaq istədiklərini bəyan ediblər. Bunun ardınca isə Uqo Çaves qan tökmək istəmədiyi üçün hakimiyyətə təslim olub, öz silahdaşlarını silahlarını yerə qoymağa çağırıb. Bu üsyanın hazırlığı və təşkilatçılığı ilə bağlı bütün məsuliyyəti isə öz üzərinə götürüb. Çavesi və tərəfdarlarını 2 il müddətinə azadlıqdan məhrum ediblər.

**Ukraynanın keçmiş prezidenti Viktor Fyodoroviç Yanukoviçi** türmənin "tozlu kameralarında" görmək olub. İlk dəfə onu 1970-ci ildə cəzalandırıblar. Amma siyasi yox, kriminal səbəblərə görə. Qarət, dələduzluq və zorakılıq əməllərinə görə həmin vaxt 3 il müddətinə azadlıqdan məhrum edilən Yanukoviç yetkinlik yaşına çatmayanlarla eyni kolonda qalıb.

❑ **Sevinc TELMANQIZI**

# "Azerbaijan Art Festival - 2014" uğurla başa çatdı

## "Nar Mobile" mobil operatorunun dəstək verdiyi layihə çərçivəsində Azərbaycanın 10 bölgəsində gənc rəssamların əsərləri nümayiş etdirildi

**"Nar Mobile" mobil operatorunun sponsorluğu, Mədəniyyət və Turizm Nazirliyinin dəstəyi və Bakı Yaradıcılıq Mərkəzinin (Baku Creative Center) təşkilatçılığı ilə iyulun 2-dən 30-dək keçirilən və Azərbaycanın 10 şəhər və rayonunu əhatə edən "Azerbaijan Art Festival - 2014" incəsənət festivalı layihəsi uğurla başa çatdı. Bir aya yaxın bir müddət ərzində ölkənin müxtəlif bölgələrində keçirilən sərgilərdə gənc rəssam və heykəltəraşların əsərləri nümayiş etdirildi, o cümlədən yaradıcı potensialı olan gənclər üçün ustad dərsləri təşkil edildi.**

**İyul ayının 30-da Bakı Biznes Mərkəzində festivala yekun vuruldu, onun nəticələri barədə ictimaiyyətə geniş məlumat verildi.**

**Xatırladaq ki, ötən ilin yay aylarında "Nar Mobile" mobil operatoru və Bakı Yaradıcılıq Mərkəzi (Baku Creative Center) eyni təşəbbüslə çıxış etmiş, "Azerbaijan Art Festival" incəsənət festivalını ölkənin 11 bölgəsini əhatə edən geniş bir coğrafiyada uğurla başa vurmuşdular. Bu il də səyyah sərgilər və ustad dərslər sayəsində ölkənin şəhər və rayonlarında sadə insanların incəsənətə dair bilik və marağı artırıldı, yaradıcı potensialı olan gənclər üzə çıxarıldı, maraqlı rəngkarlıq, qrafika və heykəltəraşlıq əsərləri nümayiş etdirildi.**

**Azərbaycanın sürətlə inkişaf edən mobil operatoru olan "Nar Mobile" 2007-ci ildən etibarən abunəçilərinə xidmət göstərir. Fəaliyyət göstərdiyi illər ərzində "Nar Mobile" daima sərfəli qiymət siyasətinə sadiq qalaraq, müxtəlif tarif planları ilə abunəçilərinə ən sərfəli təkliflərini təqdim etmiş və onların rəğbətini qazanmışdır. Mobil operator münasib danışıq tarifləri ilə yanaşı, müxtəlifliyi və sərfəliliyi ilə seçilən İnternet paketləri və hər zona üzrə vahid qiymət ödənilməsini nəzərdə tutan sadə rouminq təklifləri ilə abunəçilərin etimadını doğrultmuşdur.**


Əziz Əzizov

# 13-cü cəlilabadlını həbsxanaya göndərmək Əziz Əzizova nəsib olacaqmı?

## Cəlilabadın icra başçısından şikayət var

**Quba və İsmayıllıda baş verən lokal xarakterli xalq üsyanlarından sonra ölkə başçısı İlham Əliyev icra başçılarıyla keçirdiyi müşavirə və toplantılarda şəxsi marağını dövlət mənafeyindən üstün tutan məmurlara xitabən dönə-dönə bəyan edib ki, hər bir icra başçısı, nazir, məmur bilməlidir ki, onlar bu vəzifəyə dövlətə və xalqa xidmət etmək üçün təyin olunublar.**

Onlar bunu dərk etməli, işlərini və gündəlik fəaliyyətlərini də bu tezis üzərində qurmalıdırlar. Burda bir incə məqama diqqət çəkək ki, xüsusilə prezidentin yerlərdəki nümayəndəsi kimi icra başçılarının təyinatında hakimiyyətin bir yanlış siyasəti var: ayrı-ayrı rayonlara kənar bölgələrdən icra başçısı təyin etmə. Quba və İsmayıllı olaylarında bu faktor həlledici rol oynamışdı. Yerli sakinlər rayona yad bir icra başçısının talançılığı azmış kimi onların mental dəyərlərinə də aşkar hörmətsizlik etməsini doğru olaraq bağışlamırlar. Hakimiyyət İsmayıllıya yerli sakini başçı təyin etməklə bu yanlış kadr siyasətini qismən düzəltməyə çalışdı. Amma Cəlilabadda at oynadan, yerli əhaliyə yuxarıdan aşağı baxan Əziz Əzizov kimilərinin timsalında xalq etirazları üçün potensial təhlükə ocaqları hələ də qalır. Məsələnin incəliyi ondadır ki, yerli sakinlərin içərisindən təyin olunan icra başçısı nə qədər əzazil, acgöz də olsa sonunu fikirləşib camaatı incitmir, nahaqdan şərləyib həbsxanaya saldırmır. Necə deyərlər, üz-üzdən utanır, rayondakı ağsaqqalları, ziyalıları ən azı dinləməyə səbri çatır. Fikirləşir ki, sabah oturduğu kreslodan düşə bilər, onda həmyerlilərinin üzünə necə baxacaq, qohum-əqrəbası söyüş yiyəsi olmayacaq ki? Rayona yad icra başçısı isə özünü bu qayğılardan azad hiss etdiyinə görə bütün mənəvi və əxlaqi dəyərləri tapdamaqdan çəkinmir. Az qala hər gün incidilərək, haqsızlığa məruz qaldığına görə paytaxtda ədalət dalınca gələn Cəlilabad sakinlərinin şikayətləri belə deməyə əsas verir ki, bu rayonun başçısı Əziz Əzizov da məhz belələrindəndir. Artıq 8 ildir Cəlilabadda at oynadan bu qəzəbli kiçik padşah talançılığı bir yana *(bu ayrıca bir yazının mövzusudur)* artıq bu müddətdə 12 rayon sakinini həbs etdirib. Cinayət Məcəlləsinin müxtəlif maddələri ilə ittiham olunsalar da onların tək suçu Ə.Əzizovun qanunsuz əməllərinə qarşı açıq şəkildə etiraz bildirmələri olub. Məlumat üçün deyək ki, başçının həbsxanaya saldırdığı bu 12 nəfərin içərisində ana adını daşıyan Solmaz adlı qadın da var. Cəlilabad sakini, 1-ci qrup əlil Fəxrəddin Muradovun ölkə prezidenti İ.Əliyevə, H.Əliyev Fondunun prezidenti M.Əliyevaya, baş prokuror Z.Qaralova, R.Mehdiyevə, F.Məmmədova, F.Ələsgərova, deputat M.Həsənov və KİV-ə ünvanladığı narahatlıq dolu məktubundan belə anlaşılır ki, Ə.Əzizovun cəzalandırmaq istədiyi 13-cü cəlilabadlı Fəxrəddin kişinin 2 azyaşlı uşaq atası olan oğlu Səid Muradov olacaq. İcra başçısının qanunsuz əməllərinə qarşı çıxan və etirazını şəxsən Əziz Əzizovun üzünə deyən, ona xırda sahibkarlardan fantastik töycü tələb etməsinə irad bildirən S.Muradov aprelin 8-dən təcridxanaya salınıb. CM-in 221.3 maddəsi ilə barəsində cinayət işi açılan S.Muradov iki uşağı olan dul qadın Minayə Şirinovanı döyməkdə və ona bıçaqla xəsarət yetirməkdə ittiham olunur. İnsanları günahsız yerə həbsə atmağın ənənəvi üsullarından biri-arvad şəri, üstəgəl hər bir polis rəisinin ehtiyatda saxladığı ştatdankənar iki hal şahidi. "Zərərçəkəni" qapalı şəraitdə saxlayaraq təqsirləndirilən şəxsin yaxınlarıyla görüşməyinə imkan verməyənlər ondan alət kimi istifadə etmək niyyətindədirlər. Ancaq üstündən 4 ay keçməsinə baxmayaraq, bu işin istintaqını yekunlaşdırıb məhkəməyə göndərmək mümkün olmayıb. Çünki iş quraması, elan edilən ittiham o dərəcədə saxtadır ki, bu işdə başçı ilə əlbir hərəkət edən rayon məhkəməsinin sədri Ələjdər Ələkbərovdan fərqli olaraq prokurorluqdan ittiham aktını imzalamaq məsuliyyətini üzərinə götürmək istəyən yoxdur. Təsadüfi deyil ki, S.Muradovun yaxınlarının şikayəti əsasında cinayət işi ayrı-ayrı vaxtlarda iki dəfə Cəlilabad prokurorluğundan alınaraq Respublika Prokurorluğuna verilib. Buna baxmayaraq, hələ ki Bakıdakı himayəçinin hesabına əli hər yerə çatan icra başçısı Ə.Əzizov hər iki halda işi təkrar Cəlilabada qaytarda bilib. Yeri gəlmişkən, bir müddət əvvəl F.Muradov rayonun tanınan nüfuzlu ağsaqqallarından bəzilərini, o cümlədən bir Qarabağ əlilini özüylə götürərək Ə.Əzizovun yanına xahişə gedir ki, oğlunu haqsız yerə həbsə atdırmasın, əgər ona qarşı hansısa günah işlədibsə bağışlasın. Xahişi nəzərə alınmayanda Fəxrəddin kişi başçıya bildirib ki, Bakıya gedib ondan prezidentə şikayət edəcək. Cavabında Əziz Əzizov deyib ki, əksər icra başçıları prezidentlə görüşmək üçün günlərlə Prezident Administrasiyasının qarşısında papaqlarını günə yandırırlar, amma mən nə vaxt istəsəm prezidentlə görüşürəm. Təbii, bu da Ə.Əzizovun ənənəvi yalanlarından biridir. Çünki prezident onun əzazil sifətin, rüşvətdən alışıb-yanan gözünü bircə dəfə görsə həmin axşam sərəncamla onu vəzifədən azad edər. Maraqlıdır ki, ibtidai istintaqda hadisənin baş vermə saatı göstərdiyi tarixdə *(8 aprel, saat 13 radələri)* S.Muradov hadisə baş verən yerdə olmayıb və bunu 50-dən çox cəlilabadlı məhkəmədə təsdiq etmək əzmindədir. Diqqətçəkən daha bir məqamsa odur ki, S.Murdaovun yaxınları "zərərçəkmişin" doğmaları ilə görüşərək M.Şirinovanı başqalarının əlində alət olmaqdan çəkindirmək istəyib. Amma Minayə xanımın doğmaları bildirib ki, onlar da gizli yerdə saxlanılan M.Şirinova ilə görüşə bilmirlər. Fəxrəddin Muradov məktubunda yazır ki, oğluna arvad şəriylə torba tikən rayonda başçının əlaltısı kimi tanınan Uzuntəpə kəndindən Vaqif adlı şəxsdir. Bu şərləmənin ssenarisini də o yazıb, baş rolda oynamaq üçün lazım olan dul qadını da o və rayon məhkəməsinin sədri Ələjdər Ələkbərov tapıb. Məsələ burasındadır ki, hazırda həmin qadınla bağlı bir mülki iş Ə.Ələkbərovun icraatındadır. Mümkündür ki, artıq bu "xidmətinə görə" Ə.Ələkbərov işi M.Şirinovanın xeyrinə həll edib.

Beləliklə, yaxın günlərdə bəlli olacaq ki, adətən nəhs sayılan 13 rəqəmi Əziz Əzizov üçün düşərli olacaq, yoxsa yox. O da mümkündür ki, qurama və qondarma olduğu aydın görünən bu cinayət işi heç məhkəmə baxışına çıxarılmadan prokurorluqda xətm olunsun, yaxud da rayon sakinləri arasında etimadını çoxdan itirərək, ictimai narazılığa zəmin yaradan Ə.Əzizov 13-cü cəlilabadlını həbsxanaya göndərmədən özü yığışıb Bakıya qayıtsın. Bu, ölkə rəhbərliyi tərəfindən atılmış doğru addım olardı ki, heç olmasa bu dəfə hadisələri qabaqlayaraq rayonda etiraz kütləvi hal almamış Ə.Əzizovu vəzifəsindən kənarlaşdırsın.

❑ **Hazırladı: RÖVŞƏN**

# Matəmdə olan ölkənin toy - nişandan qalmayan vətəndaşları...

## Sosial şəbəkələrdə və mediada yaşanan matəm ab-havası restoranların işinə təsir etməyib



**Ötən həftə cəbhə bölgəsində atəşkəs rejiminin pozulması nəticəsində 15 nəfər hərbçimizin şəhid olması ölkəni matəmə bürüdü. Rəsmi şəkildə matəm elan olunmasa da, bir çox əyləncəli tədbirlər, konsert proqramları təxirə salındı, şou-biznes nümayəndələrindən bir neçəsi klip təqdimatı və sair kimi proqramlarını ertələdi. Televiziyalar bu məsələyə zamanında reaksiya verməsələr də, cəmiyyətin qınağından sonra növbəti günlərdə proqramdan əyləncəli verilişlər çıxarıldı. Bugünlərdə doğum gününü qeyd edən sosial şəbəkə istifadəçilərindən bir çoxu statuslarında təbrik mesajları qəbul etmədiklərini yazdılar.**

Bəs görəsən, toy, nişan, ad günü və sair keçirməyi planlaşdıran sadə insanlardan şadlıq mərasimlərini təxirə salan oldumu?

Musavat.com bu suala cavab tapmaq üçün paytaxtda yerləşən bir neçə şadlıq sarayı ilə əlaqə saxlayaraq, onlardan müştərilərinin belə bir addımı atıb-atmadıqlarını soruşub.

**"Ay işığı" restoranından** aldığımız məlumata görə, burda keçiriləcək toylardan biri müştərinin istəyi ilə təxirə salınıb. Səbəb isə cəbhə xəttində gedən atışmalarda hərbiçilərimizin şəhid olması olub.

**"Şuşa" restoranının administratorunun dediyinə görə, restoran tərəfindən keçirilən əyləncə və musiqili proqramlar təxirə salınıb:** "Lakin toylar keçirilir, restoran rəhbərliyinin bunu ləğv etmək səlahiyyəti yoxdur. Bu yalnız müştərilərin istəyi ilə baş verə bilər".

**"Xan bağı" restoranının adının çəkilməsini istəməyən əməkdaşının sözlərindən də aydın oldu ki, toy və şənliklər nəzərdə tutulan qrafik üzrə keçirilməkdə davam edir:** "Dünən də toy olub, bu gün də var. Dövlət tərəfindən matəm elan olunmayıb. Buna görə də toyları təxirə salmağa ehtiyac görmürəm".

Qeyd edək ki, "Neon", "Kainat" və "Təbrik" restoranlarında da toylar keçirilməkdədir. Bu şadlıq saraylarının müştərilərindən toyu təxirə salan olmayıb.

Görünən odur ki, sosial şəbəkələrdə və mediada yaşanan matəm ab-havası restoranların işinə təsir etməyib. İstisna hallar olsa da, toy - nişan sahibləri son hadisələri nəzərə almayıb.

❑ **Nərgiz LİFTİYEVA**

YENİ MÜSAVAT

Son səhifə

N 195 (5904) 5 avqust 2014

# Krala görə 15 il həbs

Tailand kralını facebook sosial şəbəkəsində tənqid edən şəxsə 15 il həbs cəzası verilib. Ölkə məhkəməsi kralla bağlı sözlərinə görə 28 yaşlı adamı 15 il müddətinə azadlıqdan məhrum edib. Musiqiçi olan şəxs 2010-2011-ci illərdə sosial şəbəkədə yazdığı monarxiyanı tənqid edən statuslarına görə nəzarətə götürülüb. Məhkəmə heyəti musiqiçiyə 9 dəfə krallıq qanunlarını pozduğuna görə hər biri üçün 3 il olmaqla 27 il müddətinə həbs cəzası verib. 12 dəfə də xəbərdarlıqlara əməl etmədiyi üçün isə 4 il əlavə həbs cəzası verilib. Ümumi cəzası 31 il olan gənc oğlanın həbs müddətinə endirim edilib və 15 il müddətinə azadlıqdan məhrum olunub.





## Kimyaterapiya ləğv olunacaq

İngiltərədə hazırlanan bir genetik müalicə növünün köməyi ilə xərçəng xəstələrinə tətbiq edilən kimyaterapiya 20 il ərzində tarixə düşəcək. İngiltərənin baş naziri Devid Kameronun açıqladığı projeyə görə, xəstələrin gen xəritəsi çıxarılacaq və xərçəng xəstəliyini yaradan genlər tapılacaq. 4 il davam edəcək təcrübələr zamanı 75 min xəstənin genetik xəritəsi hazırlanacaq. 300 milyon funt sterlinq dəyəri olan layihə çərçivəsində xəstələrin və onların birinci dərəcəli yaxın qohumlarının gen xəritəsi hazırlanacaq. Xərçəng xəstələrinin həm xəstə, həm də sağlam hüceyrələri üçün 100 min kodlu siyahı hazırlanacaq. Nəticədə xəstə genlər üçün xüsusi dərmanlar hazırlamaq mümkün olacaq.

Mütəxəssislər insan orqanizmi üçün bir çox zərərləri olan kimyaterapiya üsuluna qarşı yaradılan yeni müalicə üsulunun əhəmiyyətli olacağına inanırlar.

İngiltərədə yerləşən səs terapiyası akademiyası "Dünyanın ən rahatladıcı mahnısı"nın adını açıqlayıb. 14 il bundan öncə açılan akademiyanın alimləri hesab edirlər ki, Markoni Unionun qrupunun "Ağırlıqsız" adlı mahnısı bu sahədə birinci yeri tutur. Araşdırmaçılar bəyan ediblər ki, bu mahnı masaj etdirməkdən, yeni dəmlənmiş çay içməkdən, gəzintiyə çıxmaqdan daha gözəl hiss yaşadır. Alimlərin fikrincə, mahnı oxunduğu müddətdə onun ritmi insan ürəyinin ritmi ilə üst-üstə düşür və beyin dalğalarını ideal işləməyə məcbur edir. Notların arasında olan boşluqlar isə xüsusi olaraq beyin istirahətinə kömək edir. Akademiyanın araşdırması nəticəsində nümayiş edilən 10 ən yaxşı mahnının siyahısını təqdim edirik:

1. Markoni Union - "Weightless"
2. Airstream - "Electra"
3. DJ Shah - "Mellomaniac" (Chill Out Mix)
4. Enya - "Watermark"
5. Koldplay - "Strawberry Swing"
6. Barselona - "Please Don't Go"
7. All Saints - "Pure Shores"
8. Adel - "Someone Like You"
9. Motsart - "Canzonetta Sull'aria"
10. Cafe Del Mar - "We Can Fly"





## Ölən uşaqlarının cəsədlərini saxlayırlar

Çində yaşayan gənc ata-ana 3 və 5 yaşlı uşaqlarının cəsədlərini soyuducuda saxlayırlar. Ölkə mediasında yayılan məlumatlara görə, ötən həftə iki qardaş oyun oynayarkən faciəvi şəkildə həyatlarını itirib. Yağışın altında oynayan uşaqların ayaqları sürüşüb və dərin bir quyuya düşüb ölüblər. Valideynlərinin və polislərin uzun müddət davam edən axtarışlarından sonra uşaqların meyitləri quyudan çıxarılıb. Uşaqların valideynləri bu hadisəyə görə bələdiyyəni məhkəməyə veriblər. Hadisənin baş verdiyi yerə dondurucu gətirən ata-ana uşaqların cəsədini orada saxlayıblar. Dondurucunun və uşaqların cəsədinin yanında qalan valideynlər heç bir izin itirilməməsi, bələdiyyə işçilərinin cəzalandırılması üçün əllərindən gələni edirlər.




**QOÇ** - Kifayət qədər məhsuldar gündür. Emosionallığınızı soyuqqanlılıqla əvəz edə bilsəniz, bir çox sahələrdə uğurlarınız olacaq. Şəxsi işlərinizdə əsaslı dönüş də mümkündür.

**BUĞA** - Əsas vaxtınızı münasibətlər zəminində qurun. Dostluq-yoldaşlıq istiqamətində, ələlxüsus da büdcə məsələlərində sevindirici anlarınız olacaq. Bu gün uzaq səfərə çıxmaq olmaz.

**ƏKİZLƏR** - Bu zaman kəsiyində hər hansı bir mübahisə və ya münaqişəyə həvəs göstərməyiniz yalnız zərərinizə olacaq. Belə bir mənzərə yaransa, müəyyən ünvanlara qonaq getməyə dəyər.

**XƏRÇƏNG** - Olduqca riskli gündür. Odur ki, istənilən addımı atmazdan qabaq mütləq mövcud reallığı nəzərə almalısınız. Nəticənin uğurlu olmasını istəyirsinizsə, təcrübəli adamlardan yararlanın.

**ŞİR** - Son vaxtlar işlə bağlı passivliyə mübtəla olmağınız sizi yormaqdadır. Bu gün də belə bir şey gözlənildiyindən vaxtınızı əyləncələrə həsr edin. Sevgidə kobudluğa yol verməyin.

**QIZ** - Çoxsaylı görüşlərdə iştirakınızdan xəbər verən Göy qübbəsi maraqlı təkliflər alacağınızı da bəyan edir. Yeni işlərə başlamaq və ya bu barədə fikir mübadiləsi aparmaq üçün yaxşı vaxtdır.

**TƏRƏZİ** - Astroloji göstəricilər həmkarlarınızla münasibətdə təmkinli olmağı tövsiyə edir. Bunu bacarsanız, ciddi probleminiz olmayacaq. Çimərliyə getmək, təbiət qoynunda dincəlmək sizə zövq verə bilər.

**ƏQRƏB** - Qarşınızda perspektivli və yorucu işlər durur. Ulduzlara inansaq, ötən bir həftədə yol verdiyiniz səhvləri düzəltmək imkanı qazanacaqsınız. Etibarsız adamlardan uzaq olun.

**OXATAN** - Sizə borclu olanlardan, eləcə də məvacib prosesində gecikən pullarınızı əldə etməyə çalışın. Əks təqdirdə buna bir həftə nail ola bilməyəcəksiniz. Yerli-yersiz özünüzü tərifləməyin.

**OĞLAQ** - Hər şeydən öncə sağlamlığınıza fikir verməlisiniz. Ağır fiziki işlərdən, hündürlüyə çıxmaqdan ehtiyatlanmalısınız. Qərar qəbul edərkən müsahib rəyini mütləq nəzərə alın.

**SUTÖKƏN** - Yeni əlaqələrə başlamaq, fəaliyyət zəminində dönüş yaratmaq üçün sərfəli tarixdir. Bu istiqamətdə xərcə düşməkdən qorxmayın. Çünki müdafiənizdə duran ulduzlar sizi qoruyacaq.

**BALIQLAR** - Sevinməyə dəyər. Çünki astroloji göstəricilər ötən 5 gündə yarımçıq qalan hansısa planınızın reallığa yaxın olacağını bildirir. Deməli, əzmkarlığınızı artırmaqla buna nail olmalısınız.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

## Xərçəngdən qurtuldu, atdan yıxılıb öldü



Dörd ildir xərçənglə mübarizə aparan Geraldine Jones adlı qadın xərçəngdən xilas olmasını ata minərək qeyd etmək istəyib. İki uşaq anası olan Jones xəstəliyindən xilas olduqdan sonra edəcəklərinin siyahısını hazırlayıbmış. Özünə ata minməyi öyrənmək haqqında söz verən qadın yaxın bir dostunun köməyi ilə dərslərə başlayıb. At sürərkən yıxılan qadının köməyinə təcili tibbi yardım maşını çağırılıb. Həkimlər əllərindən gələni etsələr də, onun həyatını xilas edə bilməyiblər. Xərçəngdən qurtulduqdan sonra ata minmək istəyən qadının həyatını itirməsi hər kəsi şoka alıb. Jonesin həyat yoldaşı arvadının ölüm xəbərinin alarkən şoka düşüb.

**Səhifəni hazırladı: ŞAHNAZ**

Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Zabil MÜQABİLOĞLU

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Azərbaycan" nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.

Lisenziya N: B 114
SAYI: 10.565